Xalqın qəzeti!

# Xalq qəzeti

№ 192 (30886) 10 sentyabr 2025-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

# Azərbaycanın yeni tranzit missiyası qlobal önəm daşıyır

*Çin əyalətindən çıxan ilk yük qatarı İstanbula yön alıb*




**Asiyanın ən dinamik iqtisadi zonalarından sayılan Quandon əyalətinin paytaxtı Quancou şəhərindən yola çıxan ilk yük qatarı Mərkəzi Asiya, Xəzər dənizi, Azərbaycan və Gürcüstan vasitəsilə İstanbul istiqamətinə hərəkətə başlayıb. Bu marşrut Böyük Körfəz regionunu – Quandon, Honkonq və Makaonu Türkiyə bazarları ilə birləşdirən logistik dəhlizdə strateji dönüş nöqtəsi kimi qiymətləndirilir.**

Quancou beynəlxalq limanından yola salınan qatar 50 konteynerdən ibarət yük daşıyır. Məişət texnikası, geyim və gündəlik tələbat malları ilə dolu bu konteynerlər təxminən 20 gün ərzində İstanbul limanına çatdırılacaq. Marşrut dəniz və dəmir yolu prinsipinə əsaslanan yeni plan üzərində qurulub. Qatar Sincan Uyğur Muxtar rayonunun Horqos sərhəd məntəqəsindən Qazaxıstana daxil olur, yük Aktau limanına daşınır. Ardınca konteynerlər Xəzər üzərindən bərə ilə Bakıya gətirilir, Azərbaycan dəmir yolları ilə Qara dənizə ötürülür və oradan yenidən bərə ilə Trabzon limanına çıxarılır. Son mərhələdə isə yüklər dəmir yolu ilə İstanbul istiqamətinə hərəkət edir.

*(ardı 7-ci səhifədə)*

# Bakının möhür vurduğu gerçəklik

*Azərbaycan bölgədə mövcud siyasi nizamı həqiqət və ədalət yolu ilə yaradıb*




**1992-ci ildə yaradılan ATƏT-in Minsk qrupu uzun müddət Qarabağ münaqişəsinin beynəlxalq səviyyədə həlli üçün əsas platforma kimi təqdim edilirdi. Lakin praktika göstərdi ki, qrup əslində konfliktin həllinə deyil, status-kvonun qorunmasına xidmət edib. Münaqişənin dondurulması, regionda qeyri-müəyyənliyin uzadılması Minsk qrupunun fəaliyyətinin əsas xətti idi.**

*(ardı 3-cü səhifədə)*

# Dehli–Tehran–İrəvan üçbucağı: iqtisadi əməkdaşlıq, yoxsa siyasi mesaj?



səhifə ⇨ 4

# Şimali Kipr Şərqi, yoxsa Qərbi seçəcək?

*Yaxınlaşan prezident seçkiləri bu sualı qəti olaraq cavablandıracaq*



**Oktyabrın 19-da Şimali Kipr Türk Cümhuriyyətində (ŞKTC) prezident seçkiləri keçiriləcək. Əgər ilk turda namizədlərdən biri tələb olunan səs çoxluğunu (50 faiz +1) əldə edə bilməsə, yeddi gün sonra ikinci tur olacaq. ŞKTC-ə kimin lider seçiləcəyi Türkiyə ilə münasibətlərin gələcək xəttini müəyyənləşdirməklə yanaşı, Azərbaycanın Kipr türklərinə dəstəyinin siyasi çərçivəsini gücləndirəcək. Eyni zamanda bu proses Türk dünyasının geosiyasi xəritəsində yeni istiqamətlərin cızılması, ŞKTC-nin beynəlxalq səviyyədə tanınma məsələsinin yenidən gündəmə gəlməsi və "bir millət, çox dövlət" konsepsiyasının praktik gücünün sınağa çəkilməsi kimi simvolik məna daşıyır. Bu səbəbdən, 19 oktyabr seçkiləri həm regionun taleyi, həm də Türk dünyasının gələcək siyasi koordinasiyası baxımından diqqətlə izlənilən mühüm hadisədir.**

*(ardı 5-ci səhifədə)*

# Siyasi iradə + referendum = sülh

*Paşinyan iqtidarı üçün ən sadə ev tapşırığı budur*



**Bu mövzu ona görə aktuallığını saxlayır ki, sülh müqaviləsinin taleyi, Azərbaycan və Ermənistan münasibətlərinin normallaşması məhz bundan asılıdır. Artıq tərəflər sülh sazişinin mətnini parafladılar. Qalır münaqişənin tam həllini isbatlayan sülh müqaviləsinin imzalanması. Bunun üçün rəsmi İrəvan ondan tələb olunan konkret addımı atmalı, konstitusiyasında Azərbaycana qarşı ərazi iddialarını aradan qaldırmalıdır. Ermənistan hakimiyyəti yeni konstitusiyanı tərtib etməyə başladığını, bir ildən sonra onun referenduma çıxarılacağını bildirir. Bəlkə bu yeni layihə ümumxalq səsverməsində rədd edildi? Deməli, belə qənaət formalaşır ki, sülh razılaşması uğursuzluğa düçar ola bilər.**

*(ardı 4-cü səhifədə)*

# Lavrovun "skeptizmi"

*Rusiya XİN rəhbəri danışır, amma heç nə demir...*



**Əvvəl Rusiya baş nazirinin müavini Aleksey Overçuk, indi isə ölkənin Xarici işlər naziri Sergey Lavrov. Söhbət Azərbaycan və Ermənistan arasında Vaşinqtonda əldə edilmiş sülh razılaşmasının paraflanmasını heçə saymaqdan gedir. Birincidən başlayaq.**

Deməli, bir müddət əvvəl cənab Overçuk Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin paraflanmasına münasibət bildirərkən, "ehtiyatlı optimizm" ifadəsini işlətmişdi. Onun sözlərindən belə çıxmışdı ki, paraflanmış barış sazişi hələ heç nə demək deyil. Bəs nə olmalıdır ki, ortada nə isə olsun, təəssüf ki, Rusiya baş nazirinin müavini bu barədə məntiqi fikir səsləndirməmişdi. Nə də sənəddə nəyin çatışmadığından söz açmışdı. İndi Lavrov da demək olar, Overçuk kimi danışır. Əlbəttə ki, özünəxas üslubda.

Ümumən, məlumdur ki, ötən beş ildə Qərbin müxtəlif platformalarında Azərbaycan-Ermənistan danışıqları aparılıb və Rusiya həmin danışıqların nəticələrini həmişə şübhə altına almağa çalışıb. Ölkə rəsmiləri bir qayda olaraq, belə fikir irəli sürüblər ki, Qərb platformalarında əldə ediləcək razılaşma fundamental mahiyyət daşıya bilməz. Niyə daşıya bilməz, suala tutarlı cavab olmayıb, yalnız ümumi ifadələr görmüşük. Bu sayaq ritorikaya ən çox üstünlük verən isə məhz Lavrov olub və deyəsən, XİN rəhbəri yenə köhnə ampluasındadır.

*(ardı 3-cü səhifədə)*

# Qarabağ erməniləri Ermənistanı tərk edirlər



Səhifə ⇨ 6

# “İnkişaf və təhlükəsizliyin rezonansı: AQEM-in institusional transformasiyasında regional əməkdaşlıq və idarəetmə” adlı AQEM-in Beyin Mərkəzləri Forumunun 13-cü sessiyasının iştirakçılarına

**Hörmətli tədbir iştirakçıları!**

Sizi Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin Beyin Mərkəzləri Forumunun 13-cü sessiyasında salamlayıram. Azərbaycana xoş gəlmisiniz!

İlk dəfə olaraq Çindən kənarda keçirilən bu forumun məhz Azərbaycanda baş tutması məmnunluq doğurur.

Bu il ərzində Çinə həyata keçirilmiş səmərəli dövlət və işgüzar səfərlərim, bir çox sənədlərin, xüsusilə də strateji tərəfdaşlıq barədə iki sənədin imzalanması, qarşılıqlı viza rejiminin ləğvi Azərbaycan ilə Çin arasında sıx tərəfdaşlıq və dostluq münasibətlərinin bariz nümunələridir.

Müasir dünyada beyin mərkəzlərinin dövlətlərin və cəmiyyətlərin inkişafında rolu olduqca böyükdür. Onların müxtəlif sahələrdə apardığı araşdırmalar qlobal çağırışların – təhlükəsizlik, iqtisadiyyat, texnologiya və ekoloji problemlərin həlli üçün mühüm zəmin yaradır. Bununla da beyin mərkəzləri həm milli, həm də beynəlxalq səviyyədə qərarların daha səmərəli və düzgün qəbuluna öz töhfələrini verirlər. Bu baxımdan, AQEM ölkələrinin beyin mərkəzlərinin əməkdaşlığı ölkələr və xalqlar arasında qarşılıqlı anlayışın güclənməsi və regional inteqrasiyanın dərinləşməsi üçün əlverişli perspektivlər açır.

Bu gün Asiya həm iqtisadi potensialı, həm də qlobal proseslərə təsiri baxımından dünyanın güc mərkəzlərindən birinə sürətlə çevrilməkdədir. Buna baxmayaraq, təəssüf ki, qitə ölkələrinin də daxil olduğu Qlobal Cənub əhəmiyyətli qərarların qəbulu prosesində kifayət qədər təmsil olunmur.

2019-2023-cü illərdə Qoşulmama Hərəkatında uğurlu sədrliyi dövründə Azərbaycan Qlobal Cənub ölkələrinin üzləşdiyi ədalətsizliyə qarşı çıxış etmiş, Hərəkatın beynəlxalq müstəvidə mövqelərinin gücləndirilməsi istiqamətində çalışmışdır. Təqdirəlayiq haldır ki, Qlobal Cənub QHT platformasının təsis konfransı bu il məhz Bakıda baş tutmuşdur. Eyni zamanda COP29-un sədri qismində Qlobal Cənub ölkələrinin iqlim gündəliyi ilə bağlı baxışlarının təşviqi, ən az inkişaf etmiş ölkələrin, xüsusilə də kiçik ada dövlətlərinin ehtiyaclarının təmin edilməsi prioritetlərimiz arasında yer almışdır. Ötən ilin noyabr ayında Bakıda keçirilmiş COP29-un uğurlu nəticələri “Bakı sıçrayışı” kimi tarixə düşmüşdür.

Qlobal Cənubun tarixən üzləşdiyi ədalətsizliklərdən biri də Asiya və Afrika xalqlarının taleyində ağrılı izlər buraxmış müstəmləkəçilik siyasəti olmuşdur. Azərbaycan müasir dövrdə müstəmləkəçiliyin utancverici mirasının aradan qaldırılması və neokolonializm təzahürlərinin ifşa olunması sahəsində yeni bir mərhələnin başlanğıcını qoymuşdur. Biz bu vacib məsələ ilə əlaqədar beynəlxalq həmrəyliyin səfərbər edilməsi yolunda səylərimizi bundan sonra da qətiyyətlə davam etdirəcəyik.

Hesab edirik ki, Qlobal Cənub ölkələri yeni ədalətli dünya nizamının formalaşdırılmasında yaxından iştirak etməli və bu işə öz töhfələrini verməlidirlər. Bu xüsusda, BMT-də müvafiq islahatların aparılması, Təhlükəsizlik Şurasının (TŞ) daimi üzvləri sırasında Qlobal Cənub ölkələrinin təmsil olunmasının təmin edilməsi çox vacibdir. TŞ artıq günümüzün reallıqları ilə uzlaşmayan təsisata çevrilib. Azərbaycan vaxtilə işğal olunmuş torpaqlarının azad edilməsinə çağıran, lakin sadəcə kağız üzərində qalmış TŞ qətnamələrinin icrasını özü təmin etmiş bir ölkə kimi bunu çox gözəl anlayır.

Ölkəmizin suverenliyini və ərazi bütövlüyünü bərpa etməsindən sonra regionda təşviq etdiyimiz sülh gündəliyi xarici siyasətimiz üçün yeni üfüqlər açır və onun daha qlobal xarakter daşıması baxımından mühüm amil rolunu oynayır. Keçən ay Azərbaycanla Ermənistan arasında sülh sazişinin paraflanması həm bölgə, həm də daha geniş coğrafiya üçün əlverişli imkanlar yaradır.

Şərq-Qərb və Şimal-Cənub dəhlizləri üzərində yerləşən Azərbaycan Avrasiyada ən mühüm nəqliyyat-logistika qovşaqlarından birinə çevrilir. Eyni zamanda şübhə etmirəm ki, Orta Dəhlizin bir istiqaməti kimi Zəngəzur dəhlizi yaxın gələcəkdə qitələri birləşdirən mühüm nəqliyyat bağlantısı rolunu oynayacaqdır. İnanıram ki, bütün bu kommunikasiya xətləri AQEM üzvləri arasında da əməkdaşlığın inkişafına töhfə verəcək.

Hörmətli Forum iştirakçıları!

Ölkəmizdə regional və qlobal əhəmiyyətli mötəbər tədbirlərin təşkili artıq ənənə halını alıb. Azərbaycan cari ilin iyul ayında Xankəndidə İqtisadi Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin başçılarının Zirvə görüşünü təşkil etmiş, oktyabr ayında isə Türk Dövlətləri Təşkilatının Zirvə görüşünə ev sahibliyi etməyə hazırlaşır. Eyni zamanda 2026-cı ildə BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasının və İslam Əməkdaşlıq Təşkilatının Zirvə toplantısının Azərbaycanda keçirilməsi ölkəmizin beynəlxalq əhəmiyyətli tədbirlərin təşkil olunduğu etibarlı qlobal məkana çevrildiyinin növbəti əyani göstəricisidir.

2026-cı ilin payızında Azərbaycanın sədrliyi altında AQEM Zirvə toplantısının da keçirilməsi planlaşdırılır. Asiya qitəsinin 90%-ni əhatə edən və 28 üzv dövləti bir araya gətirən AQEM regionda etimadın gücləndirilməsi və ölkələrarası əməkdaşlığın inkişafı baxımından çox əhəmiyyətli bir təsisatdır. Azərbaycan AQEM-də 2024-2026-cı illər üzrə sədrliyinə böyük məsuliyyətlə yanaşır. Sədrliyimizin fəaliyyəti “Daha güclü AQEM, Asiyada bağlantılar, rəqəmsallaşma və dayanıqlı artım” mövzusu üzərində qurulur.

Biz sədrliyimiz dövründə AQEM-in təşkilati baxımdan gücləndirilməsi, onun beynəlxalq təşkilat kimi təsisatlanması, yeni sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi və təsisatın beynəlxalq münasibətlər sistemində öz yerini möhkəmləndirməsini prioritet olaraq müəyyənləşdirmişik. Eyni zamanda AQEM çərçivəsində Maliyyə Sammitinin keçirilməsini, Qadınlar Şurasının, Dayanıqlı Bağlantılar Şurasının, AQEM İqlim Şurasının yaradılmasını hədəf götürmüşük.

Əminəm ki, nüfuzlu beyin mərkəzlərinin iştirakı ilə keçirilən hazırkı Forum Azərbaycan sədrliyinin prioritetləri də daxil olmaqla AQEM-in gündəliyində duran qlobal əhəmiyyətli məsələlərin müzakirəsinə dəyərli töhfə verəcəkdir.

Forumun işinə müvəffəqiyyətlər arzulayır, uğurlu nəticələrin əldə edilməsini diləyirəm.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
**Bakı şəhəri, 8 sentyabr 2025-ci il**

# Baş prokuror Sinqapurda



**Baş prokuror Kamran Əliyevin rəhbərlik etdiyi geniştərkibli nümayəndə heyəti Beynəlxalq Prokurorlar Assosiasiyasının 30-cu illik konfransı və ümumi yığıncağında iştirak məqsədilə Sinqapura işgüzar səfərə gedib.**

"Prokurorun dəyişən rolu və cinayət mühakimə sisteminin idarəedilməsi" mövzusuna həsr olunmuş konfrans çərçivəsində hüquq-mühafizə orqanlarının fəaliyyətində müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqi və bu kimi aktual məsələlər müzakirə olunur.

Səfər zamanı Kamran Əliyev Sinqapurun Baş prokuroru Lüsyen Vonq ilə görüş keçirib, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən genişmiqyaslı islahatlar nəticəsində ölkədə korrupsiyaya qarşı sistemli mübarizə sahəsində görülən işlər barədə ətraflı məlumat verib.

Bundan əlavə, tədbir çərçivəsində Kamran Əliyev Niderland, Gürcüstan, Qazaxıstan, Estoniya, Sloveniya, Lixtenşteyn, Türkiyə, Timor-Leste və Omanın Baş prokurorları, habelə Çin Xalq Respublikasının Baş prokurorunun müavini ilə ikitərəfli görüşlər keçirib.

***XQ***

# Asiya Beyin Mərkəzləri Forumunun Bakı sessiyası

## *Sammitdə regional əməkdaşlıq və idarəetmə diqqət mərkəzindədir*




**Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi və Şanxay Beynəlxalq Araşdırmalar İnstitutunun birgə təşkilatçılığı ilə “İnkişaf və təhlükəsizliyin rezonansı: AQEM-in institusional transformasiyasında regional əməkdaşlıq və idarəetmə” adlı AQEM-in Beyin Mərkəzləri Forumunun 13-cü sessiyasının açılış mərasimi keçirilib.**

Tədbirdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tədbir iştirakçılarına müraciəti səsləndirilib. Müraciəti BMTM-nin İdarə Heyətinin sədri Fərid Şəfiyev oxuyub. *(Müraciətin mətni qəzetin bügunkü sayında çap olunur).*

Açılış mərasimində çıxış edən Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin (AQEM) Baş katibi Kayrat Sarıbay qeyd edib ki, Prezident İlham Əliyevin Beyin Mərkəzləri Forumunun 13-cü sessiyasının iştirakçılarına müraciəti, həqiqətən də ilhamverici oldu və tədbirin əhəmiyyətini daha da artırdı. Builki toplantı xüsusi önəm daşıyır, çünki Azərbaycanın sədrliyi ilə keçirilən ilk beyin mərkəzləri forumudur.

SIIS-in prezidenti Çen Dongxiao AQEM-in Beyin Mərkəzləri Forumunun önəmini özünü, ilk növbədə, dialoq imkanlarında göstərdiyinə diqqət çəkib. Onun sözlərinə görə, bərabər və səmimi ünsiyyət qlobal qeyri-sabitlik dövründə xüsusilə vacibdir.

O qeyd edib ki, AQEM-in Asiya qitəsini bütövlükdə əhatə etməsi böyük üstünlükdür. Qazanılan bilik və təcrübə yalnız regional əməkdaşlıq üçün deyil, həm də beynəlxalq ictimaiyyət üçün dəyərli töhfədir. Qarşıda isə böyük imkanlar dayanır. Dünya tədricən Qərb mərkəzli modeldən çoxqütblü nizama doğru irəliləyir. Asiya ölkələri bu transformasiyanın əsas aparıcı qüvvəsidir və qlobal modernləşmə prosesində mühüm rol oynayır. Bu şəraitdə AQEM-in Beyin Mərkəzləri Forumunun rolu daha da artacaq”, - deyə SIIS-in prezidenti əlavə edib.

Çinin Xarici İşlər Nazirliyinin Avropa-Mərkəzi Asiya İşləri Departamentinin səfiri Yan Venbin isə vurğulayıb ki, Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirəyə sədrlik edən Azərbaycan qarşılıqlı fəaliyyət, rəqəmsallaşma və davamlı artım mövzusu çərçivəsində bir sıra mühüm əməkdaşlıq təklifləri irəli sürüb.

Yan Venbinin sözlərinə görə, Çin Azərbaycanın sədrliyini dəstəkləmək və AQEM çərçivəsində müxtəlif sahələrdə etimadın möhkəmləndirilməsi tədbirlərinin həyata keçirilməsinə, həmçinin AQEM-in məhsuldar sammitinin uğurla keçirilməsinə fəal töhfə vermək üçün bütün tərəflərlə işləyəcək.

Daha sonra BMTM-nin İdarə Heyətinin sədri Fərid Şəfiyev və SIIS-nin prezidenti Çen Dongxiao Beyin Mərkəzləri Forumunun 13-cü sessiyasının gündəliyini təsdiq ediblər.

Forum işini sessiyalarla davam etdirib.

***

BMTM-nin baş məsləhətçisi Yunis Qurbanovun moderatorluğu ilə keçirilən iclasda “İnkişaf vasitəsilə təhlükəsizliyin təşviqi - Asiyada təhlükəsizlik idarəçiliyinə yeni yanaşmaların araşdırılması” mövzusu müzakirə olunub.



Şanxay Beynəlxalq Araşdırmalar İnstitutunun fəxri prezidenti və Elmi-Məsləhət Şurasının sədri Yan Jiemian son illər ərzində Asiya ölkələrinin Çinin qlobal inkişafını çox müsbət qarşıladığını deyib. O, Heydər Əliyev Beynəlxalq Hava Limanından Bakı şəhərinin mərkəzinə gedərkən yolboyu dinamik inkişaf edən şəhər gördüyünü qeyd edib: “Mən Bakıya ən xoş arzularımı diləyirəm. Burada mən sülh və əmin-amanlıq, sosial inkişaf gördüm”.

Banqladeşin Beynəlxalq və Strateji Araşdırmalar İnstitutunun Baş direktoru İftekhar Anis bu gün Asiyanın dünya əhalisinin 60 faizini təşkil etdiyini və qlobal inkişafın mühüm mərkəzlərindən birinə çevrildiyini qeyd edib.

Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin (AQEM) bir çox problemlərin həlli üçün ideal platforma olduğunu diqqətə çatdıran Baş direktor bu təşkilatın üzv ölkələr arasında dialoqu gücləndirmək, birgə təşəbbüslər irəli sürmək və beynəlxalq əməkdaşlıq mexanizmlərini inkişaf etdirmək baxımından mühüm imkanlara malik olduğunu vurğulayıb.

Şri-Lankanın Lakşman Kadirqamar Beynəlxalq Münasibətlər və Strateji Tədqiqatlar İnstitutunun nümayəndəsi Wijesinghe Arachchige Sulochana Madhubhashini Wijayasinghe ölkəsinin regionun sabitliyinin qorunmasında etibarlı tərəfdaş kimi çıxış etdiyini vurğulayaraq deyib: “Burada qarşılıqlı etimad və əməkdaşlıq prinsipləri böyük əhəmiyyət daşıyır və ölkələrarası münasibətlərin möhkəmlənməsi üçün vacib zəmin yaradır”.

Çin və Müasir Asiya İnstitutunun direktoru, Milli AQEM Tədqiqat Mərkəzinin sədri Kirill Babayev Avrasiyanı iqtisadi əməkdaşlığın vahid məkanı kimi dəyərləndirərək qeyd edib ki, ən vacib məsələ qarşılıqlı hörmət prinsiplərinə əsaslanan ümumi təhlükəsizlik platformasının yaradılmasıdır.

Asiya Araşdırmaları İnstitutunun direktor müavini Jirayudh Sinthuphan qlobal nizamın sabit olmadığı bir dövrdə görüşdüklərini və bu dövrdə kibertəhlükə təhdidlərinin iqtisadiyyatları və bir çox sahələri sarsıtmaqda olduğunu diqqətə çatdırıb.

İranın Siyasi və Beynəlxalq Araşdırmalar İnstitutunun əməkdaşı, tədqiqatçı Mohsen Mohammadi Xəzər dənizində suyun səviyyəsinin azalması probleminə toxunaraq deyib: “Sərhəd dövlətləri bu sahədə bir iş görməsələr Xəzər Aral dənizinin aqibətini yaşayacaq”.

Hindistan Dünya İşləri Şurasının Baş direktoru vəzifəsini icra edən Nutan Kapoor Mahavar, Kambocanın Asiya Vizyonu İnstitutunun prezidenti Chheng Kimlong, Tacikistan



Respublikası Prezidentinin yanında Strateji Araşdırmalar Mərkəzinin Regional Təhlükəsizlik Məsələlərinin Təhlili və Proqnozlaşdırılması Departamentinin rəhbəri Saidhomid Şarifzoda çıxışlarında mövcud geosiyasi problemlərin ölkələrə misli görünməmiş zərbələr vurduğunu bildiriblər.

İclas müzakirələrlə davam etdirilib.

***

Şanxay Beynəlxalq Araşdırmalar İnstitutunun direktor müavini Zhao Longun moderatorluğu ilə keçirilən iclasda “Yaşıl və rəqəmsal transformasiya şəraitində təchizat zənciri üzrə əməkdaşlıq” mövzusu müzakirə olunub.

İclasa onlayn formatda qoşulan Kambocanın Asiya Vizyonu İnstitutunun prezidenti Chheng Kimlong deyib: “Bu gün Asiyada geosiyasi risklərin aradan qaldırılması və mövcud boşluqların qarşısının alınması məsələsi gündəliyimizin ən aktual mövzularından biridir. Asiya ölkələri regionda bu sahədə nümunə rolunu oynayır və biz, xüsusilə rəqəmsal texnologiya və “yaşıl siyasət” sahələrində yeni vizyona doğru irəliləyirik”.

Şri-Lankanın Lakşman Kadirqamar Beynəlxalq Münasibətlər və Strateji Tədqiqatlar İnstitutunun İdarə Heyətinin üzvü YN Jaya-




rathna foruma onlayn formatda qoşularaq bugünkü strateji vəziyyətin artıq dəyişdiyini və proseslərin sürətlə cərəyan etdiyini deyib: “Asiya artıq beynəlxalq səhnədə öz mövqeyini möhkəmləndirir. Bu mövqenin əsas dayağı isə iqtisadiyyatdır”.

Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin şöbə müdiri Şahmar Hacıyev bərpaolunan enerji inkişafının bu gün Azərbaycan üçün ən prioritet istiqamətlərdən biri olduğundan danışıb: “Yaşıl iqtisadiyyatın qurulması yolunda ötən il Bakıda keçirilən COP29 isə ölkəmizə güclü təkan verib. Biz yaxşı bilirik ki, bərpaolunan enerji resurslarının səmərəli istifadəsi yalnız iqtisadi tərəqqi üçün deyil, həm də ekoloji dayanıqlılıq baxımından mühüm əhəmiyyət daşıyır”.

Hindistanın İnkişafda olan ölkələr üçün Tədqiqat və İnformasiya Sisteminin dosenti Priyadarşi Daş deyib: “Əksər Asiya ölkələri sağlam iqtisadi göstəricilər nümayiş etdirir. Çin, Vyetnam, İndoneziya, Kamboca və digərləri son 20 il ərzində nəzərəçarpan dərəcədə böyük müvəffəqiyyətlərə nail olublar”.

Vyetnam Diplomatiya Akademiyasında direktor vəzifəsini icra edən Tu Anh Tuan foruma onlayn qoşularaq qeyd edib ki, müasir dünyada iqtisadiyyat təkcə inkişaf və tərəqqi vasitəsi deyil, eyni zamanda siyasi təzyiq alətinə çevrilib. Təəssüf ki, bəzi ölkələr iqtisadi alətləri qorunma və ya təhlükəsizlik məqsədi adı altında öz maraqlarını təmin etmək üçün istifadə edirlər. Bu isə beynəlxalq mühitdə ədalətsizliyin artmasına və qlobal sabitliyin pozulmasına gətirib çıxarır.

Onlayn formatda qoşulan Qazaxıstan Prezidenti yanında Strateji Tədqiqatlar İnstitutunun Beynəlxalq təhlükəsizlik şöbəsinin müdiri Dauren Aben isə əlavə edib ki, bugünkü tədbirin mövzusu Qazaxıstanın təhlükəsizlik vizyonu ilə üst-üstə düşür. Bizim regionun qlobal təchizat zəncirində iqtisadiyyat sürətlə inkişaf edir, lakin üstünlük ölkədən-ölkəyə dəyişir. Qazaxıstan Şərqlə Qərbin, Şimal ilə Cənubun kəsişməsində yerləşir və bir çox dəhlizin vacib iştirakçısıdır. Bizim bir çox resursumuz var və buna görə də ölkələrarası əməkdaşlığa üstünlük veririk.

***

Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin (BMTM) və Şanxay Beynəlxalq Araşdırmalar İnstitutunun «İnkişaf və təhlükəsizliyin rezonansı: AQEM-in institusional transformasiyasında regional əməkdaşlıq və idarəetmə” adlı AQEM-in Beyin Mərkəzləri Forumunun 13-cü sessiyasının birinci gününə yekun vurulub.

Sessiyanın son iclası “Avrasiya inteqrasiyasının gücləndirilməsi: “Kəmər və Yol” Təşəbbüsü (BRI), Orta Dəhliz, Beynəlxalq Şimal-Cənub Nəqliyyat Dəhlizi (INSTC) və digər təşəbbüslər” mövzusuna həsr olunub.

BMTM-in İdarə Heyətinin sədri Fərid Şəfiyev bugünkü tədbirdə «Bir kəmər, bir yol» təşəbbüsü, Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu barədə danışdıqlarını, həmçinin Şimal marşrutundan söz açdıqlarını diqqətə çatdırıb.

O bildirib ki, tarixən İpək Yolu adlanan region təkcə ticarət yox, mədəniyyət marşrutu da olub. Arxeoloji qazıntılar zamanı burada bir çox mədəni abidələr aşkar edilib.

Zəngəzur dəhlizinin potensialı barədə söz açan BMTM sədri Vaşinqtonda əldə edilmiş razılaşmanı xatırladaraq bu marşrutun bir çox ölkələrin ticarət əlaqələrinə mühüm töhfə verəcəyini bildirib.

Türkiyənin Strateji Araşdırmalar Mərkəzinin şöbə müdiri Turhan Dilmaç Vaşinqtonda atılan tarixi addımın yeni səhifənin açılmasına səbəb olduğunu deyib. O, Orta Dəhlizin hərtərəfli inkişafın təzahürü olduğunu qeyd edərək, bu marşrutun Asiyanın Avropa ilə birləşdirilməsinə mühüm töhfə verdiyini deyib.

İranın Siyasi və Beynəlxalq Araşdırmalar İnstitutunun aparıcı elmi işçisi Morteza Damanpak Jami bugünkü dünyada iqtisadi və geosiyasi güclərin istiqamət dəyişdirdiyini müşahidə etdiyini diqqətə çatdırıb: “Əgər XX əsrdə qlobal inkişafın mərkəzi əsasən Qərbdə cəmlənmişdisə, bu gün artıq Şərqə doğru bir hərəkət müşahidə olunur”.

Hindistan Dünya İşləri Şurasının aparıcı elmi işçisi Athas Zafar hazırda həm dünyanın, həm də regionumuzun böyük bir transformasiya dövrünü yaşadığını söyləyib: “Bu dəyişikliyin ən mühüm istiqamətlərindən biri isə rəqəmsal texnologiyaların sürətli inkişafıdır. İnnovasiyalar və rəqəmsallaşma artıq yalnız iqtisadiyyatın deyil, siyasətin, təhlükəsizliyin və cəmiyyət həyatının bütün sahələrinin əsas hərəkətverici qüvvəsinə çevrilib”.

Çinin Avrasiya Sosial İnkişaf Tədqiqatları İnstitutunun direktoru Li Yongquan ölkəsinin Orta Dəhlizin fəaliyyətində maraqlı olduğunu, həmçinin onun tikintisində də iştirak etmək istəyini ifadə edib: “Əməkdaşlıq, qarşılıqlı qazanc əsasında böyük layihələr həyata keçirə bilərik”.

İclas müzakirələrlə davam etdirilib.

***XQ***

# Milli Məclisin növbədənkənar sessiyasının xüsusi iclası




**Sentyabrın 9-da Milli Məclisin növbədənkənar sessiyasının "Vaşinqton razılaşmaları: sülh diplomatiyasının və müdrik liderliyin təntənəsi" mövzusunda xüsusi iclası keçirilib.**

Milli Məclisin sədri Sahibə Qafarova iclasın mühüm bir məsələyə həsr olunduğunu deyib. O bildirib ki, Prezident İlham Əliyev avqustun 7-8-də ABŞ Prezidenti Donald Trampın dəvəti ilə bu ölkəyə işgüzar səfər edib: "Səfər çərçivəsində aparılmış danışıqlar, əldə olunmuş razılaşmalar və imzalanmış sənədlər fonunda əminliklə deyə bilərik ki, Prezident İlham Əliyevin Vaşinqton səfəri tarixi əhəmiyyətə malikdir. Belə ki, Vaşinqton razılaşmaları yalnız Azərbaycan-Amerika Birləşmiş Ştatları arasında ikitərəfli münasibətləri, Azərbaycan-Ermənistan sülh gündəliyi baxımından mühüm məqamları ilə deyil, həm də Cənubi Qafqazda və daha geniş regionda proseslərə ciddi şəkildə təsir göstərən tərəfləri ilə yadda qaldı".

Milli Məclisin sədri deyib ki, böyük liderləri fərqləndirən mühüm xüsusiyyətlər onların dövlətçilik təfəkkürü, strateji və yaradıcı düşünmək bacarığı, cəsarəti, prinsipiallığı və diplomatik məharətidir. Onlar öz düşüncələrini qətiyyətlə və ardıcıl surətdə həyata keçirir, yeni tarixi reallıqları yaradır. Vaşinqton razılaşmaları da ilk növbədə, məhz bu prizmadan qiymətləndirilməlidir. Bu gün qürurla söyləmək olar ki, Prezident İlham Əliyevin ABŞ-a tarixi səfəri zamanı əldə edilmiş razılaşmalar ümummilli lider Heydər Əliyevin milli maraqlara əsaslanan siyasi kursunun davam etdirilməsi yolunda qazanılmış ən böyük uğurlardan biridir.

Milli Məclisin sədri vurğulayıb ki, Cənubi Qafqaz regionunda sülhün bərqərar olması baxımından Vaşinqton razılaşmaları həlledici əhəmiyyətə malik oldu. Digər bir mühüm məqam ondan ibarətdir ki, bu razılaşmalar beynəlxalq ictimaiyyət tərəfindən də dəstəkləndi. Vaşinqtonda imzalanmış Birgə Bəyannamə sülh sazişinin rəsmi şəkildə imzalanması üçün Azərbaycanın irəli sürdüyü hər iki şərti təsbit etdi. İlk nəticə olaraq, artıq ATƏT-in Minsk qrupu ləğv olundu. İnanırıq ki, Vaşinqtonda əldə edilmiş razılaşmalar heç bir kənar müdaxilə olmadan tam şəkildə yerinə yetiriləcək, Ermənistanın konstitusiyasına müvafiq dəyişikliklər edildikdən sonra iki ölkə arasında rəsmi sülh sazişi imzalanacaq.

Sonra iclasda mövzu ilə bağlı deputatların çıxışları dinlənilib.

Bildirilib ki, Vaşinqton razılaşmaları ölkəmizin Prezident İlham Əliyevin rəhbərliyi ilə qazandığı mühüm tarixi nailiyyətlərdən biridir və onun "Konstitusiya və Suverenlik İli"nə təsadüf etməsi rəmzi xarakter daşıyır. Qeyd olunub ki, bu mühüm razılaşmalar beynəlxalq ictimaiyyət tərəfindən də dəstəklənib. ATƏT-in Minsk qrupunun ləğv edilməsi isə münaqişənin başa çatmasının və əlavə heç bir vasitəçiyə ehtiyac qalmadığının göstəricisidir. Diqqətə çatdırılıb ki, Azərbaycan postsovet məkanında öz ərazisini işğaldan azad etmiş yeganə ölkədir.

Deputatlar bildiriblər ki, Prezident İlham Əliyevin Vaşinqton səfəri zamanı Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın şahidliyi ilə Azərbaycan Prezidentinin və Ermənistan Baş nazirinin görüşünə dair Birgə Bəyannamə imzalandı, "Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsinə dair Saziş" layihəsi paraflandı və Zəngəzur dəhlizi layihəsinin həyata keçirilməsi üçün beynəlxalq zəmanət əldə edildi. Diqqətə çatdırılıb ki, Zəngəzur dəhlizi yaranmaqda olan yeni tarixin mühüm layihəsi olacaq və onun açılması Azərbaycanın Naxçıvanla birbaşa əlaqəsini təmin etməklə yanaşı, Avropa və Asiyanı, həmçinin bütün Türk dünyasını birləşdirəcək.

Deputatların sözlərinə görə, Ağ Evdə uzun illər Azərbaycana qarşı ədalətsiz sanksiya kimi istifadə olunan "Azadlığa Dəstək Aktı"-na 907-ci düzəlişin tətbiqinin dayandırılması isə ikitərəfli münasibətlərdə yeni və olduqca parlaq bir səhifənin açılmasının simvolu oldu. Onlar ABŞ Prezidenti Donald Trampın bu qərarı məhz Prezident İlham Əliyevin iştirakı ilə imzalamasını dövlətimizin başçısına və Azərbaycana göstərilən xüsusi hörmətin bariz nümunəsi kimi qiymətləndiriblər.

Müzakirələr başa çatdırdan sonra Milli Məclisin sədri Sahibə Qafarova bildirib ki, Vaşinqton razılaşmaları ölkəmizin həyatında yeni səhifə açıb. Prezident İlham Əliyevin sayəsində Azərbaycan nəinki milli maraqlarını müdafiə edib, həm də regionda yeni geosiyasi reallıqlar yaradıb. Vurğulanıb ki, Azərbaycan yenə də göstərdi ki, həm döyüş meydanında qələbə qazanmağa, həm də danışıqlar masası arxasında ədaləti bərqərar etməyə qadirdir.

Milli Məclisin növbədənkənar sessiyası başa çatıb.

***XQ***

# Azərbaycan-Avropa İttifaqı əməkdaşlığı müzakirəsi



**Sentyabrın 9-da Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Avropa İttifaqının ölkəmizdəki nümayəndəliyinin yeni təyin olunmuş rəhbəri Mariyana Kuyunciç ilə görüşüb.**

Nümayəndəliyin rəhbəri Mariyana Kuyunciç təyinatı ilə əlaqədar məktubu Ceyhun Bayramova təqdim edib. Nazir Mariyana Kuyunciçi təyinatı münasibətilə təbrik edib, ona ölkəmizdəki fəaliyyətində uğurlar arzulayıb.

Görüş zamanı Azərbaycanla Aİ arasında müxtəlif, o cümlədən siyasi, iqtisadi, enerji, nəqliyyat-kommunikasiyalar, humanitar və sair istiqamətlər üzrə əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi aparılıb. Ölkəmizin Aİ ilə həyata keçirilən birgə enerji layihələrinin əhəmiyyəti vurğulanıb. Digər əhəmiyyətli istiqamətlər üzrə əməkdaşlığın inkişaf etdirilməsinə maraq ifadə olunub.

Nümayəndəliyin rəhbəri Mariyana Kuyunciç fəaliyyəti müddətində Azərbaycan-Aİ gündəliyinin irəlilədilməsi istiqamətində səylərini əsirgəməyəcəyini qeyd edib.

***XQ***

# Bakının möhür vurduğu gerçəklik




**(əvvəli 1-ci səhifədə)**

Ermənistan isə bu mexanizmi illərlə öz maraqları üçün istifadə etdi, işğal faktını beynəlxalq auditoriyadan gizlətmək üçün siyasi pərdə rolunda çıxış etdirdi. Bəs Minsk qrupunun ləğvi Ermənistan üçün nəyi dəyişir? Cavab isə birmənalıdır. Minsk qrupunun formal ləğvi artıq Ermənistanın uzun illər istifadə etdiyi arqumentləri qüvvəsizləşdirir. "Danışıqlar hələ davam edir" bəhanəsi artıq işləməyəcək, Azərbaycanın hərbi-siyasi qələbəsi beynəlxalq müstəvidə legitimlik qazanıb və beynəlxalq təşkilatlar məsələyə faktiki olaraq "bağlanmış konflikt" kimi yanaşmağa başlayıblar. Bütün bunlar isə Ermənistan üçün yeni siyasi reallıq deməkdir.

Ermənistanda bəzi siyasətçilər hələ də iddia edirlər ki, münaqişə güc yolu ilə həll oluna bilməz. Lakin tarixi nümunələr göstərir ki, əksər münaqişələr məhz güc faktoru ilə həllini tapıb. İkinci Dünya müharibəsi və sonrakı lokal müharibələr bunun bariz sübutudur. Daha yaxın nümunələrdə də bu prinsip özünü göstərir. 1990-cı illərdə Balkanlarda baş verən münaqişələrdə NATO qüvvələrinin hərbi müdaxiləsi Serbiyanın bəzi ərazilərdə hərbi üstünlüyünü əngəllədi və münaqişələrin həllində əsas rol oynadı. 2008-ci ildə Rusiya–Gürcüstan müharibəsi zamanı da hərbi əməliyyatlar regiondakı güc balansını dərhal dəyişdirdi, diplomatik vasitələr isə yalnız bu əməliyyatların nəticələrini təsdiq etdi.

Nümunələr göstərir ki, beynəlxalq münasibətlərdə güc yalnız destruktiv vasitə deyil; bir çox hallarda dövlətlər öz suverenliyini qorumaq və işğalçıları geri çəkilməyə məcbur etmək üçün güc tətbiq etmək üsuluna gedirlər. Azərbaycan da Qarabağ məsələsində güc faktoru və strateji hərbi planlamadan istifadə edərək, hüquqi və diplomatik sahədə daha dayanıqlı reallıq yaratdı.

Əgər güc amili beynəlxalq münasibətlərdə istisna olunsaydı, nə baş verərdi? Güc faktoru olmadan işğalçı tərəflər əraziləri qaytarmağa məcbur edilə bilməzdi, dövlətlərin suverenliyi daim təhdid altında qalardı. Beynəlxalq hüquq isə bunu nəzərə alaraq güc tətbiqini bəzi hallarda – işğala son qoymaq və ya separatizmə qarşı mübarizə məqsədilə – legitim hesab edir. Məhz bu baxımdan, Azərbaycanın addımları həm hüquqi, həm də strateji baxımdan məntiqli və zəruridir. Minsk qrupunun ləğvi isə bu reallığı daha da möhkəmləndirir və Ermənistanın ritorikasının beynəlxalq səviyyədə çəkisini zəiflədir.

Ermənistanın siyasi mədəniyyətində uzun illər boyu dominantlıq edən bir ideya var: "mübarizə yolu ilə inkişaf". Həmin konsepsiya əsasında dövlətin möhkəmlənməsi və



millətin birliyi daim qarşıdurma və münaqişə ilə bağlıdır. Hətta diaspor dairələrinin emosional ritorikası və bəzi populist siyasətçilərin çıxışları bu ideyanı gücləndirmiş, onun ideoloji çəkisini artırmışdır. Lakin reallıq göstərir ki, mübarizə mifinə əsaslanan bu yanaşma Ermənistan üçün inkişafdan çox tənəzzül və geriləmə gətirib. Münaqişə ritorikası iqtisadi resursları istehlak etmiş, Ermənistanı regional əməkdaşlıqdan kənarda qoymuş, demoqrafik böhranın dərinləşməsinə səbəb olmuşdur.

Bəs niyə Ermənistan "mübarizə yolu ilə inkişaf" modelini seçdi? Bu yanaşmanın əsas səbəbi dövlət institutlarının zəifliyi və iqtisadi potensialın məhdudluğudur. Ermənistan rəhbərləri real iqtisadi və sosial inkişaf proqramları irəli sürə bilmədikləri üçün cəmiyyəti mif və ideoloji narrativlərlə yönləndirmişdilər. Qarabağ məsələsi isə bu mifin mərkəzi elementi olmuşdur; sanki münaqişə davam etdiyi müddətcə dövlət də güclənəcəkmiş. Amma təcrübə göstərdi ki, əksinə, illüziyalar Ermənistanı reallıqdan uzaqlaşdırmış, ölkəni strateji təcrid vəziyyətinə salmışdır.

Münaqişə ritorikası səbəbindən Ermənistan regiondakı strateji layihələrdən kənarda qalmış, qonşu ölkələr özlərinin inteqrasiya və iqtisadi imkanlarını gücləndirmişlər. Azərbaycan enerji və nəqliyyat marşrutları ilə beynəlxalq əhəmiyyət qazanmış, Gürcüstan regional layihələrdə mövqeyini möhkəmlətmiş, Mərkəzi Asiya ilə yeni iqtisadi inteqrasiya imkanları ortaya çıxmışdır. Həmin müddətdə Ermənistan isə "qalib xalq" mifinə sığınaraq iqtisadi resurslarını itirmiş və xarici maliyyə asılılığına daha çox meyillənmişdir.

Mübarizə ideologiyası Ermənistanın inkişafına necə təsir edib – qazanc və itkilər nələrdir? Qeyd edə bilərik ki, qazanılan tək şey daxili auditoriya üçün yaradılmış illüziya və ideoloji əminlikdir. Amma nəticələr ağırdır: iqtisadi inkişaf imkanlarının itirilməsi, regional izolyasiya, əhalinin azalması və miqrasiya dalğası, dövlət institutlarının zəifləməsi. Bunlar uzunmüddətli perspektivdə Ermənistanın mövcudluğunu və dayanıqlılığını ciddi şəkildə təhdid edir.

Ermənistanın gələcəkdə çıxış yolu yalnız reallığı qəbul etməsindən keçir. Dövlətin inkişafı əməkdaşlıq, iqtisadi inteqrasiya və regiondakı dəyişən balansları düzgün qiymətləndirməkdən asılıdır. Əks halda, "mübarizə yolu ilə inkişaf" tezisi yalnız daha dərin siyasi, iqtisadi və sosial böhran yaradacaq, Ermənistanı strateji geriləməyə məhkum edəcəkdir.

Qarabağ məsələsinin hərbi-siyasi həlli Cənubi Qafqazda tamamilə yeni geosiyasi reallıq yaradıb. Azərbaycan yalnız ərazi bütövlüyünü bərpa etməklə milli maraqlarını qorumaqla kifayətlənməyib, həm də regiondakı güc balansını kökündən dəyişib. Bu gün bölgədə əsas siyasi aktor məhz Azərbaycan hesab olunur, onun strategiyası regional əməkdaşlıq və iqtisadi inkişafı prioritetə çevirir.

Yeni reallıq region ölkələri üçün hansı nəticələr doğurur? Yeni balans Azərbaycanın enerji və nəqliyyat xəritələrinin mərkəzə çevrilməsinə imkan verib, Türkiyə ilə strateji müttəfiqlik regionda güclü tandem yaradır. Gürcüstan bu proseslərdən faydalanaraq tranzit rolunu qoruyur və iqtisadi imkanlarını artırır. Ermənistan isə seçim qarşısındadır: ya yeni reallığı qəbul edib region inteqrasiyasına qoşulmaq, ya da təcridi dərinləşdirərək sosial və iqtisadi itkiləri artırmaq.

Ermənistanın daxili siyasi dairələri hələ də "qapanmamış münaqişə" illüziyası ilə yaşayır. Amma hərbi və diplomatik baxımdan bu mövzu artıq bağlanıb. Ermənistanın suverenliyi, dayanıqlılığı və inkişaf perspektivi yalnız regional əməkdaşlıqdan keçir. Siyasi ritorika ilə reallıq arasındakı fərq nə qədər uzansa, Ermənistanın itkiləri də bir o qədər böyüyəcək.

Maraqlıdır ki, Ermənistan hansı ssenarini seçə bilər? Birinci ssenari reallığı qəbul etməkdir: Azərbaycanın ərazi bütövlüyünü tanımaq, qonşularla normal münasibətlər qurmaq və regional əməkdaşlıq formatlarına qoşulmaq. Bu halda Ermənistan yeni iqtisadi imkanlar əldə edə bilər, beynəlxalq izolyasiyadan çıxaraq strateji mövqeyini bərpa edə bilər. İkinci ssenari isə köhnə ritorikanı davam etdirməkdir: "mübarizə" mifini qoruyaraq təcrid və iqtisadi böhranı dərinləşdirmək. Belə olan halda isə Ermənistan yalnız daha çox asılı vəziyyətə düşəcək və region proseslərində təsirsiz qalacaq.

Azərbaycan üçün Qarabağ məsələsi artıq bağlanıb və rəsmi Bakı yeni mərhələdə regionda sülhün və əməkdaşlığın tərəfdarı olduğunu açıq şəkildə bəyan edir. Eyni zamanda təhlükəsizliyə yönələn hər hansı təhdid cavabsız qalmayacaq. Bütün bunlar regionda oyun qaydalarını müəyyən edən aktorun Azərbaycan olduğunu göstərir.

Son olaraq qeyd edə bilərik ki, Cənubi Qafqazda yeni siyasi nizam mövcuddur və bu nizam Azərbaycanın hərbi gücü, diplomatik qətiyyəti və iqtisadi imkanları üzərində qurulub. Ermənistan üçün seçim aydındır: ya bu yeni reallığa uyğunlaşmaq, ya da tarixən olduğu kimi dalana dirənmək və regional proseslərdən təcrid olmaq.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# Lavrovun "skeptizmi"



**(əvvəli 1-ci səhifədə)**

Beləliklə, Kremlin baş diplomatı Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun tələbələri, yəni gələcəyin diplomatları qarşısında çıxış edərkən bildirib ki, ABŞ-da Azərbaycan və Ermənistan arasında sülh sazişinin imzalanması ilə bağlı alqış dolu rəylər səslənib. Lakin sənəd dərc edildikdən sonra onun mətnində bir çox məqamların razılaşdırılmadığı üzə çıxıb, nəticədə müsbət rəyləri skeptik yanaşmalar əvəzləyib. Söhbət hansı skeptik yanaşmalardan gedir, Rusiya XİN rəhbərinin bu barədə konkret misalları yoxdur.

İndiki durumda Lavrov manipulyator qiyafəsindədir. O, Bakı-İrəvan sülh sazişindən söz açarkən, bildirib ki, "bu cür addımlar xarici siyasətdə müəyyən "janr"a uyğundur, yəni "gözəçarpan bir şey etmək, bunu informasiya məkanında qabartmaq. Mən hesab edirəm ki, belə bir metodun mövcudluq haqqı var, amma əgər bundan sonra heç nə gəlməyəcəksə, bu, sadəcə bir ani parıltı olaraq qalacaq. Halbuki biz, əslində, real sülh müqaviləsinin bağlanmasında maraqlıyıq".

Sual olunur: real sülh nədir? Azərbaycan-Ermənistan sülh müqaviləsinin mətni açıqlanıb. Orada hər şey yazılıb. Sülh müqaviləsinin imzalanması üçün Bakının irəli sürdüyü iki şərtdən biri yerinə yetirilib. Yəni ATƏT-in Minsk Qrupu fəaliyyətini dayandırıb. O qrup ki, məğzində Azərbaycanla Ermənistan arasında ərazi mübahisəsi predmeti dayanmışdı. Qalır Ermənistan konstitusiyasının dəyişdirilməsi, daha doğrusu, onun ölkəmizə qarşı ərazi iddiasına köklənmiş İstiqlaliyyət Bəyannaməsinə istinadının aradan qalxması. Buna gediləcəkmi, erməni cəmiyyəti konstitusiya dəyişikliyinə müsbət rəyini verəcəkmi, gələcəyin işidir.

Digər tərəfdən, Azərbaycan və Ermənistan liderlərinin Vaşinqtonda imzaladıqları Birgə Bəyannamədə ölkəmiz üçün prioritet sayılan məsələ olan Naxçıvana maneəsiz yol həllini tapıb. Əlbəttə, Rusiyanı həmin yolun Tramp marşrutu adlanması narahat edə bilər, amma bunun Bakıya və İrəvana dəxli yoxdur. Fakt budur ki, rəsmi İrəvan 10 noyabr 2020-ci ildə imzalanmış Azərbaycan, Rusiya və Ermənistan liderlərinin üçtərəfli Bəyanatında əksini tapmış Naxçıvana maneəsiz yol müddəasını yerinə yetirmək istəməmişdi. Deməli, Kreml vasitəçiliyini axıradək yerinə yetirməyi bacarmamışdı.

İndi, hətta sülh müqaviləsi imzalanmasa belə, sözügedən marşrut fəaliyyət göstərəcəyi təqdirdə, bir çox məsələlər, prinsip etibarilə, həllini tapmış sayılacaq. Qalır, İrəvanın Naxçıvana yolla bağlı üzərinə götürdüyü öhdəliyi yerinə yetirməsi. Yəni risk ehtimalı hər zaman var. Amma regionda sülh üçün daha böyük təhlükə başqadır. Diqqət yetirək, Lavrov tələbələrə xatırladıb ki, Bakı ilə İrəvan arasında sülh müqaviləsinin bağlanması barədə danışıqlar 2020–2022-ci illərdə Rusiya, Ermənistan və Azərbaycanın liderləri arasında əldə olunmuş razılaşmalardan qaynaqlanıb: "Onu (sazişi – red.) Amerika Birləşmiş Ştatları ərazisində bağlamağa qərar veriblər. Bu, bizim qonşularımızın suveren hüququdur. Amma baxmaq lazımdır ki, bu razılaşma necə işləyəcək. Məlum olur ki, orada heç də hər şey razılaşdırılmayıb".

Vaşinqtonda nəyin razılaşdırıldığını vurğuladıq. Hansı halda əldə edilmişlər heçə enə bilər, bu haqda düşünərkən, ağlagələn Rusiyadır. Artıq bir çox ekspertlər bildirirlər ki, Moskvanın Ermənistandakı dayaqlarını işə salaraq hakimiyyət dəyişikliyi etməsi və özünə yaxın qüvvələri iqtidar kreslosuna əyləşdirməsi Bakı-İrəvan sülhünə zərbə vura bilər. Başqa sözlə desək, sülh üçün ən böyük riski belə təsəvvürə gətirənlərin sayı Paşinyan administrasiyasının hansısa oyuna əl atacağını irəli sürənlərin sayından çoxdur.

Məsələnin başqa tərəfinə nəzər salaq. Lavrov 2020-2022-ci illər danışıqlarından söz açırsa və prosesi real sülhə aparan yol kimi qiymətləndirirsə, meydana sual çıxır: Qarabağda separatçı rejimin mövcudluğu, kiminsə özünə "prezident", "baş nazir" deməsi sülhü nə dərəcədə real edirdi? Hələ sonra Rusiyadan Ruben Vardanyan adlı biri Qarabağa göndərildi ki, o da özünə "dövlət naziri" dedi və Azərbaycana qarşı mübarizə aparmaq barədə ağzına gələni danışdı. Yeri gəlmişkən,



Ruben indi də danışır, amma Bakıda müttəhimlər kürsüsündə.

Reallıq budur ki, Rusiyanın vasitəçiliyi ilə Azərbaycan və Ermənistan liderlərinin 2020-2022-ci illərdəki təmasları konkret nəticə verməmişdi. Nəticə Silahlı Qüvvələrimizin 2023-cü ilin sentyabrında həyata keçirdiyi lokal xarakterli uğurlu antiterror tədbirlərindən sonra qeydə alındı. Ölkəmiz özünün ərazi bütövlüyünü və suverenliyini tam bərpa etdi, Ermənistan real sülh danışıqlarına başlamaq məcburiyyətində qaldı. Bunadək isə Rusiya rəsmiləri Qarabağın statusu məsələsinin sonraya saxlanılmasına dair fikirlər səsləndirirdilər. Bir dövlətin ərazisində kimlərsə başqa dövlət yaratdıqlarını bildirəcəklər və bu, real sülh olacaq?!

Ola bilər, cənab Lavrov bölgədəki Rusiya sülhməramlılarını real sülhün qaranquşları sayırdı. Axı Rusiyada klişeləşmiş təsəvvür var ki, Azərbaycan və Ermənistan özləri heç vaxt sərbəst şəkildə barış mühitində yaşaya bilməzlər. Niyə? Çünki belə bir yaşamın mövcudluğu Rusiyanın Cənubi Qafqazdakı varlığına ehtiyacı aradan qaldırır. İndiki durum da mahiyyətcə Rusiyasız Cənubi Qafqaz deməkdir. Daha doğrusu, Moskvanın qavradığı budur. Halbuki, istər Lavrov, istərsə də ölkənin hansısa digər rəsmisi fərqli düşünməli, skeptiklikdən uzaq durub mövcudluğun klassik jandarmeriya funksiyasından kənar yollarını tapmalıdır. Kremlin baş diplomatının dedikləri isə onu göstərir ki, Rusiya bu barədə nəinki düşünmür, habelə, Bakı-İrəvan sülhü barədə yanlış rəy formalaşdırmaqla, yeni gündəm yaratmağa çalışır. Bu, yaxşı halda, gedən qatarın çarxına çomaq soxmaqdır.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Siyasi iradə + referendum = sülh

**(əvvəli 1-ci səhifədə)**

Arxada qalan reallıq deyir ki, Azərbaycan və Ermənistan otuz ildən çox sürmüş şiddətli münaqişədən sonra münasibətləri normallaşdırmağa lap yaxındır. Bunun əyani konturları avqustun 8-də Ağ Evdə təşkil olunan ikitərəfli və üçtərəfli görüşlərdə təsdiqləndi. Fəqət, ABŞ Prezidenti Donald Trampın səyi ilə baş tutan bu görüş və orada imzalanan bəyannamələr özünün məntiqi yekununu gözləyir. Hayların baş naziri son çıxışlarında bəyan edir ki, sülhün əldə olunmasında başlıca maneə Ermənistanın öz konstitusiyasına düzəliş etməyincə Azərbaycanın sazişi imzalamayacağını irəli sürməsidir. Bəli, rəsmi Bakı Ermənistanın 1990-cı ildə qəbul edilmiş və Azərbaycanın ərazisində olmuş, erməni əsilli şəxslərin də yaşadığı "Dağlıq Qarabağ"ın Ermənistana "birləşməsi" məqsədini müəyyən etmiş sənədə istinadın aradan qaldırılmasını tələb edir. Həmin istinadla Ermənistan konstitusiyasında Azərbaycana qarşı ərazi iddiasını ortaya qoyur. Belə bir iddiadan əl çəkməyənlə dünyanın hansı ölkəsi sülh sənədinə imza atar?

***

Ağ Evdə baş tutmuş, bütün tərəflərin təbəssüm və əlsıxma anları ilə müşayiət olunan mərasimin müsbət əks-sədası hələ də eşidilməkdədir. Amma Cənubi Qafqazda vəziyyət fərqlidir. Çünki qarşılıqlı etimad mühiti hələ formalaşmayıb. Ermənistan vətəndaşlarının çoxu uzun müddət inanıb ki, Azərbaycan yaxın gələcəkdə onların ölkəsinə hücum çəkəcək, Zəngəzuru və Göyçəni işğal edəcək. Hay ictimai rəyində qəsdən yaradılan bu xof bölgədə sülhün heç vaxt bərqərar olmaması üçün dəridən-qabıqdan çıxan kənar aktorların ideoloji həmləsidir. Avqustun 9-dan sonra Ermənistan–Azərbaycan münaqişəsini həll etmək məqsədini daşıyan razılaşma uzunmüddətli sülhü təmin etməsə də, hər iki ölkənin əhalisində barışa və əməkdaşlığa ümidləri çoxaldıb. Bakının İrəvanla sülh sazişini yalnız konstitusiya referendumundan sonra imzalayacağını bildirməsi təzə mesaj deyil. Amma Nikol Paşinyan Bakının beynəlxalq hüquqa və ədalətə söykənən bu tələbini özünə sərf edən formada interpretasiya etməkdən əl çəkmir. Oxuculara xatırladaq ki, Ermənistan Baş naziri avqustun 31-də mətbuat konfransında növbəti dəfə Azərbaycan-Ermənistan normallaşma prosesi və bölgədə sülh və təhlükəsizliyin təmin olunması səyləri ilə ziddiyyət təşkil edən bir sıra açıqlamalar verdi. Onun açıqlamasına görə, guya, Azərbaycanın Konstitusiya aktında Ermənistana qarşı ərazi iddialarının olması barədə iddialar yer alır. Hayların baş naziri Azərbaycan konstitusiyası ilə Ermənistan konstitusiyası arasında paralellik və bərabərlik yaratmaq cəhdi birinci dəfə deyil müşahidə olunur. Sadəcə, rəsmi İrəvanın bu yanlış və təhrif olunmuş informasiyanı 9 avqust razılaşmasından sonra ictimai rəyə sırımaq səyini axıradək anlamaq mümkün deyil. Axı Ermənistanın bu arqumentini heç bir beynəlxalq tərəfdaş qəbul etmir. Çünki bunun qeyri-ciddi mülahizə olduğunu hamı bilir. Ermənistan konstitusiyasından fərqli olaraq, Azərbaycan konstitusiyasında istinad olunan 1991-ci il Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı və 1918-ci il İstiqlal Bəyannaməsində Ermənistana qarşı heç bir ərazi iddiası yoxdur. ADR dövründə hansı ərazilərin Azərbaycanın tərkibində olduğu, onların nə zaman Ermənistanın tərkibinə qatıldığı isə tarixi faktlardır və bu faktları danmaq mümkün deyil. Yəni üstündən 107 il keçəndən sonra bu, heç bir halda Azərbaycan qanunvericiliyində Ermənistana qarşı ərazi iddiasının olması anlamına gələ bilməz. Bundan başqa, Ermənistan tərəfinin sülh müqaviləsi layihəsində mövcud olan "heç bir tərəf sülh sazişi çərçivəsində öz öhdəliklərini yerinə yetirməməsi ilə əlaqədar öz daxili qanunvericiliyinə istinad edə bilməz" müddəasına istinad edərək, bu ölkənin konstitusiyasında mövcud olan ərazi iddiasının zərərsiz olduğunu bildirməsi də tamamilə əsassızdır. Nəzərə çatdıraq ki, heç bir beynəlxalq saziş ölkənin Konstitusiyasından üstün tutula bilməz. Bu postulat hüquq təhsili olmayanlara da gün kimi aydındır.

***



Ermənistan konstitusiyasında Azərbaycanın beynəlxalq səviyyədə tanınmış suveren ərazilərinə dair iddiaların yer alması bir çox aspektdən ciddi nəticələr törətməyə qadirdir. Həmin müddəalar, sadəcə, daxili hüquqi norma olmayıb, eyni zamanda Ermənistanın siyasi iradəsinin və dövlət siyasətinin rəmzi kimi beynəlxalq hüquq müstəvisində də öz əksini tapmalıdır. Bəli, hüquqi baxımdan indiki durum Azərbaycan tərəfi üçün fundamental problem yaradır. Beynəlxalq hüquqda dövlətlərin ərazi bütövlüyü əsas prinsip kimi qəbul edilir. Bu prinsipə hamı riayət və hörmət etməlidir. Bu prinsip hər bir dövlətin suverenliyinin və müstəqilliyinin təməl daşı sayılır. BMT Nizamnaməsində, Helsinki Yekun Aktında və digər əsas beynəlxalq sənədlərdə təsbit olunub. Dövlətin beynəlxalq səviyyədə tanınan sərhədlərinin toxunulmazlığı həm hüquqi, həm də siyasi müstəvidə prioritet təşkil edir. Amma Ermənistan konstitusiyasındakı ərazi iddiaları bu prinsipi sarsıdır və münaqişənin hüquqi tənzimlənməsi prosesinə ciddi çətinliklər yaradır. Yəni bunlar sülh sazişinin imzalanması və həyata keçirilməsi üçün əsas hüquqi zəminin möhkəmlənməsinə maneə olur. Başqa sözlə desək, belə konstitusional müddəaların mövcudluğu sülhün hüquqi legitimliyini sual altına qoyur. Siyasi aspektdən Ermənistan konstitusiyasında Azərbaycanın ərazi bütövlüyünə qarşı təhdidlərin qalması özündə ölkənin siyasi cameəsinin və ictimaiyyətinin əsas hissəsinin mövcud münaqişəni necə qəbul etdiyi, hansı mövqedən çıxış etdiyini əks etdirir. Yəni konstitusiyada məlum iddiaların olması, sadəcə, hüquqi məsələ deyil. Bu, eyni zamanda Ermənistanın daxili və xarici siyasətində hansı istiqamət götürdüyünün güzgüsüdür.

Həm kənar müşahidələr, həm də ciddi siyasi analizlər göstərir ki, Ermənistanın daxili ictimai mühitində münaqişə ətrafında formalaşan daşnak-millətçi, şovinist təsəvvür hələ silinməyib. Azərbaycanın ərazi bütövlüyünə qarşı olan iddialar konstitusiyada yer almaqla yanaşı, siyasi elitanın, həm də cəmiyyətin müəyyən qruplarının bu mövqeyi dəstəkləməsinə və fürsət yarananda onun legitimləşdirməsinə xidmət edir. Tərəfləri sülhə aparan yolda belə təhlükəli təmayüllərin «müşayiət etməsi» müəyyən risklər yaradır, hay cəmiyyətində daxili siyasi balansı pozmaq xofunu artırır.

Ermənistan tərəfinin sülh sazişini hansı formada imzalamaq niyyətindən asılı olmayaraq, Azərbaycanla Ermənistan arasında real və davamlı sülh müqaviləsinin imzalanması üçün əsas şərt, başda "Ermənistan və Dağlıq Qarabağın birləşməsi"nə çağıran Ermənistanın Müstəqillik Aktına açıq şəkildə istinad edən Ermənistan konstitusiyası olmaqla, bu ölkənin çoxsaylı hüquqi və siyasi sənədlərində təsbit edilmiş Azərbaycana qarşı davam edən ərazi iddialarına son qoyulmasıdır. Əslində, hayların konstitusiyasında Azərbaycan ərazilərinə dair iddiaların qalması yalnız hüquqi problem deyil, həm də siyasi iradənin, daxili siyasi mübarizənin və cəmiyyətin sülhə hazır olmamasının rəmzidir. Bu düşüncənin aradan qaldırılması üçün yalnız qanuni addımlar deyil, həm də dərin siyasi transformasiya, dialoq və kompromisə hazır olan geniş ictimai dəstək tələb olunur. Əks təqdirdə, sülh prosesində irəliləyişin əldə olunması hələ uzun müddət mümkün olmayacaq. Prezident İlham Əliyevin açıq və qətiyyətli mesajı da məhz bunu təsdiqləyir: Ermənistan tərəfi öz "ev tapşırığını" — yəni konstitusiyadakı ərazi iddialarının ləğvini — vaxtında və tam şəkildə yerinə yetirməlidir.

Məsələnin birmənalı yekunu budur: Bölgədə real və davamlı sülhün təminatı Ermənistan konstitusiyasındakı məlum müddəaların aradan qaldırılması ilə bağlı keçiriləcək referendumdan keçir. Yəni rəsmi İrəvan Azərbaycana qarşı ərazi iddialarının ləğvi üçün siyasi iradə nümayiş etdirməlidir. Bunsuz diplomatik səylər, razılaşmalar, bəyannamələr formal xarakter daşıyacaq, sülh sazişinin mətninin çap olunduğu kağız elə kağız parçası olaraq qalacaq.

***İmran BƏDİRXANLI***
***XQ***

# Dehli–Tehran–İrəvan üçbucağı: iqtisadi əməkdaşlıq, yoxsa siyasi mesaj?

## *Ermənistanın regional layihələrdə iştirakı onun necə qonşu olmasından asılıdır*

**Uzun illər yürütdüyü işğalçılıq siyasəti üzündən iki qonşu ölkə – Şərqdən Azərbaycanla və Qərbdən Türkiyə ilə sərhədləri bağlı olan, regionda dalan vəziyyətinə düşmüş, siyasi və iqtisadi təcridlə üzləşmiş Ermənistan Respublikası hazırda bu vəziyyətdən çıxmaq üçün yollar aramaqdadır. Ermənistan hökuməti bu istiqamətdə səylərini İkinci Qarabağ müharibəsindən sonra xüsusilə intensivləşdirib. Baş nazir Nikol Paşinyanın ilk dəfə 2023-cü il oktyabrın 26-da keçirilən IV Tbilisi Beynəlxalq İpək Yolu Forumunda təqdim etdiyi "Sülh kəsişməsi" nəqliyyat-logistika layihəsi də bunun göstəricisi kimi qiymətləndirilə bilər. Rəsmi İrəvan, eyni zamanda İran və Hindistanla əlaqələrin möhkəmləndirilməsinə xüsusi önəm verir. Üç ölkə bölgədə "İrəvan-Tehran-Nyu-Dehli oxu" formalaşdırmaqdadırlar.**



Bu istiqamətdə Hindistanın "The Economic Times" qəzetinin yaydığı məlumat diqqəti cəlb edir. Bildirilib ki, Hindistan və İran arasında qarşılıqlı əlaqələri inkişaf etdirmək məqsədilə bu həftə Tehranda xarici işlər nazirlikləri səviyyəsində məsləhətləşmələr baş tutacaq. Qəzet özəl mənbələrinə istinadən yazıb ki, Hindistan Xarici İşlər Nazirliyinin rəsmisi həmkarı ilə görüşmək üçün İranın paytaxtına gedəcək nümayəndə heyətinə rəhbərlik edəcək. Vəziyyətlə tanış olan şəxslərin sözlərinə görə, digər məsələlərlə yanaşı, danışıqlarda Çabahar limanının fəaliyyətinin, eləcə də Beynəlxalq Şimal-Cənub Nəqliyyat Dəhlizinin gücləndirilməsinə diqqət yetiriləcək.

Planlaşdırılan görüşdən öncə – şənbə günü iki ölkənin ali milli təhlükəsizlik şuralarının katibləri Acit Doval və Əli Laricani telefonla danışıblar. Söhbət əsnasında vurğulanıb ki, aparılacaq müzakirələrdə əsasən iqtisadi əməkdaşlığın, təhlükəsizlik və müdafiə sahəsində əlaqələrin möhkəmləndirilməsi, İranın Çabahar dəniz limanının fəaliyyətinin genişləndirilməsi, Beynəlxalq Şimal-Cənub Nəqliyyat Dəhlizinin inkişafı nəzərdən keçiriləcək. Bu, iyun ayında baş verən İran-İsrail hərbi münaqişəsindən sonra tərəflər arasında baş tutan ilk strukturlaşdırılmış dialoq olacaq.

Qəzet yazır ki, ikitərəfli görüşlə yanaşı, yaxın aylarda, ən uzağı 2025-ci ilin sonunadək Hindistan, İran və Ermənistan arasında üçtərəfli görüş keçiriləcək. "Hindistan-İran ikitərəfli görüşünü Hindistan-İran-Ermənistan üçtərəfli formatı izləyəcək. Görüşdə Tehranın vasitəçiliyi altında Nyu-Dehli ilə İrəvanın münasibətləri qiymətləndiriləcək. Bu format son bir neçə ildə Hindistan və Ermənistan arasında İran vasitəsilə nəqliyyat əlaqələrinin qurulması üçün işlənib hazırlanıb. Görüş Ermənistan və Azərbaycan arasında son sülh sazişi ilə bağlı məlumat almaq üçün fürsət ola bilər", – deyə "The Economic Times" yazıb.

Xatırladaq ki, avqustun 29-da İranın icra işləri üzrə vitse-prezidenti Məhəmmədcəfər Qaimpənah yerli mətbuata açıqlamasında Tehran ölkənin cənub qurtaracağındakı Çabahar limanından cənub-şərqdəki Zahidan şəhərinə uzanan dəmir yolu layihəsinin başa çatdırılması üçün fəal iş aparır. Onun sözlərinə görə, layihə tamamlananda həm ölkənin dəmir yolu şəbəkəsinə, həm də beynəlxalq dəhlizlərə qoşulacaq: "Bu xətt vasitəsilə Çabahar limanından ölkənin şimalına, oradan isə Qafqaza, Rusiyaya və Avropaya zəruri mallar daşınacaq. Beləliklə, İranın regional və qlobal ticarətdə rolu güclənəcək".

***

Girişdə qeyd etdiyimiz kimi, uzun illər işğalçılıq siyasəti yürüdən, eləcə də regional siyasətdə yanlış istiqamətlərə yönələn Ermənistan bu gün özünü dalan vəziyyətində tapıb. Azərbaycan və Türkiyə ilə sərhədlərin bağlı qalması, Gürcüstan üzərindən tranzit imkanlarının isə məhdud, qış aylarında az qala keçilməz olması ölkəni həm iqtisadi, həm də siyasi baxımdan təcridə sürükləyib. Belə şəraitdə rəsmi İrəvanın yeni yollar axtarması, alternativ tərəfdaşlarla əməkdaşlıq qurmağa çalışması təbii haldır. Bu çərçivədə baş nazir Paşinyanın "Sülh kəsişməsi" adlandırdığı layihə, əslində, Ermənistanın çıxış yolları tapmaq istəyinin ifadəsidir. Lakin bu təşəbbüsün reallığa çevrilməsi üçün Ermənistanın regionda yeni güc balansını qəbul etməsi, qonşularla münasibətlərdə konstruktiv xətt seçməsi zəruridir. Zənnimizcə, bu layihənin həyata vəsiqə qazana bilməsində ölkəmizin rolunu Prezident İlham Əliyevdən daha yaxşı qiymətləndirən tapılmaz. Dövlətimizin başçısı 2025-ci il yanvarın 28-də nəqliyyat məsələlərinə həsr olunmuş müşavirədəki çıxışında bu barədə deyib: "Ermənistan müxtəlif bəhanələr gətirərək, müxtəlif qeyri-real və cəfəng layihələri ortaya ataraq, sadəcə olaraq, beynəlxalq ictimaiyyətin fikrini çaşdırmaq istəyir, manipulyasiyalarla məşğuldur. Yəqin ki, siz də eşitmisiniz, dırnaqarası "Sülh kəsişməsi" layihəsini ortalığa atıb və indi dünyada bir ölkə qalmayıb ki, o ölkəyə bu layihə təqdim edilməsin. Halbuki, bu dırnaqarası layihənin Azərbaycansız iki qəpiklik qiyməti yoxdur və biz bunu dəfələrlə Ermənistan tərəfinə müxtəlif kanallar vasitəsilə çatdırmışıq. Əgər siz bu layihəni doğrudan da həyata keçirmək istəyirsinizsə, ilk növbədə, Azərbaycana müraciət etməlisiniz".

Məhz bu dalan vəziyyətindən çıxmaq üçün İrəvanın diqqət yönəltdiyi əsas istiqamətlərdən biri İran və Hindistandır. Bu əməkdaşlıq sadəcə ikitərəfli deyil, həm də üçtərəfli formatda inkişaf etdirilməyə çalışılır. Tehranda baş tutacaq Hindistan–İran məsləhətləşmələri fonunda Ermənistanın da bu prosesə daxil edilməsinin planlaşdırılması region üçün mühüm siqnal sayılır. Bu formatın hədəfi Ermənistanın iqtisadi təcridini qismən yumşaltmaq, İrəvana alternativ ticarət yolları təqdim etməkdir. Əslində, Hindistan və İran arasında əlaqələrin möhkəmləndirilməsi yeni məsələ deyil. Son illər Nyu-Dehli enerji təhlükəsizliyi baxımından Tehrana önəm verir. Çabahar limanı layihəsi də məhz bu baxımdan strateji əhəmiyyət kəsb edir. ABŞ-ın sanksiyalarına baxmayaraq, Hindistan bu limanın inkişafı ilə maraqlanır, çünki bu, həm Pakistan üzərindən keçmədən Əfqanıstana çıxış, həm də Mərkəzi Asiya və Cənubi Qafqaza gedən marşrutlar üçün önəmli imkan yaradır. Beynəlxalq Şimal–Cənub Nəqliyyat Dəhlizi də bu kontekstdə gündəmə gəlir. İranın son açıqlamaları göstərir ki, ölkə Çabahar limanı ilə Zahidanı birləşdirən dəmir yolu xəttini başa çatdırmaqla ticarət marşrutlarını şimala bağlamağı planlaşdırır.

Bu mənzərədə Ermənistan özünü tranzit ölkə kimi təqdim etməyə cəhd göstərir. İrəvan düşünür ki, İran üzərindən Hindistana çıxış qazanmaqla, eyni zamanda şimalda Gürcüstan və Qara dəniz limanları ilə əlaqə qurmaqla ölkə regional ticarət şəbəkəsində iştirak edə bilər. Lakin bu iddianın həyata keçməsi üçün təkcə Hindistan və İranla danışıqlar kifayət deyil. Ermənistanın qonşuları ilə münasibətləri hələ də həllini gözləyən məsələlərlə doludur. Ermənistanın bu prosesdə hansı rolu oynaya biləcəyi sual doğurur. Regionda yeni reallıqlar formalaşıb və həmin reallıqlar fonunda ən önəmli oyunçu Azərbaycandır. Ermənistanın təklif etdiyi marşrutların gerçəkləşməsi yalnız Azərbaycan və Türkiyə ilə münasibətlərin normallaşmasından sonra mümkündür. Əks halda, Ermənistan heç bir regional dəhlizin mərkəzinə çevrilə bilməz.

Hindistan–İran–Ermənistan üçtərəfli formatının planlaşdırılması daha çox siyasi xarakter daşıyır. Bu görüşlərdə İrəvanın təcriddən çıxmaq üçün imkanlar axtaracağı şübhəsizdir. Lakin prosesin real iqtisadi nəticələr verməsi üçün geniş regional əməkdaşlıq mühiti formalaşmalıdır. Hazırda isə belə bir mühit yalnız Azərbaycanla Ermənistan arasında imzalanmış sülh sazişi fonunda yarana bilər. Məhz bu səbəbdən Hindistan mətbuatında qeyd edilir ki, üçtərəfli görüş həm də regiondakı sülh prosesi ilə bağlı fikir mübadiləsi üçün imkan ola bilər.

Nəticə etibarilə, Ermənistanın İran və Hindistanla yaxınlaşma cəhdləri anlaşılandır. Lakin bu cəhdlərin uğur qazanması üçün ölkə reallıqlarla barışmalı, yeni iqtisadi və siyasi xəritədə özünə uyğun mövqeni düzgün müəyyənləşdirməlidir. Regionun iqtisadi arteriyalarına çıxış yalnız qonşularla normal münasibətlərin bərpası şərtilə mümkündür. Ermənistan isə indiyədək bu zərurəti qəbul etməkdə tərəddüd göstərir. "Sülh kəsişməsi" ideyasının gerçək məna kəsb etməsi üçün sözlərdən çox əməl gərəkdir. Ermənistanın gələcək uğuru məhz buna bağlı olacaq.

**Politoloq İlyas Hüseynov** XQ-yə açıqlamasında bildirdi ki, Ermənistanın Hindistan və İranla yaxınlaşma cəhdləri ölkənin uzunmüddətli təcriddən çıxmaq istəyinin



ifadəsidir. Onun sözlərinə görə, "Sülh kəsişməsi" təşəbbüsü və planlaşdırılan Hindistan–İran–Ermənistan formatı rəsmi İrəvana regiondakı mövqeyini möhkəmləndirmək imkanı versə də, bu hədəflərin gerçəkləşməsi yalnız qonşularla münasibətlərin normallaşması fonunda mümkündür: "Çabahar limanı və Beynəlxalq Şimal–Cənub Nəqliyyat Dəhlizi kimi layihələr strateji əhəmiyyət daşıyır, lakin Ermənistan bu marşrutlarda mühüm rol oynamaq üçün ilk növbədə, Azərbaycanla sülh sazişini icra etməli, Türkiyə ilə sərhədini açmaq istiqamətində real addımlar atmalıdır. Əks halda, İran və Hindistanla danışıqlar daha çox siyasi jest xarakteri daşıyacaq".

***Səxavət HƏMİD***
***XQ***

# Dəxi getmək məqamıdır...

## *Fransada prezident koalisiyasının zəifləməsi siyasi böhranı dərinləşdirir*



**Sentyabrın 8-də baş nazir Fransua Bayrunun hökumətinin Milli Assambleyada keçirilən etimadsızlıq səsverməsində məğlubiyyəti Fransada siyasi atmosferi daha da gərginləşdirib. Səsvermənin nəticələrindən sonra Bayru istefaya getməyə məcbur qalıb. Beləliklə, Bayru hökuməti 1958-ci ildə Beşinci Respublikanın elanından sonra öz təşəbbüsü ilə keçirilən etimad səsverməsində məğlub olan ilk hökumət kimi tarixə düşdü.**

Fransua Bayrunun istefası ölkənin siyasi sisteminin dərin böhranla üz-üzə olduğunu bir daha təsdiqlədi. Yelisey sarayı səsvermənin nəticələrindən dərhal sonra qısa bəyanat yayaraq Prezident Emmanuel Makronun hökumətin süqutunu qəbul etdiyini və yeni baş nazirin tezliklə təyin ediləcəyini açıqladı. Baş nazirin məğlubiyyəti Fransa siyasətində bəzi suallar doğurdu. Maraqlıdır, Makron yeni hökuməti hansı siyasi qüvvə ilə formalaşdıracaq? Solçu və sağçı qüvvələr arasında kəskin qarşıdurmanın hökm sürdüyü, ifrat sağın sürətlə yüksəldiyi bir şəraitdə prezidentin manevr imkanları elə də geniş deyil. Yeni baş nazirin kimliyi hökumətin gələcəyi ilə yanaşı, Fransa siyasətinin növbəti istiqamətini müəyyən edəcək.

Bayru hökumətinin süqutu Makronun siyasi nüfuzuna ciddi zərbə vurur. Onsuz da parlamentdə nüfuzunu itirən prezident indi daha mürəkkəb siyasi dialoq qurmağa, güzəşt mexanizmlərini işə salmağa məcbur qalacaq. Əks halda, böhran dərinləşərək Fransa siyasi sistemində uzunmüddətli qeyri-sabitliyə gətirib çıxara bilər. Səsvermənin nəticələri açıqlandıqdan sonra solçu lider Jan-Lük Melanşon parlamentin qərarını “xalqın qələbəsi” adlandıraraq bunun Prezident Emmanuel Makronun legitimliyinə ciddi zərbə vurduğunu təsdiqləyib. O, sosial şəbəkə hesabında Makrona açıq müraciət edərək onu istefa verməyə çağırıb. Melanşonun çağırışı həm siyasi, həm də ictimai müstəvidə rezonans doğurub. Çünki artıq Fransa cəmiyyətində Makronun parlamentin dəstəyi olmadan ölkəni idarə etməsinin çətinləşdiyi fikri hakimdir.

Siyasi dairələrdə isə yeni baş nazir məsələsi ətrafında müzakirələr intensivləşib.

Yaşıllar Partiyasının lideri Marin Tondelye bildirib ki, baş nazir Yeni Xalq Cəbhəsi (NFP) sıralarından seçilməlidir. Bu yanaşma Makronun siyasi manevr imkanlarını məhdudlaşdırır. Çünki NFP-nin tələbi qəbul olunmasa, parlamentdə yeni hökumətin sabit şəkildə fəaliyyət göstərməsi sual altına düşəcək. Digər tərəfdən, prezident partiyasının rəhbəri Qabriel Attal kompromis variant kimi danışıqlar aparacaq adamın təyin edilməsini təklif edib. Onun “özüm namizəd deyiləm” deməsi isə həm siyasi məsuliyyətdən yayınma cəhdi, həm də Makronun manevr dairəsini qorumaq üçün atılmış taktiki addım kimi dəyərləndirilir. Etimadsızlıq səsverməsindən sonra Baş nazir Fransua Bayru da öz mövqeyini açıqlayaraq bu addımı bilərəkdən atdığını deyib. Bayrunun sözlərinə görə, bu risk demokratik sistemin sınağa çəkilməsi üçün zərurət idi. Onun mövqeyi parlament çoxluğunun dəstəyini ala bilməyən hökumətin siyasi zəifliyini ört-basdır etmək cəhdi kimi görünür. Fransa indi mühüm siyasi yolayrıcındadır. İqtidar və müxalifət arasında gedəcək danışıqlar ölkənin gələcəyini müəyyən edəcək. Əgər Makron kompromisə meyilli addımlar atmasa, qarşıdakı mərhələdə siyasi qarşıdurmanın dərinləşməsi qaçılmaz olacaq. Yeni hökumətin formalaşdırılması prosesi artıq Avropa İttifaqının və beynəlxalq tərəfdaşların da diqqətlə izlədiyi siyasi imtahana çevrilib. Bu baxımdan, Fransadakı proseslərin Avropa siyasətinə təsirsiz ötüşməyəcəyini söyləmək mümkündür.

Fransada siyasi prosesin gedişatı barədə əvvəlcədən məlumatlı olan və Bayrunun məğlubiyyətini gözləyən vətəndaşlar bəzi şəhərlərdə meriya binaları qarşısında kütləvi tədbirlər, pikniklər və “şənliklər” təşkil etmişdilər. Ölkə mediası səsverməyə bir neçə gün qalmış Bayrunun istefasının qaçılmaz ola biləcəyi barədə yazırdı. Sosial şəbəkələrdə “vida mərasimləri”nə dair çağırışlar sürətlə yayıldı. Lionda “Əlvida, Bayru!” şüarları altında keçirilən aksiyalar həm də siyasi istehzaya çevrilmişdi. Brestdə meriya qarşısında böyük toplantı baş tutdu, Qrenoblda isə 500-dən çox insan hökumətin süqutunu əvvəlcədən qeyd etdi. Bu mənzərə cəmiyyətin hökumətə inamsızlığının artıq siyasi debatlarla məhdudlaşmadığını, gündəlik həyatın bir parçasına çevrildiyini göstərdi.

Onu da qeyd edək ki, Fransa vətəndaşlarının əksəriyyəti Milli Assambleyanın buraxılmasını və növbədənkənar seçkilərin keçirilməsini tələb edir. İctimai Rəy İnstitutu (IFOP) tərəfindən LCI telekanalının sifarişi ilə aparılan sorğuya görə, respondentlərin 61 faizi parlamentin buraxılmasının tərəfdarıdır. Bu göstərici 4 iyulda keçirilən analoji sorğunun göstəricisindən 11 faiz yüksəkdir. IFOP-un ictimai rəy şöbəsinin rəhbəri Frederik Dabi telekanalın efirində nəticəni şərh edərək bildirib ki, prezident seçkilərində Emmanuel Makrona səs verənlər istisna olmaqla, demək olar ki, bütün sosial və siyasi kateqoriyalarda parlamentin buraxılması ideyası üstünlük təşkil edir. Sorğu, həmçinin Fransanın gələcək siyasi mənzərəsini təsəvvür etməyə imkan verir. Əgər ölkədə növbədənkənar seçkilər baş tutsa, sağçı “Milli Birlik” Partiyası açıq şəkildə lider mövqeyini ələ alaraq səslərin 34 faizini qazana bilər. Sol qüvvələrin perspektivi daha mürəkkəbdir və birbaşa seçki strategiyasından asılıdır. Əgər solçular vahid alyans şəklində seçkilərə qatılarsa, səslərin təxminən 24 faizini əldə edə bilərlər. Lakin “Tabe olmayan Fransa” hərəkatı bu alyansa daxil edilməsə, sol blokun reytinqinin 19 faizə qədər enməsi gözlənilir. Prezident Emmanuel Makronun rəhbərlik etdiyi koalisiya isə əhəmiyyətli dərəcədə zəifləyib. Sorğunun nəticələri göstərir ki, koalisiya parlamentdə cəmi 14 faiz dəstək qazana bilər. Bu isə Makronun komandasının əvvəlki mövqeyini itirməsinə səbəb olmaqla yanaşı, parlamentin üçüncü gücünə çevirir. Eyni zamanda mərkəz sağçı “Respublikaçılar” bütün ssenarilərdə təxminən 12 faiz səslə sabit, amma təsir imkanları məhdud siyasi oyunçu olaraq qalır.

***Nəzrin ELDARQIZI***
***XQ***

### Ekspert rəyi



**Yusif BAĞIRZADƏ,**
**politoloq**

Fransanın baş naziri Fransua Bayrunun rəhbərlik etdiyi hökumət parlamentdə etimad səsverməsindən keçə bilmədiyi üçün dağıldı. Sələfi Mişel Barniyer kimi Bayru da büdcə gərginliyinə görə vəzifəsində qala bilmədi. Bayru cəmi 9 ay idi ki, bu vəzifədə idi. Ümumiyyətlə, siyasi cəhətdən iflic olmuş Fransada son 20 ayda artıq dörd baş nazir dəyişib. Ölkədə baş verən qeyri-sabitlik səviyyəsi 1958-ci ildə Beşinci Respublikanın qurulmasından bəri görünməmiş institusional böhrandan xəbər verir. Məsələ təkcə Fransua Bayru hökumətinin süqutunda deyil, ümumiyyətlə, Makron hakimiyyətinin bütövlüklə qəbul olunmayan siyasəti ilə bağlıdır. Sosioloji sorğular göstərir ki, Fransa əhalisinin cəmi 15 faizi Prezident Emmanuel Makrona etibar edir. Makron isə 2027-ci ildə səlahiyyət müddəti başa çatana qədər istefa verməyəcəyini qəti şəkildə bildirib. Odur ki, indi Fransa prezidentinin hansı addımları atacağı maraq doğurur. Makron yeni baş nazir təyin edəcək, parlamenti buraxaraq erkən seçkilərə gedəcək, yoxsa status-kvonu hansısa formada saxlamaq üçün parlamentlə kompromis axtarmağa çalışacaq. Yeni baş nazirin təyin edilməsi böhranın həllinə deyil, eyni halın təkrarlanmasına səbəb ola bilər. Makronun parlamenti buraxıb yeni seçkilər keçirmək qərarını verəcəyi də əslində inandırıcı deyil. Çünki reytinqi hər keçən gün aşağı düşən Makron tərəfindən belə qərarın qəbulu parlamentdə mövqelərinin daha da zəifləməsinə gətirib çıxara bilər. Təbii ki, Fransa üçün ən uyğun olan Makronun istefası ola bilərdi, amma onun istefa vermək niyyətində olmaması böhranın dərinləşəcəyindən xəbər verir.

Böhran və siyasi gərginliyin Fransada kütləvi etirazlara rəvac verəcəyi şübhəsizdir. Bu həftə “Hər şeyi dayandırın” şüarı altında nümayişlər, ardınca isə sentyabrın ikinci yarısında həmkarlar ittifaqının rəhbərlik etdiyi səhiyyə və dəmir yolu işçilərinin tətilləri gözlənilir. Böhranın aradan qaldırılması üçün Makronun imkanları isə məhduddur. Tək yol kompromisin əldə edilməsi üçün müvafiq addımların atılmasıdır. Parlamentdə çoxluqla razılaşaraq 2027-ci ilə qədər keçid hökumətinin qurulması çıxış yolu ola bilər. Amma Makronun rəqiblərinin bu təklifə necə cavab verəcəyi hələlik məlum deyil.

# Şimali Kipr Şərqi, yoxsa Qərbi seçəcək?

**(əvvəli 1-ci səhifədə)**



Seçkilərdə yarışacaq namizədlər Şimali Kiprin siyasi spektrini tam əks etdirir. Əsas rəqabət hazırkı prezident, Milli Birlik Partiyasının (UBP) lideri Ərsin Tatar və Respublikaçı Türk Partiyasının (CTP) sədri, sabiq baş nazir Tufan Ərhürman arasında gedir. Millətçi-sağ qanadın nümayəndəsi Tatar seçki kampaniyasında ŞKTC-nin müstəqilliyini, Türkiyə ilə sıx münasibətlərin qorunmasını və “3D” – birbaşa əlaqə, birbaşa ticarət, birbaşa uçuşlar planını önə çəkir. Onun əsas tezisi “iki dövlətli model”in gücləndirilməsi və Türk ordusunun regiondakı varlığına söykənir. “İki dövlətli model” Şimali və Cənubi Kiprin ayrı-ayrılıqda müstəqillik qazanması və iki dövlət arasında münasibətlərin tənzimlənməsini özündə ehtiva edir. Buna qarşı olan CTP lideri Ərhürman daha çox federativ həll yolunu, Avropa Birliyinə inteqrasiya və beynəlxalq dialoqu ön plana çıxarır. Onun seçkiyə liberal və sosial-demokrat xətt gətirdiyi müşahidə olunur.

Seçki mühitində əsas diqqət yenə Türkiyənin təsir imkanları ətrafında cəmləşir. 2020-ci il seçkilərində olduğu kimi, bu dəfə də Ankara amili həm daxili debatların, həm də beynəlxalq müşahidələrin mərkəzindədir. Şimali Kipr yalnız bir dövlət – Türkiyə tərəfindən tanındığı üçün beynəlxalq ictimaiyyət bu seçkiləri legitim hesab etmir. Böyük Britaniya rəsmən bəyan edib ki, ŞKTC-də prezident seçkilərinə müşahidəçi göndərməyəcək. BMT və Avropa İttifaqı tərəfindən bu səsvermə “mübahisəli” hadisə kimi qiymətləndirilir.

Türkiyə rəsmiləri və Ankaraya yaxın dairələr isə bu prosesi Kipr türklərinin hüquqlarının tanınması istiqamətində mühüm addım kimi təqdim edirlər. Türkiyəli mütəxəssislərin fikrincə, bu seçkilər ŞKTC-nin beynəlxalq statusunu gündəmə gətirəcək və Türk icmasının “bərabər hüquqları”nı nümayiş etdirəcək. Rəsmi beynəlxalq müşahidəçilərin olmamasına baxmayaraq, Şimali Kipr hakimiyyəti və Türkiyə müəyyən dost dövlətlərdən və təşkilatlardan seçkiyə nümayəndə dəvət etmək niyyətindədir. Beləliklə, seçkilərin beynəlxalq müstəvidəki önəmi ŞKTC-nin tanınması məsələsi ilə bağlıdır.

Şimali Kipr Türk dünyası üçün təkcə siyasi müstəvidə deyil, həm də mədəni kimlik baxımından simvolik əhəmiyyət daşıyır. 2022-ci ildə ŞKTC-nin Türk Dövlətləri Təşkilatına (TDT) müşahidəçi qismində dəvət olunması türk dünyasının həmrəylik jesti kimi dəyərləndirildi. Bu addım Türk birliyinin coğrafi miqyasını Türküstanın geniş çöllərindən Aralıq dənizinin sahillərinədək uzanan strateji xəritəyə çevirdiyini göstərir. Rəsmi Bakı ŞKTC-yə daim açıq dəstəyini nümayiş etdirib. Prezident İlham Əliyev çıxışlarında Kipr türklərini “bizim qardaşlarımız” adlandıraraq, onların haqlı mövqeyini müdafiə etdiyini vurğulayıb. ŞKTC-nin hazırkı prezidenti Ərsin Tatar qeyd edib ki, İlham Əliyev hər zaman Şimali Kiprin yanında olub.

Oktyabr seçkilərinin nəticələri təkcə daxili siyasi balansı deyil, həm də ŞKTR-in xarici əlaqələrinin istiqamətini müəyyən edə bilər. Əgər hazırkı prezident Ərsin Tatar yenidən qalib gəlsə, onun Türkiyə ilə sıx əməkdaşlığa əsaslanan kursu davam edəcək. “İki dövlətli” yanaşma, 3D təşəbbüsləri və Ankara ilə əlaqələrin daha da dərinləşdirilməsi Lefkoşanın prioritetləri olaraq qalacaq. Əgər seçkilərdə Tufan Ərhürman önə çıxarsa, CTP-nin federasiya yönümlü siyasəti yenidən aktuallaşa bilər. Onun Avropa ilə inteqrasiyanı vurğulayan ritorikası adanı beynəlxalq aləmə yaxınlaşdırmaq məqsədi daşıyır. Amma bu xəttin Ankaranın iki dövlət prinsipinə əsaslanan mövqeyi ilə toqquşma ehtimalı var. Bu halda, ŞKTC daxili siyasətdə yeni dinamika yarana bilər: prezident parlamenti buraxmaq səlahiyyətindən istifadə edərək erkən seçkilərə gedə və fərqli koalisiya modellərinin meydana çıxmasına şərait yarada bilər.

Hər iki ssenaridə nəticələrin təsir dairəsi yalnız Şimali Kiprlə məhdudlaşmayacaq. Tatar qalib gəldiyi halda ŞKTC-nin Türk Dövlətləri Təşkilatındakı rolu möhkəmlənəcək, Ərhürmanın seçilməsi isə daha çox dialoq və federasiya yönümlü müzakirələri gündəmə gətirəcək. Azərbaycan və Mərkəzi Asiyadakı türk dövlətlərinin Kiprlə gələcək əməkdaşlığın məzmunu məhz bu seçkilərin konturlarından asılı olacaq.

Nəticə etibarilə, oktyabr səsverməsinin həm ŞKTC-nin daxili islahat kursunu müəyyənləşdirəcəyi, həm də Türkiyə və bütövlükdə Türk dünyası ilə münasibətlərin gələcək istiqamətinə strateji yön verəcəyi şübhəsizdir.

***Tacir SADIQOV***
***XQ***

### Ekspert rəyi



**Hasan OKTAY,**
**Qafqaz Strateji Araşdırmalar Mərkəzinin sədri, politoloq**

**Şimali Kipr Türk Cümhuriyyətində bu günədək Rauf Denktaş, Mehmet Ali Talat, Derviş Əroğlu, Mustafa Akıncı və Ersin Tatar prezident vəzifələrini icra ediblər. 19 oktyabrda keçiriləcək seçkilərdə hazırkı prezident Ərsin Tatar, Tufan Ərhürman, Sərdar Denktaş və Mehmet Hasgülər yarışacaqlar. Ərsin Tatar qalib gələrsə, o, Kiprin beşinci prezidenti kimi vəzifəsinə davam edəcək.**

Türkiyə ŞKTC-ni yaxından izləyərək, seçkilərin demokratik prinsiplərə uyğun keçməsini arzulayır. Mehmet Ali Talat və Mustafa Akıncı prezidentlik dövrlərində Türkiyə ilə müəyyən problemlər yaşanmışdı. Xüsusilə Cənubi Kipr siyasəti və Avropa İttifaqının siyasəti ilə bağlı fikir ayrılıqları olsa da, nəticədə Türkiyə ilə razılaşdırılmış addımlar atıldı.

Prezidentlik tarixçəsinə baxdıqda, Denktaşla mərkəz-sağ, Mehmet Ali Talatla sol, sonra Derviş Əroğlu ilə mərkəz-sağ, Mustafa Akıncı ilə isə sol meyilli prezidentlərin seçildiyi müşahidə olunur. Ərsin Tatar prezident vəzifəsini mərkəz-sağ tərəfdən icra edir, onun ən böyük rəqibi Tufan Ərhürman isə seçkiyə solu təmsil edərək qatılır.

Kiprin gələcək prezidenti üçün əsas problemlər Cənubi Kiprlə aparılan danışıqlar və Aİ ilə münasibətlərdir. Həmçinin Şərqi Aralıq dənizindəki enerji mənbələri və İsrailin Yaxın Şərqdəki mövqeyi Lefkoşanın siyasətinə təsirsiz ötüşmür. Buna görə Türkiyə yola Ərsin Tatarla davam etməyi üstün tutur. Digər tərəfdən, Kiprin dayanıqlı iqtisadiyyat qurması üçün ciddi işlər görmək vacibdir. Bu baxımdan, Türkiyədən yüksək səviyyədə dəstək alınması zəruridir. Kipr xalqı bu prosesin Ərsin Tatarla daha uğurla idarə olunacağını düşünərək ona səs verməyə hazırdır. Tufan Ərhürmanın yaxşı hüquqşünas olması, danışıqlarda iştirak etməsi, Türkiyədə fəaliyyət göstərməsi və Kiprdə baş nazir vəzifəsini icra etməsi ilə diqqətçəkən müxalifət lideridir.



**Toğrul İSMAYIL,**
**Ankara Universitetinin professoru, politoloq**

**Şimali Kiprdə 19 oktyabrda keçiriləcək prezident seçkilərinin nəticəsi ikili təsirə malik ola bilər. Əgər Türkiyəyə yaxın mövqeyə malik namizəd qalib gələrsə, Bakı ilə Lefkoşa arasındakı əlaqələrin daha rahat və sürətli inkişafı üçün əlverişli zəmin formalaşacaq. Son illər təhsil, mədəniyyət və humanitar sahələrdə artan əməkdaşlıq bu xəttin güclənməsi ilə daha da genişlənə bilər. Əksinə, federasiya yanaşmasını müdafiə edən bir liderin önə çıxması Azərbaycanın Şimali Kiprlə açıq siyasi əməkdaşlığında daha diqqətli və balanslı davranmasını zəruri edəcək. Bakı beynəlxalq hüquqi nəzərə alaraq Kipr məsələsində həssas mövqeyini qorumağa çalışır.**

Türkiyə üçün bu seçkilər birbaşa strateji əhəmiyyət kəsb edir. Ankara Şimali Kiprin əsas siyasi, iqtisadi və təhlükəsizlik təminatçısıdır və adada Türkiyəyə yaxın qüvvələrin güclənməsi Ankaranın Şərqi Aralıq dənizindəki enerji siyasəti və geosiyasi mövqelərini möhkəmləndirəcək. Əks halda, federasiya tərəfdarlarının qalib gəlməsi Türkiyənin bölgədəki təsir dairəsini daralda, həm də Avropa İttifaqı və BMT-nin təsir imkanlarını artıraraq balansı dəyişdirə bilər.

Türk dünyası kontekstində isə bu seçkilər yeni imkanlar və ya məhdudiyyətlər yarada bilər. Türkiyə ilə sinxron siyasət yürüdən bir rəhbərliyin hakimiyyətə gəlməsi Türk Dövlətləri Təşkilatı ilə əməkdaşlıq perspektivlərini də gücləndirəcək, hətta müşahidəçi statusu və ya müxtəlif iqtisadi-humanitar platformalarda iştirak kimi yeni açılımlar gətirə biləcək. Yox, əgər federasiya yanaşması ön plana çıxarsa, Lefkoşanın diqqəti daha çox Avropa İttifaqı və BMT çərçivəsində status axtarışlarına yönələcək ki, bu da Türk dünyası ilə əlaqələrin ikinci plana keçməsi ehtimalını artıracaq.

# Konstitusiya və suverenlik: Müstəqil Azərbaycan dövlətçiliyi kontekstində

**I MƏQALƏ**




## Konstitusiya

Konstitusiya dövlətin əsas qanunudur. Bu sənəd dövlətin əsaslarını müəyyən edir. Həmin əsaslar siyasi, iqtisadi və hüquqi sistemlərdən ibarətdir. Eyni zamanda Konstitusiya dövlətin və insanın hüquq və öhdəliklərini müəyyənləşdirir. Konstitusiya ali hüquqi gücə malikdir. Adətən Konstitusiya ümumxalq referendumu vasitəsilə qəbul edilir. Hakimiyyətin ali orqanlarının formalaşması və funksionallığı qaydasını, kompetensiyalarını və qarşılıqlı münasibətlərini müəyyən edir.

Nəzəri baxımdan belə aydın olur ki, Konstitusiya hər bir müasir dövlətin fəaliyyətinin anatomiyasıdır. O həm də fərdi və kollektiv miqyaslarda dövlət üçün vacib olan qayda-qanunları, fəaliyyət düzənini müəyyən edir. Məsələn, şəxsiyyətin statusunu müəyyənləşdirir. Bunu iki aspektdə edir. Birinci aspekt insan haqları və azadlığıdır. İkinci aspekt vətəndaşın dövlət qarşısında öhdəlikləridir.

Konstitusiya həm də kollektiv birgəyaşam səviyyəsində ictimai münasibətləri tənzimləyir. Yəni vətəndaşla dövlət arasında qarşılıqlı münasibətləri tənzimləməklə ictimai həyatı nizamlayır. Bundan başqa, Konstitusiya insanın cəmiyyətdə yerini müəyyən edir.

Konstitusiyanın bizim baxdığımız prizmada mühüm özəlliklərindən biri təsisedici xarakterli olmasıdır. Konkret ifadə etsək, Konstitusiya dövlət yaradılanda və ya yeni formaya keçəndə dövlətçiliyin əsasını möhkəmlədən təsisedici sənəddir. Məhz bu aspekdə Konstitusiya ali hüquqi faktor kimi ölkənin bütün digər normativ-hüquqi aktlarından yüksəkdədir.

Əgər vurğulanan əsas əlamətləri ümumiləşdirsək, Konstitusiyanın fəlsəfi baxımdan bir sıra əhəmiyyətli substantiv (yəni predmetə aid konkret məzmunu) və funksional özəlliklərini aydınlaşdıra bilərik.

## Dövlətçiliyin əsası və Konstitusiya

Keçən əsrin 90-cı illərində müstəqilliyini əldə etmiş hər bir keçmiş sovet respublikası üçün uyğun Konstitusiyanın hazırlanması dövlətçilik və müstəqillik baxımından həyati əhəmiyyətli məsələ idi. Çünki aydın, dəqiq və müasir beynəlxalq hüquqa tam uyğun Konstitusiya olmadan real olaraq müstəqil dövlət qurmaq mümkün deyildir. Təcrübə də bunu sübut etdi. Məsələn, Ermənistan Konstitusiyası reallığa əsaslanmadığından (başqa torpaqlara iddia üstüörtülü yer almışdır, dövlətçilik tarixi təhrif olunmuşdur və s.) gerçək müstəqil dövlət qurmaq tam reallaşmamışdır. XXI əsrin üçüncü onilliyində N.Paşinyan etiraf edir ki, başqalarının hesabına mövcud olmayan, müstəqil və daxili reallığa əsaslanan dövlət qurmalıyıq. Bunun üçün ilk şərt Ermənistan konstitusiyasını dəyişməkdən ibarətdir. Deməli, sözdə müstəqilliyini keçən əsrin 90-cı illərinin əvvəllərində elan etmiş bir Cənubi Qafqaz dövləti hələ də gerçəkçi müstəqil dövlət kimi formalaşa bilməmişdir.

Yeri gəlmişkən, bu barədə erməni əsilli amerikan tarixçisi Ronald Qriqor Süni 1997-ci ildə İrəvanda keçirilən beynəlxalq konfransda "Ermənistanda müstəqil dövlət formalaşmamışdır" tezisini irəli sürmüşdür. Bunun fonunda "regionda müstəqil dövlət yalnız Azərbaycanda Heydər Əliyevin sayəsində formalaşmışdır" fikrini bəyan etmişdir. Bu mövqeyinə görə, polis alimi radikal erməni sürüsünün əlindən güclə xilas etmişdi. Onu da vurğulayaq ki, R.Q.Süni Miçiqan Universitetinin siyasi və sosial tarix professorudur. Eyni zamanda Çikaqo Universitetinin siyasi elmlər doktoru və "Kembric Rus Tarixi"nin 3-cü cildinin baş redaktorudur. Tarixçi alim Zəngəzurlu (ermənilər ora "Sünik" deyirlər) erməni bəstəkar Qriqor Mirzayan Süninin nəvəsidir. Yəni alim erməni cəmiyyətinə yad deyildir, lakin görünür, Amerika mühiti onun alim kimi vicdanına ciddi təsir etmişdir.

Dünya üzrə digər ölkələrin təcrübəsi də göstərir ki, əsl müstəqil dövlət qurmaq üçün ölkənin dövlətçilik ənənəsi ilə müasir tələblərin harmoniyasının təmini sayəsində dövlətçiliyin əsasını möhkəmləndirən Konstitusiya real müsbət rol oynaya bilər. Heydər Əliyev Avrasiya məkanında buna ən uğurlu səviyyədə nail olan Ümummilli Liderdir. Bu tezisin fəlsəfi detalları üzərində dayanaq.

Hər şeydən öncə nəzərə almaq lazımdır ki, Heydər Əliyev, eyni zamanda xilaskarlıqla dövlət quruculuğu strategiyasını aparmalı idi. Çox çətin vəziyyətə salınmış Azərbaycan Respublikasını xilas etmək olduqca mürəkkəb vəzifə idi. Burada daxili və xarici qaynaqlı problemləri hüquqi, qanuni və ədalətli yanaşma əsasında aradan qaldırmaq gərəkdi. Ancaq bu möhtəşəm vəzifə ilə məhdudlaşmaq da olmazdı. Çünki real müstəqil dövlət quruculuğu kursu müəyyən edilməli idi. Bu istiqamətdə proseslər həm daxili məntiqinə, həm də məzmun və məqsədinə görə sintezdə həyata keçirilməli idi. Həmin şərtin ödənməsi üçün isə ali hüquqi əsas yaradılmalı idi ki, digər aspektlərlə yanaşı, hüquqi olaraq dövlətin fəaliyyəti legitimlik əldə etsin. Ulu öndər Heydər Əliyevin 1995-ci ildə yeni Konstitusiya (Ana Yasa) qəbul etməsi bu baxımdan müstəqil dövlətçilik üçün siyasi, tarixi, geosiyasi və hüquqi baxımdan dönüş nöqtəsi idi. Bu fikrin təsdiqi üçün bir faktı vurğulayaq.

## Azərbaycan Konstitusiyasında prezident idarəetməsinin təsbiti

Hər bir ölkənin dövlətçilik kimliyində ümumi olaraq "dövlət forması" və onun tərkib hissəsi kimi "dövlət idarəetmə forması", "dövlət quruluşu forması" və "siyasi rejim" mühüm rol oynayır. Dövlət forması onun (yəni dövlətin) xarici əlamətlərinin məcmusunu ehtiva edir. Bu keyfiyyətdə o, "hakimiyyətin təşkilinin necəliyini, hakimiyyətin necə, hansı orqan və metodlarla həyata keçirildiyini göstərir". Dövlət formasının adətən üç tərkib hissəsini ayırırlar – "dövləti idarəetmə forması", "dövlət quruluşu forması" və "siyasi rejim", yaxud "dövlət rejimi". Dövlət idarəetmə forması yüksək dövlət hakimiyyəti orqanlarının təşkili sistemini və onların formalaşma qaydasını ehtiva edir. Bura fəaliyyət şərtləri və səlahiyyətləri də daxildir. Bununla yanaşı, dövlət orqanlarının "bir-biri ilə və əhali ilə qarşılıqlı əlaqəsi qaydası və əhalinin onların formalaşmasında iştirak dərəcəsi" dövlət idarəetmə formasında əksini tapmalıdır.

Dövlət quruluşunun forması dövlətin ərazi təşkili metodu ilə bağlıdır. O, "dövlətin daxili quruluşunu, onun tərkib hissələrinə (ərazilərinə) bölünməsini və onların bir-biri ilə münasibətləri prinsiplərini müəyyənləşdirir".

"Siyasi rejim - bir dövlət idarəolunmasında suverenliyin kim tərəfindən və nə şəkildə istifadə ediləcəyini təyin edən formal və informal qayda və vasitələri ifadə edir. Siyasi rejimin digər adı "hökumət sistemi"dir".

İndi bu anlayışların məzmunu işığında müstəqil Azərbaycan Respublikasında prezident idarəetməsinin özəlliklərinə nəzər salaq.

Azərbaycan prezidenti vəzifəsi 18 may 1990-cı ildə təsis edilmişdir. Səlahiyyət baxımdan prezident Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri vəzifəsini əvəz etməli idi. Ancaq ölkədə ilk prezident seçkisi bundan bir il 3 ay sonra - 1991-ci il sentyabrın 8-də keçirilmişdir.

İkinci prezident seçkisi 1992-ci ildə olmuşdur.

Üçüncü prezident seçkisi isə 1993-cü ilin oktyabrında baş tutmuşdur.

Xronologiyaya baxsaq, 1991-1993-cü illərin hər birində prezident seçkisi olmuşdur. Bunun, əlbəttə, müxtəlif səbəbləri mövcuddur. Ölkədəki böhranı, əvvəlki iki prezidentin səriştəsiz idarəetməsini, xarici təcavüzü, bütövlükdə Cənubi Qafqazda geosiyasi vəziyyətin qeyri-müəyyənliyini və s. göstərmək olar. Lakin bütün bunlarla yanaşı, dövlətçilik baxımından daha fundamental olanı Konstitusiyada hüquqi cəhətdən prezident idarəetməsinin təsbit olunmaması idi. Hüquqi təsbit həm prezident idarəetməsinin əsas hüquqi tərəflərini və şərtlərini müəyyən edir, həm də seçkinin keçirilmə vaxtı və şərtlərini dəqiq ifadə edir.

Belə alınır ki, Azərbaycanda prezident idarəetməsinin real hüquqi təsbiti zəruri idi. Heydər Əliyev bu işi də uğurla həyata keçirən dövlət başçısı oldu. 1995-ci il noyabrın 12-də Azərbaycanda birbaşa Heydər Əliyevin təşəbbüsü və təşkilatçılığı ilə Azərbaycan Respublikasının yeni Konstitusiyası qəbul edildi. Həmin Konstitusiya müstəqillik dövründə Azərbaycanda dövlət idarəetmə formasını hüquqi təsbit edən ilk təsisedici ali sənəddir. Bununla müstəqil Azərbaycan tarixində çox mühüm mərhələnin başladığı nəticəsini çıxara bilərik.

## Xalqın suverenliyindən dövlət suverenliyinə

Konstitusiya hər şeydən öncə Azərbaycanda dövlətçilik ənənəsinin çox vacib bir aspektini hüquqi müstəvidə ifadə etdi. Konstitusiyanın birinci maddəsində göstərilir ki, "Azərbaycan Respublikasında dövlət hakimiyyətinin yeganə mənbəyi Azərbaycan xalqıdır". Yəni qədim dövlətçiliyimizdə daim fundamental yer almış dövlət quruculuğunun Ana Şərti Azərbaycanda xalqın dövlətin qaynağında dayanan əsas müəyyənedici, təkanverici, qurucu və inkişafetdirici güc olmasından ibarətdir. Bu mənada xalqın suverenliyi fəlsəfəsi və hüququ dövlətin suverenliyi və legitimliyinin təməlini təşkil edir.

Həmin kontekstdə ikinci əhəmiyyətli məqam Konstitusiyada "Azərbaycan xalqı" anlayışnın izahı ilə bağlıdır. Ali təsisedici sənəddə yazılmışdır: "Azərbaycan xalqı Azərbaycan Respublikası ərazisində və ondan kənarda yaşayan, Azərbaycan dövlətinə və onun qanunlarına tabe sayılan Azərbaycan Respublikası vətəndaşlarından ibarətdir; bu isə beynəlxalq hüquqla müəyyənləşdirilmiş normaları istisna etmir".

Konstitusiyamıza görə, Azərbaycan xalqı Azərbaycan Respublikası dövlətinin indiki siyasi-coğrafi sərhədləri ilə məhdudlaşmır və daha geniş məkanı əhatə edir. Dünyanın istənilən guşəsində azərbaycanlılar beynəlxalq hüquqla müyyən edilmiş normalar çərçivəsində Azərbaycan xalqının bir parçasıdırlar. Burada şübhəsiz ki, hüquqi, mənəvi, mədəni və ideoloji aspektlərin sintezi əsas şərtdir.

Bu maddədən avtomatik olaraq dövlət quruculuğunda "xalqın suverenliyi" anlayışı alınır. Həmin baxımdan Konstitusiyanın Preambulasının aşağıdakı kimi başlaması çox əhəmiyyətli məqamdır. Orada yazılmışdır: "Azərbaycan xalqı özünün çoxəsrlik dövlətçilik ənənələrini davam etdirərək, "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktında əks olunan prinsipləri əsas götürərək, bütün cəmiyyətin və hər kəsin firavanlığının təmin edilməsini arzulayaraq, ədalətin, azadlığın və təhlükəsizliyin bərqərar edilməsini istəyərək, keçmiş, indiki və gələcək nəsillər qarşısında öz məsuliyyətini anlayaraq, suveren hüququndan istifadə edərək, təntənəli surətdə aşağıdakı niyyətlərini bəyan edir!..".

Yəni müstəqil Azərbaycan Respublikasının Konstitusiyası Azərbaycan xalqının gücü, potensialı, dövlətçilik ənənəsi və müasir mərhələdə Respublika qurmasının təməli, özülü, fəlsəfəsi, ideyası siyasi iradəsi, geosiyasi hədəfi, ən əsası başlıca subyekti və suverenlik kimliyidir! Başqa kimsə Azərbaycanda müstəqil dövlət quruculuğunun subyekti, onun suverenlik haqqı və hüququnun təmsilçisi ola bilməz! Tarixi müddəadır!

Konstitusiyanın ikinci maddəsində bu dövlətçilik fəlsəfəsi konkret hüquqi ifadədə dolğun əksini tapmışdır. Həmin maddədə yazılmışdır:

"I. Sərbəst və müstəqil öz müqəddəratını həll etmək və öz idarəetmə formasını müəyyən etmək Azərbaycan xalqının suveren hüququdur.

II. Azərbaycan xalqı öz suveren hüququnu bilavasitə ümumxalq səsverməsi - referendum və ümumi, bərabər və birbaşa seçki hüququ əsasında sərbəst, gizli və şəxsi səsvermə yolu ilə seçilmiş nümayəndələri vasitəsilə həyata keçirir".

Bu maddədə xalq suverenliyindən dövlət suverenliyinə siyasi, hüquqi, fəlsəfi və ideya keçidinin başlıca məğzi ifadə olunmuşdur. Onun üzərində ayrıca dayanmaq zərurətdir.

***(ardı var)***

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Qarabağ erməniləri Ermənistanı tərk edirlər

**Ermənistanda uzun illər davam edən siyasi böhran, korrupsiya və idarəetmədəki boşluqlar ictimai inamın azalmasına və ölkədə iqtisadi-sosial vəziyyətin pisləşməsinə səbəb olub. Bu proses nəticəsində işsizlik artıb, inflyasiya yüksəlib və sosial xidmətlər zəifləyib. Əhalinin böyük bir qismi gündəlik ehtiyaclarını qarşılaya bilmir və gələcəyindən ümidsizdir. İş imkanlarının məhdudluğu xüsusilə gənc nəsli daha yaxşı həyat axtarışı ilə xaricə üz tutmağa məcbur edir.**



Miqrasiyanın fəsadları artıq bəzi bölgələrdə demoqrafik böhrana səbəb olub. Məsələn, Şirak vilayətində kişi əhalinin 70 faizi Rusiyada işləyir. Loru və Zəngəzur bölgələrində də əhali axını nəticəsində kəndlər boşalır. Rəsmi statistikaya görə, Rusiyadakı əməkçi miqrantların təxminən 20 faizi ermənilərdir. Onların arasında Qarabağı könüllü tərk etmiş ermənilər çoxdur. Bunun səbəbləri var. İkinci Qarabağ müharibəsindən sonra Qarabağdan Ermənistana köç etmiş haylar orada ciddi sosial-iqtisadi çətinliklərlə üzləşdilər. Arzuladıqları sabitliyi və rifahı tapa bilmədilər. İşsizlik, mənzil problemi, aşağı gəlirlər və qeyri-müəyyən hüquqi status onların ölkədə qalmaq istəyini sürətlə azaltdı. Nəticədə, 2020–2024-cü illər ərzində 24 mindən çox Qarabağ ermənisi bu ölkəni birdəfəlik tərk edib. Onların ən çox üz tutduqları ölkə Rusiyadır.

Hökumət miqrasiyanın qarşısını almaq üçün bəzi sosial proqramlar tətbiq etsə də, onların effekti olmadı. Çünki mənzil proqramlarından yararlanmaq üçün vətəndaşlıq şərti qoyuldu. Bu isə o deməkdir ki, Ermənistana yeni gəlmiş və hüquqi statusu qeyri-müəyyən olan şəxslər bu yardımlardan yararlana bilməzlər. Nəticədə narazılıq artır və cəmiyyətdə yeni sosial təbəqələşmə yaranır.

Digər tərəfdən, Qarabağdan gəlmiş ermənilərə qarşı Ermənistanda dərin kökləri olan sosial-psixoloji və mədəni ayrı-seçkilik meyilləri var. Yerli haylar bu köçkünləri heç vaxt özlərindən hesab etməyiblər. Onlara qarşı "albanlardan dönmə" kimi ifadələr işlədir və "yad" kimi baxırlar. İndi onlar "artıq yük" hesab olunur, cəmiyyətin müxtəlif təbəqələri tərəfindən təzyiqlərə məruz qalırlar.

Bu təzyiqlərin əsas səbəblərindən biri də Qarabağ ermənilərinin sosial təminatına yönəlik dövlət xərcləridir. Məsələn, "40+10" proqramı çərçivəsində 2024-cü ildə hər bir köçkünə ayda 40 min dram (103 dollar) kirayə haqqı, əlavə olaraq 10 min dram (25 dollar) kommunal xərclər üçün yardım ayrılıb. Lakin bu proqram 2025-ci ilin aprelindən etibarən yalnız həssas kateqoriyalara, uşaqlar, yaşlılar, əlilliyi olan şəxslər və ailə başçısını itirmiş ailələrə şamil olunur. Məbləğ 40 min dramadək azaldılıb. İyuldan məbləğ yenidən azaldılıb və eyni qruplara dəstək olaraq 30 min dram ödənilir. Bu ödəniş 2026-cı ilin yanvarın 1-dək davam edəcək.

Ötən 13 ayda Qarabağ ermənilərinə maddi yardımın həcmi 75 milyard 300 milyon dramdan çox olub. 2025-ci ildə təklif olunan proqramın icrası üçün isə dövlət büdcəsindən, təxminən 30,5 milyard dram xərclənəcək.

Bundan başqa, uzunmüddətli mənzil proqramı çərçivəsində Qarabağdan könüllü köçən ailələrin hər bir üzvünə 3–5 milyon dram (7.730 – 12.880 dollar) yardım verilir. Bu vəsaitdən şəxsi ev almaq, fərdi ev tikmək üçün və ya ipoteka kreditlərinin ödənilməsində istifadə olunur. Lakin bürokratik əngəllər və hüquqi qeyri-müəyyənlik proqramın real təsirini xeyli azaldır. Sənəd toplama və təsdiq prosesinin uzunması, müraciət mexanizmlərinin mürəkkəbliyi, eləcə də proqramın hüquqi əsaslarının kifayət qədər aydın olmaması vətəndaşlar arasında inamsızlıq yaradır və onların bu imkandan yararlanmaq istəyini azaldır. Üstəlik, Ermənistan vətəndaşlığı alanların sayı da azdır. Bu günədək Qarabağı könüllü tərk etmiş 16 mindən bir qədər çox erməniyə vətəndaşlıq verilib. Onlardan 11 min 259 nəfəri prezidentin fərmanı ilə Ermənistan Respublikasının vətəndaşlığını alıb, 5 mindən çox yetkinlik yaşına çatmayan şəxs isə valideynləri pasportlarını dəyişdirdikdə avtomatik olaraq vətəndaşlıq əldə edib. Rəqəmlərdən aydın olur ki, mənzil proqramından ancaq 11 min 259 ailə yararlana bilər. 2024-cü il dekabrın 8-dək cəmi 270 ailə mənzil sertifikatı alıb.

Yardımın məhdudluğundan narazı qalan Qarabağ ermənilərinin şikayətləri isə yerli əhali tərəfindən qıcıqla qarşılanır. İctimai rəy formalaşır ki, əgər Qarabağ erməniləri könüllü olaraq yaşayış yerlərini tərk etməsəydilər, bu qədər vəsait başqa sahələrə, məsələn, təhsil, səhiyyə və yeni iş yerlərinin yaradılmasına sərf edilərdi. Hətta onları İkinci Qarabağ müharibəsindəki məğlubiyyətə görə də ittiham edən siyasətçilər var. Bu cür bəyanatlar Qarabağ ermənilərinin Ermənistan cəmiyyətindəki yerini daha da zəiflədir.

*

Beləliklə, ittihamlar artıq Hayastanda sosial diskriminasiyanı da aşaraq irqçi və aqressiv davranışlara çevrilib. Qarabağ dialektində danışan şəxslərə qarşı küçələrdə, ictimai nəqliyyatda və restoranlarda kobud münasibət göstərilir. Mətbuatda yayılan faktlar arasında taksidən düşürülən qadınlar, restoranlardan qovulan müştərilər və digər təhqiredici hallar var. İşə qəbulda da ayrı-seçicilik özünü göstərir. Bu gün gəlmə ermənilərin dövlət və təhlükəsizlik orqanlarında işlə təmin olunması çox çətindir. Çünki Ermənistan hökuməti işə qəbulla bağlı müəyyən şərtlər qoyub. Qarabağdan olan ermənilər yalnız bu ölkə vətəndaşlığını aldıqdan sonra dövlət və təhlükəsizlik orqanlarında işlə təmin oluna bilərlər.

Göründüyü kimi, hər addımda ayrı-seçkilik ab-havası duyulur. Bu gərginliklər, qeyri-müəyyənliklər Qarabağ ermənilərinin Rusiya və Qərbə köçməsinə səbəb olur. Onların çoxu sonradan Ukraynaya ilə müharibəyə cəlb olunurlar. Müharibədə iştirak edənlərə və onların ailə üzvlərinə Rusiya Federasiyasının vətəndaşlığı sürətlə verilir. Məlumata görə, bu proses Ermənistandan çıxan Qarabağ erməniləri üçün həm iqtisadi, həm də sosial baxımdan daha cəlbedici görünür. Ermənistanda sosial təminat imkanlarının zəifliyi, Rusiyada həm yüksək əməkhaqqı, həm də vətəndaşlıq imtiyazlarının verilməsi onların seçimlərinə birbaşa təsir göstərir. Artıq yüzlərlə erməni bu yolla Rusiya ordusuna qoşularaq döyüşlərdə iştirak edir.

*

Hadisələrin bu fonunda separatçı rejimin qalıqları hələ də "status" və "təhlükəsiz qayıdış" illüziyası ilə yaşamaqda davam edirlər. Vaşinqton Bəyannaməsindən sonra Qarabağ erməniləri yenidən aktivləşdirilib və siyasi qurumlar, partiyalar, siyasətçilər onlara "dəstək verirlər". Müəyyən qüvvələrin dəstəyi ilə separatçı rejimin tör-töküntüləri müxtəlif mitinqlər keçirir, açıqlamalar verir, bəyanatlar səsləndirirlər. Baş verənlər sübut edir ki, hadisələr müəyyən dirijorlar tərəfindən idarə edilir. Məqsəd nəinki Paşinyana qarşı xalqı ayağa qaldırmaq və nifrət hissi yaratmaq, eyni zamanda iki ölkə arasında sülh müqaviləsinə balta vurmaqdır. "Artsax" keçmiş deyil və biz Qarabağ ermənilərinin qayıtmaq hüququnun bərpasını tələb etməliyik" kimi çağırışlar ara qarışdırmaqdan başqa bir şey deyil.

Əslində, ortada heç bir dəstəkdən söhbət gedə bilməz. Sadəcə, Qarabağ separatçıları əvvəl olduğu kimi, indi də bəzi qüvvələrin əlində məqsədə çatmaq üçün alətdir. Bu cəhdlər Ermənistan cəmiyyətində daxili siyasi proseslərin və hakimiyyət uğrunda mübarizənin tərkib hissəsi olmaqla yanaşı, regionda sabitliyi pozmağa yönəlmiş uğursuz təşəbbüslər kimi dəyərləndirilir.

Reallıq budur ki, Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir. Bu mövqe təkcə siyasi bəyanatlarla deyil, BMT-nin və digər nüfuzlu beynəlxalq təşkilatların qəbul etdiyi sənədlərlə də təsdiqlənib.

Bu barədə XQ-yə danışan siyasi təhlilçi Asif Nərimanlı bildirdi ki, Qarabağ erməniləri multikultural, bütün etnik azlıqların mədəni və dini hüquqlarına tam hörmətlə yanaşan Azərbaycanda ölkə vətəndaşlığımızı qəbul etmək və ölkəmizin qanunlarına riayət etməklə sivil qaydada yaşaya bilərlər: "Bütün tələb və təbliğatlar, sadəcə olaraq, siyasi mahiyyətlidir və müxtəlif qüvvələrin öz maraqları çərçivəsində qiymətləndirilə bilər. Erməni əhalisi isə geri qayıtmaq niyyətində deyil. Bu, onların seçimidir".

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Bakı Su Həftəsi dünyanı su aydınlığına çağırır

**Bu gün paytaxtımızda II Beynəlxalq Su Təsərrüfatı Sərgi və Konfransı – Bakı Su Həftəsi öz işinə başlayır. Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin dəstəyi ilə Bakı Ekspo Mərkəzində təşkil edilən toplantıda dövlət qurumlarının və beynəlxalq şirkətlərin nümayəndələri, eləcə də ekspert və peşəkar ziyarətçilər iştirak edirlər. Sərgi mərkəzində su təsərrüfatı sahəsində ən son texnologiyalar, innovativ mexanizmlər, müasir dünya təcrübəsi nümayiş olunur.**

Məlum olduğu kimi, hazırda dünyada su ehtiyatlarının azalması və iqlim dəyişmələrinin təsiri bəşəriyyətin qarşısında duran ən böyük çağırışlardan biridir. Azərbaycan şirin su ehtiyatlarının məhdud olduğu dövlətlər sırasında olduğu üçün ölkəmizdə də su təhlükəsizliyi prioritet istiqamətlərdəndir. Dövlət tərəfindən həyata keçirilən layihələr bu sahədə davamlı inkişafı təmin etməyi hədəfləyir. Son illər Prezident İlham Əliyev tərəfindən müəyyən olunmuş təxirəsalınmaz tədbirlər çərçivəsində ölkədə suvarma sistemlərinin yenilənməsi, yeni su anbarlarının tikintisi, irriqasiya sistemlərinin bərpası, duzsuzlaşdırma texnologiyalarının tətbiqi, o cümlədən Xəzər dənizinin suyunun duzsuzlaşdırılması üzrə pilot layihələr həyata keçirilir.

Sərgidə ölkənin su təchizatı sahəsində görülən işlər və nəzərdə tutulmuş genişmiqyaslı layihələr nümayiş olunacaq. Azərbaycan və region üçün strateji əhəmiyyət daşıyan, su təsərrüfatı sahəsində açıq dialoq və praktiki əməkdaşlıq imkanları yaradan Bakı Su Həftəsi bu il də yerli və xarici iştirakçılar üçün konkret fayda və real imkanlar təqdim etməyə hazırlaşır.

Bakı Su Həftəsi dövlət qurumları ilə yanaşı, özəl sektora və mütəxəssislərə müxtəlif ideyalar əsasında problemlərin həlli üçün innovativ üsullar tapmaq imkanı yaratmaqla yanaşı, yeni təşəbbüslər və faydalı işgüzar əlaqələrin qurulmasına, ölkəmizdə su ehtiyatlarının idarə olunmasında səmərəliliyin artırılmasına töhfələr verəcək.

Bakı Su Həftəsində Azərbaycanla yanaşı, Almaniya, ABŞ, Avstriya, Belarus, Böyük Britaniya, Çexiya, İsrail, İsveçrə, Hindistan, Macarıstan, Türkiyə, Serbiya, Səudiyyə Ərəbistanı və Sinqapuru təmsil edən 60-dan çox şirkət və nümayəndə heyətləri iştirak edəcək.

Sərgidə analiz və laboratoriya texnologiyaları, bank xidmətləri, borular və boru kəməri avadanlığı və məhsulları, bulud toxum səpmə texnologiyaları, daşqınlardan qorunma texnologiyaları və sahilbərkitmə işləri, drenaj üçün avadanlıqlar, elmi-tədqiqat institutları, hidrotexniki qurğular, içməli suların emalı, su təchizatı və kanalizasiya, su təchizatı və su təsərrüfatında inşaat və qazma texnikası və avadanlığı, ölçmə, tənzimləmə və nəzarət texnologiyaları, su təsərrüfatı obyektlərinin layihələndirilməsi və tikintisi, su təsərrüfatında informasiya və kommunikasiya texnologiyaları, süni intellekt, təhsil, elmi araşdırmalar, suvarma sistemləri; suyun duzsuzlaşdırılması texnologiyaları, tullantı və yağış sularının axıdılması və emalı sistemləri kimi məhsul və xidmətlər təqdim olunacaq.

Bakı Su Həftəsinin ilk gününün proqramına quraqlıq risklərinin idarə olunması, Xəzər dənizinin vəziyyəti və tullantı sularının dayanıqlı idarə edilməsi kimi əsas məsələlərə dair təqdimatlar və müzakirələr daxil edilib. Sentyabrın 11-də 10 ölkədən 40-dan çox məruzəçinin iştirakı ilə II Beynəlxalq su təsərrüfatı konfransı keçiriləcək. Burada su ehtiyatlarının idarə olunmasında liderlik, rəqəmsallaşma və transsərhəd əməkdaşlığı mövzuları müzakirə olunacaq. Toplantının sonuncu günündə isə qabaqcıl texnologiyaların tətbiqinə və ətraf mühitin qorunmasına dair 6-cı Xəzər su innovasiya forumu təşkil ediləcək.

Bakı Su Həftəsi günlərində sərgi mərkəzinin foyesində "Zabuxçay su anbarı" – Azad Qarabağın ilk su anbarı, eləcə də "Şiber" su çarxının maketləri nümayiş olunacaq. Bununla yanaşı, 1 nömrəli pavilyonda "Ümid var" İnklüziv Yaradıcılıq Birliyinin üzvlərinin "Baku Water Week 2025" fərqlilərin fırçasında adlı rəsm əsərləri sərgilənəcək.

Qeyd edək ki, tədbirin təşkilatçıları "Caspian Event Organisers" şirkəti, eləcə də onun beynəlxalq tərəfdaşları olan "Caspian Event Management" və "ICA Events" şirkətləridir. Azərbaycan Sərgi Təşkilatçıları Assosiasiyası da layihəyə dəstək göstərir. Bakı Su Həftəsinin rəsmi bankı qismində isə ölkənin aparıcı korporativ maliyyə institutu "PAŞA Bank" çıxış edir.

*Mirbağır YAQUBZADƏ*
*XQ*

# Süni intellekt seysmik tədqiqata qoşulub

## *Azərbaycan şirkəti ABŞ-da bu mövzuda təqdimat keçirib*

**Azərbaycanın ilk özəl enerji qurumu olan "GL Group" şirkəti süni intellektdən istifadə etməklə seysmik məlumatların emal texnologiyasını bölgənin quruda yerləşən neft-qaz yataqlarında tətbiq edib. Bu sahədə ilk sayılan layihənin nəticələri ABŞ-ın Hyuston şəhərində keçirilən Tətbiqi Geologiya və Enerji üzrə Beynəlxalq Toplantıda (IMAGE 2025) təqdim olunub.**




Xatırladaq ki, "IMAGE 2025" dünyada geologiya və mühəndislik sahəsində keçirilən ən böyük illik forumudur. Tədbir Kəşfiyyatçı Geofiziklər Cəmiyyəti, Amerika Neftçi Geoloqları Assosiasiyası və Çöküntü Geologiyası Cəmiyyəti tərəfindən təşkil olunur. Bu il konfrans 7 min 800-dən çox iştirakçını, 1100-dən artıq texniki təqdimatı, təxminən 260 sərgi iştirakçısını və 93 ölkədən nümayəndələri bir araya gətirib. Dünya üzrə bir çox şirkətlər arasından "GL Group"a süni intellektin neft-qaz yataqlarında seysmik məlumatların emalında tətbiqi sahəsində öz təcrübəsini təqdim etmək imkanı verilib.

"GL Group"un yataqların idarə edilməsi üzrə qrup direktoru Kənan Əliyev və şirkətin petrofiziki Leyla İsmayılova layihə barədə məlumat veriblər. Mütəxəssislər Salyan rayonunda "GL Group"un afilə şirkəti olan "Salyan Oil Limited" tərəfindən istismar olunan "Kürsəngi" və "Qarabağlı" yataqlarında aparılan işlərdə süni intellektin tətbiqi ilə əldə olunan yeni imkanları nümayiş etdiriblər. "GL Group"un "IMAGE 2025"-də iştirakı yataqların tədqiqi və istismarı sahəsində davam edən işlərin texniki poster sessiyasını da əhatə edib.

Təqdimat mərasimində şirkətin qrup direktoru Kənan Əliyev bildirib: "Seysmik proseslərə süni intellektin inteqrasiyası uzun müddətdir tam öyrənilmiş ehtimal olunan yataqlarda yeni potensial imkanları üzə çıxarmağımıza səbəb olub. Bu, artıq istismar olunan yataqların səmərəli idarə olunması istiqamətində mühüm addımdır".

Layihə seysmik tədqiqatda süni intellektin tətbiqinə ixtisaslaşmış "Waverity" şirkəti ilə əməkdaşlıq çərçivəsində həyata keçirilib. Qabaqcıl alqoritmlər mövcud məlumatların daha dəqiq şərhinə imkan yaradıb və ənənəvi üsullarla aşkar olunmayan, daha dərində yerləşən və qazılmamış zonaları müəyyən edib.

"Əldə olunan nəticələr qabaqcıl texnologiyaların və rəqəmsal həllərin fəaliyyətimizə inteqrasiyası üzrə strategiyamızı tam dəstəkləyir. Bu məqsədlə "GL Group" ən müasir texnologiyalardan yararlanır, innovativ yanaşmalar tətbiq edir, peşəkar mütəxəssisləri və ən təcrübəli ekspertləri öz komandasına cəlb edir", - deyə "GL Group"un baş icraçı direktoru və məşvərət şurasının sədri Asif Zeynalov bildirib.

Qeyd edək ki, "GL Group" Azərbaycanın Salyan rayonunda "Kürsəngi" və "Qarabağlı", Abşeron yarımadasında "Buzovna-Maştağa", "Qala" və "Zirə" də daxil olmaqla beş neft və qaz yatağında əməliyyatlar aparır. Şirkətlər qrupunun portfelinə "Salyan Oil Limited" və "Taghiyev Operating Company" əməliyyat şirkətləri, eləcə də neft-qaz sənayesində texniki xidmətlər göstərən "GL Technical Services" şirkəti daxildir. "GL Group" 2024-cü ildə ilk beynəlxalq layihəsinə imza ataraq Türkiyənin Trakya hövzəsində yüksək perspektivli qaz yatağında 100 faiz pay sahibi olan Kanadanın "Gazelle Energy Limited" şirkətinin 25 faiz payını satın alıb.

*XQ*

# Təmiz Enerji Mərkəzində müzakirə

**İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) Təmiz Enerji Mərkəzinin (CECECO) İdarə Heyətinin onlayn formatda ilk iclası keçirilib. Bununla da ötən ilin noyabrında COP29 çərçivəsində İƏT və BMT-nin Sənaye İnkişafı Təşkilatı (UNIDO) ilə birgə Azərbaycanda yaradılan Təmiz Enerji Mərkəzi (CECECO) rəsmi fəaliyyətə başlayıb.**




Energetika naziri Pərviz Şahbazov bildirib ki, Təmiz Enerji Mərkəzinin fəaliyyətə başlamasının vacibliyi İƏT-in 17-ci Zirvə Toplantısının yekun sənədi - Xankəndi Kommunikesində də vurğulanır: "Hazırda üç İƏT üzvü - Türkiyə, Qazaxıstan və Özbəkistan ilə "yaşıl enerji" dəhlizlərinin yaradılması üzrə əməkdaşlıq edirik. "Azərbaycan-Türkiyə-Avropa" və "Mərkəzi Asiya-Azərbaycan" "yaşıl enerji" dəhlizləri regional enerji əlaqələrinin və regional elektrik bazarının inkişafını hədəfləyən strateji təşəbbüslərdir. Bu layihələr İƏT regionunda enerji əməkdaşlığını möhkəmləndirəcək, regional enerji şəbəkələrini birləşdirəcək və emissiyaların azaldılmasına nail olmaq üçün vahid strateji platforma yaradacaq"

Bununla yanaşı, nazir vurğulayıb ki, ev sahibi ölkə olaraq Azərbaycan ədalətli enerji keçidi üzrə milli, regional və İƏT miqyaslı məqsədlərə töhfə verəcəyinə inanaraq Mərkəzi dəstəkləməyə sadiqdir.

İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) Baş katibi Əsəd Məcid Xan Təmiz Enerji Mərkəzinin ev sahibliyini üzərinə götürdüyü üçün Azərbaycana təşəkkürünü çatdırıb. İclasda Təşkilata üzv dövlətlər - Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkiyə, Pakistan və BMT-nin Sənaye İnkişafı Təşkilatı (UNIDO) təmsil olunub.

Qeyd edək ki, İdarə Heyətinin ikinci iclasının 2026-cı ilin birinci yarısında keçirilməsinə qərar verilib.

*XQ*

# Azərbaycanın yeni tranzit missiyası qlobal önəm daşıyır



**(əvvəli 1-ci səhifədə)**

Təxminən 10 min kilometr uzunluğunda olan marşrut iki dənizi – Xəzəri və Qara dənizi birləşdirərək yeni strateji nəqliyyat xəritəsi yaradır. Ənənəvi dəniz yolundan 30 faiz daha qısa olan xətt və onun regional logistika xəritəsində xüsusi mövqe qazandığını göstərib. Rəqəmlər bir daha sübut edir ki, xətt üzərindən hərəkət intensiv şəkildə artıb. Son beş ildə 237 qatar işə salınıb, daşınan konteynerlərin ümumi sayı isə 19 470 TEU-ya çatıb.

### Ekspert rəyi



**Akif NƏSİRLİ**
**İqtisadçı - ekspert**

**Yeni açılan Quancou–İstanbul yük qatarı marşrutu əslində həm Çin, həm də region ölkələri üçün strateji əhəmiyyətli hadisədir. Məsələyə Çinin iqtisadi və geosiyasi maraqları kontekstindən yanaşsaq, Quandon (Guangdong) və Quancou şəhəri Çinin ixracat potensialının ən güclü mərkəzlərindən biridir. Buradan Türkiyəyə birbaşa yük dəhlizinin açılması Çinin Avropa bazarlarına çıxış imkanlarını şaxələndirir.**

Pekin üçün Orta Dəhliz həm Rusiyadan asılılığı azaltmaq, həm də "Bir kəmər, bir yol" təşəbbüsündə marşrutların balanslaşdırılması baxımından əhəmiyyətlidir. Marşrut Azərbaycanı logistika qovşağına çevirən əsas faktorlardan biridir. Çin-Türkiyə qatarının Xəzər və Azərbaycan üzərindən keçməsi Bakı-Tbilisi-Qars dəmiryolunun, eləcə də Ələt limanının tranzit imkanlarını daha da artırır. Bu dəhliz Gürcüstan və Qazaxıstan üçün də əlavə iqtisadi dividendlər gətirəcək. Türkiyə Çini Yaxın Şərq, Aralıq dənizi və Avropa ilə birləşdirən strateji mərkəz kimi çıxış edir. İstanbulun seçilməsi təsadüfi deyil. Buradan həm Avropa İttifaqı bazarına, həm də Aralıq dənizi limanlarına daşımalar daha rahat təşkil olunur. İlk marşrutun uğurlu icrası Orta Dəhlizin rəqabət qabiliyyətini artırır. Çünki Şimal marşrutu (Rusiya üzərindən) sanksiyalar səbəbindən məhdudiyyətlərlə üzləşir, Cənub marşrutu isə (dənizlə Süveyş kanalı vasitəsilə) daha uzun və risklidir. Bu dəhliz həm Çinin, həm də region ölkələrinin "logistika alternativləri" portfelini zənginləşdirir və Mərkəzi Asiya-Qafqaz-Türkiyə xəttini daha cəlbedici edir. Statistik məlumatdan göründüyü kimi, son 5 ildə Trans-Xəzər xətti üzrə daşımaların davamlı artması region ölkələrinin bu istiqamətdə birgə koordinasiyasının nəticəsidir.

Eyni zamanda yeni marşrut Ələt limanını regionun əsas qovşaqlarından birinə çevirir. Burada anbar, logistika, gömrük xidməti və emal mərkəzlərinin inkişafı üçün tələbat yaranır. Bu isə həm xarici investorları, həm də yerli biznesləri cəlb edə bilər.

Nəticədə Quancou-İstanbul marşrutu Azərbaycanın tranzit gəlirlərini artırmaqla yanaşı, Ələt limanı və logistika sektorunun inkişafına güclü təkan verəcək. Bu, Azərbaycanın "logistika qovşağı"na çevrilməsi strategiyasını sürətləndirir və ölkəyə uzunmüddətli iqtisadi üstünlüklər qazandırır.




### Ekspert rəyi



**Eyyub KƏRİMLİ**
**İqtisadi və Sosial Araşdırmalara Yardım İctimai Birliyinin sədri**

**Quandon əyalətindən yüklərin bu gün Orta Dəhliz vasitəsilə Türkiyəyə çatdırılması Azərbaycanın bu dəhlizdə mərkəzi mövqeyini daha da möhkəmləndirir. Bu, xüsusən də Xəzər dənizi üzərindən yük daşımalarının artmasına, limanlarımızın dəmir yolu və avtomobil infrastrukturundan daha səmərəli istifadə olunmasına, nəticədə isə nəqliyyat sahələrinin imkanlarının genişlənməsinə səbəb olur.**

Bununla yanaşı, ölkəmiz həm şərqə, həm də Çinin cənub dəhlizinə çıxış baxımından vacib tranzit məkanına çevrilir. Çinin ən iri istehsal bölgələrindən biri olan Quandon əyalətindən yüklərin Azərbaycan üzərindən daşınması Bakı–Tbilisi–Qars dəmir yolu xəttinin strateji əhəmiyyətini bir daha artırır. Bu marşrut həm geniş istehlak bazarına, həm də Avropa ölkələrinin Çinə daha qısa və təhlükəsiz şəkildə birləşməsinə imkan yaradır. Nəticədə yüklərin vaxt baxımından daha sürətli, nəqliyyat tarifləri baxımından isə daha sərfəli daşınması təmin olunur.

Eyni zamanda Azərbaycanın strateji tərəfdaşlıqları daha da dərinləşir. "Bir kəmər, bir yol" təşəbbüsündə ölkəmiz xüsusi rol oynayır və bu marşrutun fəaliyyətə başlaması ilə yüklərin daşınmasının sürətlənməsi, həcminin artması ticarət dövriyyəsinin yüksəlməsinə, enerji və texnologiya sahələrində yeni əməkdaşlıq imkanlarının formalaşmasına şərait yaradır.

Nəticə olaraq demək olar ki, iki-üç qatarın belə Orta Dəhliz vasitəsilə hərəkət etməsi Azərbaycanın tranzit mərkəzi kimi mövqeyinin daha da gücləndiyini göstərir.

Cənub marşrutları ilə daşınan yüklərin 17 faizi məhz bu ekspres xəttin payına düşüb daşıma müddətini də təqribən iki həftə azaldır. Beləliklə, Orta Dəhliz üzərindən reallaşan bu layihə həm regional iqtisadi əməkdaşlığın, həm də qlobal logistikanın yeni mərhələsini formalaşdırır.

Yeri gəlmişkən, Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu üzərindən Çin–Avropa dəmiryol ekspres xəttinin fəaliyyətə başlamasından artıq beş il keçir. Bu müddətdə marşrut yalnız sabit fəaliyyət göstərməklə kifayətlənməyib, həm də bölgədə yeni logistik reallıq formalaşdırıb.

Beş il ərzində 51 müxtəlif istiqamət üzrə daşımalar həyata keçirilib və ümumilikdə 4 182 TEU konteyner göndərilib. Cənub marşrutları ilə daşınan yüklərin 17 faizi məhz bu ekspres xəttin payına düşüb

Daşımaların iqtisadi bölgüsü də diqqətçəkəndir. Mərkəzi Asiya üzrə yük dövriyyəsi 4,76 milyard yuan, Avropa istiqaməti üzrə 1,76 milyard yuan, Azərbaycan üzrə isə 2,02 milyard yuan – yəni təqribən 202 milyon manat təşkil edib. Bu faktlar bir daha göstərir ki, Bakı bu marşrutda strateji tranzit məntəqə rolunu oynayır.

Xətt üzrə əsasən, gündəlik istehlak malları, sənaye məhsulları, kimya sənayesi üçün xammal, iri avadanlıqlar və avtomobil hissələri daşınıb. Beləliklə, dəmir yolu xətti iqtisadiyyatların bir-birinə bağlanmasının canlı nümunəsinə çevirilib.

*Nurlan ABDALOV*
*XQ*

# Azərbaycan və Çin: yeni dövrün iqtisadi dialoqu

**Azərbaycan və Çin arasında qurulan iqtisadi dialoq sadəcə ikitərəfli ticarət və investisiya münasibətlərindən ibarət deyil. Bu, qlobal iqtisadiyyatın reallıqları və regionda dayanıqlı inkişaf perspektivləri ilə sıx bağlı olan yeni əməkdaşlıq modelidir. Prezident İlham Əliyevin Tiencin görüşündə verdiyi mesajlar göstərdi ki, Azərbaycan və Çin hər iki tərəf üçün strateji əhəmiyyət kəsb edir: Çin üçün Azərbaycan etibarlı tranzit və enerji tərəfdaşı, Azərbaycan üçün isə Çin güclü iqtisadi partnyor və texnologiya transferi mənbəyidir. Bu əməkdaşlıq həm də ölkəmizin bilik, innovasiya və logistika mərkəzli iqtisadi strategiyası ilə dəstəklənir.**



## Yeni qlobal iqtisadi reallıqlar və Azərbaycan

Son illər dünya iqtisadiyyatında davamlı artım müşahidə olunur. Beynəlxalq Valyuta Fondunun (BVF) 2025-ci ilin iyulunda açıqladığı “Qlobal İqtisadi İcmal”a görə, qlobal iqtisadi artım 2025-ci ildə 3 faiz, 2026-cı ildə isə 3,1 faiz olacaq. Lakin bu göstərici pandemiyadan əvvəlki orta səviyyədən (2017–2018: 3,7 faiz) aşağıdır və qlobal iqtisadiyyatın uzunmüddətli davamlılığını tam təmin etmir. Artımın keyfiyyəti və dayanıqlığı isə sual doğurur. BVF-in qiymətləndirməsinə görə, qlobal iqtisadi sabitlik əsasən fiskal stimullar, ticarət kompromisləri və müvəqqəti tədbirlər vasitəsilə qorunur. İqtisadi ədəbiyyatda bu proses “ön yüklənmə” (front-loading) adlandırılır və iqtisadiyyatın əsasən situativ qərarlar və qısamüddətli tədbirlər hesabına artdığını göstərir.

Regionlar üzrə iqtisadi vəziyyət də fərqlidir. Asiya regionunda iqtisadi artım sönməkdədir: BVF-ə görə, Asiyada 2024-cü ildə 5,3 faiz olan artım 2025-ci ildə 5,1 faizə, 2026-cı ildə isə 4,7 faizə enəcək. Avropa və ABŞ-da isə iqtisadi artım daha aşağıdır və 2025–2026-cı illərdə 2 faizdən az olacağı gözlənilir. Bu isə qlobal iqtisadi artımın daha çox regionlararası balanssızlıq və qısamüddətli stimullara bağlı olduğunu deməyə əsas verir.

Eyni zamanda Avropa İttifaqı uzun illər qlobal iqtisadiyyatda normativ güc kimi çıxış etsə də zəif iqtisadi artım, əhalinin yaşlanması, texnoloji geriləmə və “Yaşıl razılaşma”nın sənaye xərclərini artırması nəticəsində onun təsir imkanları məhdudlaşır. ABŞ və Çinlə müqayisədə Avropa innovasiya və rəqabət qabiliyyətində geridə qalır, sənaye istehsalı isə digər regionlara miqrasiya edir. Bu fonda Çin texnologiya, enerji və ticarət sahəsində artan gücü ilə qlobal iqtisadi balansda yeni liderlik mövqeyini möhkəmləndirir. Nəticədə Avropa daha çox adaptasiya edən aktora çevrilir və qlobal transformasiya şəraitində ciddi çağırışlarla üz-üzə qalır.

Beynəlxalq investisiya və ticarət axınları da qeyri-sabitdir. Məsələn, Asiyada texnologiya və istehsal sahələrində artım davam etsə də ticarət gərginlikləri və enerji qiymətlərində dəyişkənlik iqtisadiyyatın uzunmüddətli böyüməsi perspektivlərini məhdudlaşdırır. Nəticədə qlobal iqtisadiyyatda hazırkı artımın gələcəkdə qəfil daralma ilə əvəzlənməsi riski yüksəkdir.

Mövcud qlobal iqtisadi fonda Azərbaycan dayanıqlı və şaxələnmiş iqtisadi modelini uğurla formalaşdırır. Bir tərəfdən ölkəmiz “təmiz enerji” ixracatçısına çevrilir, regional və qlobal tranzit, logistika və innovasiya mərkəzi kimi mövqeyini gücləndirir. Bununla Orta Dəhliz və Şimal – Cənub marşrutları üzrə yükdaşımalar artır, tranzit müddətləri isə əhəmiyyətli qısalır. Eyni zamanda Ələt Beynəlxalq Dəniz Limanı Azərbaycanın Avrasiya nəqliyyat şəbəkəsində strateji mərkəzə çevrilməsinə töhfə verir. Beləliklə, zəngin enerji resursları və tranzit potensialı ölkəni qlobal enerji bazarında strateji oyunçuya çevirir, Asiya və Avropa bazarlarına enerji-logistika təminatını asanlaşdırır.

Digər tərəfdən, iqtisadiyyatda müşahidə olunan şaxələnmə ölkənin sosial-iqtisadi inkişaf strategiyasının mərkəzi elementinə çevrilir. Nəzəri baxımdan şaxələndirmə iqtisadi dayanıqlığın təmin olunması, resurslardan səmərəli istifadənin artırılması və qlobal bazarlarda dəyişkənlik risklərinin azaldılması üçün mühüm amil hesab olunur. Azərbaycan təcrübəsi göstərir ki, dövlətin məqsədyönlü siyasəti nəticəsində bu yanaşma praktiki addımlarla təsdiqlənməkdədir.

İlk olaraq, investisiya mühitinin yaxşılaşdırılması şaxələndirmə prosesinin əsas hərəkətverici qüvvəsidir. Bu, həm yerli, həm də xarici investorların iqtisadiyyata inamını artırır, qeyri-neft sektorunda istehsal güclərinin və ixrac potensialının artmasına səbəb olur. Bununla yanaşı, yeni texnologiyaların tətbiqinə dəstək istehsal səmərəliliyini yüksəltmiş, yüksək əlavə dəyərli məhsulların istehsalına şərait yaratmışdır. Bu isə yalnız daxili bazarın deyil, xarici bazarlarda da rəqabət qabiliyyətinin möhkəmlənməsinə xidmət edir.

İkinci mühüm istiqamət sahibkarlığın təşviqi ilə bağlıdır. Vergi güzəştləri, subsidiyalar, kredit dəstəyi və digər mexanizmlər biznes mühitini daha əlverişli hala gətirir, nəticədə özəl sektorun iqtisadiyyatda rolu əhəmiyyətli dərəcədə artır. Bu proses həm də məşğulluğun yüksəlməsinə, sosial rifahın genişlənməsinə və inklüziv inkişafın təmin edilməsinə mühüm təsir göstərmişdir.

Üçüncü aspekt ixrac potensialı ilə bağlıdır. Qeyri-neft sektorunda istehsalın və ixrac bazarlarının coğrafiyasının genişlənməsi Azərbaycanın qlobal iqtisadi sistemə daha dərin inteqrasiyasına imkan yaradır. Bu, ölkənin iqtisadi təhlükəsizliyini möhkəmləndirir və rəqabətqabiliyyətli məhsulların dünya bazarlarında mövqeyini gücləndirir.

Nəticə etibarilə 2021–2024-cü illərdə qeyri-neft sektorunda orta hesabla 6,7 faiz artım qeydə alınmışdır ki, bu da Azərbaycan iqtisadiyyatında şaxələndirmə və dayanıqlıq proseslərinin dərinləşdiyini təsdiqləyir. Bu göstərici həm də iqtisadi nəzəriyyədə təsdiqlənmiş “davamlı artımın əsas şərti diversifikasiya və institusional dayanıqlıqdır” tezisini Azərbaycan nümunəsi ilə praktik şəkildə əsaslandırır.

Beləliklə, qeyri-neft sektoru təkcə iqtisadi inkişafın struktur transformasiyası deyil, həm də qlobal qeyri-sabitlik şəraitində ölkənin iqtisadi dayanıqlığının təmin olunmasında strateji təməl rolunu oynayır. Bu model Azərbaycanı regionda sabit və etibarlı iqtisadi güc mərkəzi kimi mövqeləndirir, uzunmüddətli perspektivdə isə milli iqtisadiyyatın qlobal dəyər zəncirinə daha səmərəli inteqrasiyasına zəmin yaradır.

## Asiyanın Azərbaycan üçün önəmi

Ölkəmizin dayanıqlı və şaxələnmiş iqtisadi modelə keçidi, eləcə də qeyri-neft sektorunun inkişafı qlobal və regional iqtisadi əlaqələrdə yeni imkanlar yaradır. Bu, xüsusilə Çin və digər Asiya ölkələri ilə iqtisadi əlaqələrin strateji əhəmiyyətini artırır. Bütövlükdə Asiya regionu Azərbaycanın tranzit marşrutları və investisiya imkanları baxımından əsas tərəfdaşlarıdır və ölkəmizin qlobal iqtisadi təsirlərə müqavimətini gücləndirir. Qeyd edək ki, Asiya regionu dünya iqtisadiyyatında aparıcı rol oynasa da region daxilində ölkələrin təsir gücü, qlobal iqtisadi inteqrasiyası və institusional dayanıqlığı kəskin şəkildə fərqlənir. Bu mənada xüsusilə iki ölkə – Çin və Hindistan müqayisə üçün diqqətəlayiq nümunələrdir. Hər iki ölkələrin iqtisadiyyatı yüksək artım templərinə malik olsa da onların dünya iqtisadiyyatına təsir imkanları fərqlidir.

Çin qlobal dəyər zəncirlərinin lokomotivi hesab olunur. İxracın coğrafi şaxələnməsi, ABŞ–Çin tariflərinin azalması və daxili fiskal stimullar iqtisadiyyatın böyüməsinə mühüm töhfə verir. Çinin yüksəlişi “mərkəz–periferiya” (core-periphery) nəzəriyyəsi çərçivəsində şərh oluna bilər: Çin əvvəl periferiyada yerləşirdi (az inkişaf etmiş, resurs ixrac edən ölkə idi), lakin son 30 – 40 ildə sürətli sənayeləşmə, texnoloji inkişaf və qlobal ticarətdə artım sayəsində mərkəzə yaxınlaşır. Artıq o, dünya iqtisadi sistemində mərkəz (core) statusunu möhkəmləndirərək texnologiya, sənaye istehsalı və ixrac yönümlü sektorlarda dünya iqtisadiyyatının əsas mənbəyinə çevrilir. Bu proses daxili artımla yanaşı, qlobal tədarük zəncirinin sabitliyini də təmin edir.

Çinin iqtisadi modelini Yeni struktur iqtisadiyyat (New Structural Economics) konsepsiyası da aydın izah edir. Dövlətin iqtisadiyyatda fəal rolu, infrastruktur-investisiya siyasəti və strateji sənaye dəstəyi uzunmüddətli artımın bazasını formalaşdırır. Bu siyasət Çini qlobal “artım mühərrikinə” çevirib. Çin yalnız Asiya ölkələri ilə deyil, həmçinin Afrika və Qlobal Cənubdakı digər dövlətlərlə də aparıcı iqtisadi əməkdaş kimi çıxış edir. 2024-cü ildə Çin – Afrika ticarət dövriyyəsi rekord səviyyəyə – təqribən, 295,6 milyard ABŞ dollarına çataraq, özünün həmin regiondakı iqtisadi mövqeyini daha da möhkəmləndirmişdir.

Digər Asiya ölkəsi olan Hindistan iqtisadiyyatı artım nümayiş etdirsə də zəif inteqrasiya ilə səciyyələnir. BVF-ə görə Hindistanda iqtisadi artım 2025 və 2026-cı illər üçün 6,4 faiz səviyyəsində olacaq. Lakin bu artım daha çox daxili istehlak hesabına formalaşır (təxminən 60 – 64 faiz), ixrac və investisiya komponentlərinin payı aşağıdır. Səbəb odur ki, Hindistan hələ də struktur zəifliklərlə üz-üzədir: infrastruktur çatışmazlığı, institusional islahatların ləngiməsi və istehsal sektorunun rəqabət qabiliyyətinin aşağı olması əsas faktorlardan hesab olunur. Buna görə də Hindistanda iqtisadiyyatın hətta sürətlə artması belə onun dünya iqtisadiyyatında təsir gücünü artırmır.

Bu vəziyyət “asılı inkişaf” nəzəriyyəsi ilə izah oluna bilər. Hindistanda iqtisadi artım əsasən daxili tələbat əsasında formalaşır, lakin qlobal dəyər zəncirinə zəif inteqrasiya səbəbindən ölkə “periferiya” mövqeyində qalır. Bu, həm də region ölkələrinin Hindistanla iqtisadi əməkdaşlığa marağının nisbətən aşağı olmasına gətirib çıxarır. Məsələn, Çin–ASEAN qarşılıqlı ticarət münasibətləri kəskin artır, ticarət dövriyyəsi təxminən 1 trilyon ABŞ dolları səviyyəsinə çatmışdır. Hindistan və ASEAN ölkələri arasında mal ticarətinin həcmi isə təqribən 123 milyard ABŞ dolları olmuşdur. Bu fərq göstərir ki, Hindistanın regional ticarətdə rolu ASEAN üçün hələ nisbətən azdır və Hindistanın ASEAN iqtisadiyyatı üzərində ticarət təsiri hələ ki, məhdud olaraq qalır.

Hər iki ölkə nümunəsi onu deməyə əsas verir ki, Azərbaycanın iqtisadi strategiyası baxımından Asiya ölkələrinin fərqli rolu xüsusi vurğulanmalıdır. Çin Azərbaycanın həm ticarət, həm də “Orta Dəhliz” (Middle Corridor) layihəsi çərçivəsində əsas tərəfdaşlarından biridir. Bu dəhliz Azərbaycanı Çin ilə Avropa arasında strateji tranzit mərkəzinə çevirir. Çin iqtisadiyyatının böyüməsi Azərbaycanın nəqliyyat-logistika xidmətlərinə tələbi artırır və region üçün yeni iqtisadi imkanlar yaradır.

Hindistanla isə Azərbaycanın iqtisadi əlaqələri məhdud xarakter daşıyır. Bunun səbəbi yalnız coğrafi məsafə deyil, həm də Hindistan iqtisadiyyatının daxili struktur xüsusiyyətləri ilə bağlıdır. Hərçənd ki, Hindistanda son illər iqtisadi artım sürətlənir, lakin yüksək yoxsulluq səviyyəsi, məhdud infrastruktur və dayanıqsız sahələrdən (əsasən xidmət sektoru və aşağı dəyərli istehsal) asılılıq onun xarici iqtisadi əlaqələrini zəiflədir. Bu amillər Hindistanı Azərbaycanın malik olduğu dayanıqlı, şaxələnmiş və yüksək infrastruktur potensialına əsaslanan iqtisadiyyatla səmərəli ticarət-iqtisadi əməkdaşlıq qurmaq imkanlarından məhrum edir. Hindistan Azərbaycan üçün potensial bazar olaraq qalır.

Nəzəri müstəvidə bu vəziyyət “mərkəz – periferiya” (core – periphery) modeli ilə izah oluna bilər. Azərbaycanın regional miqyasda formalaşdırdığı dayanıqlı, şaxələnmiş və yüksək infrastruktur potensialına malik iqtisadiyyat “core” statusunun göstəricisidir. Hindistan isə daxili sosial-iqtisadi problemləri və institusional qeyri-sabitliyi səbəbindən hələ də “semi – periphery” mövqeyindədir. Beləliklə, asimmetrik iqtisadi struktur iki ölkə arasında əməkdaşlığın dərinləşməsinə mane olur: Azərbaycanın yüksək infrastruktur və sabitliyə əsaslanan iqtisadi modeli ilə Hindistanın zəif institusional dayaqlar üzərində qurulmuş inkişaf trayektoriyası uyğun gəlmir.

Nəticə olaraq Çin və Hindistan təcrübəsi sübut edir ki, iqtisadi artımın sürəti təkbaşına qlobal güc statusu üçün yetərli deyil. Qlobal təsir imkanlarını müəyyən edən əsas amillər institusional dayanıqlıq, infrastruktur səviyyəsi və dəyər zəncirinə dərin inteqrasiyadır. Bu kontekstdə Çin strateji tərəfdaşlıq üçün daha əlverişli mövqeyə malikdir.

## Çinin iqtisadi təkamülü

Son onilliklərdə Çin dünya iqtisadi sistemində “sadə istehsal bazası” statusundan çıxaraq keyfiyyət və innovasiya yönümlü inkişaf modelinə keçid etmişdir. Statistik göstəricilərə görə, Çin dünya iqtisadiyyatının artımına təxminən 30 faizdən çox töhfə verərək qlobal iqtisadi dinamikanın mühüm lokomotivi olmuşdur. Sənaye istehsalının həcmi üzrə lider mövqedə olan ölkə dünya istehsalının 1/3-ni təmin edir. Çinin sosial-iqtisadi inkişafında orta sinfin artımı xüsusi əhəmiyyət daşıyır. Belə ki, “World Data Lab”ın hesablamalarına görə, hazırda ölkədə 900 milyon nəfərlik orta sinif mövcuddur və bu rəqəmin 2030-cu ilə qədər 1,2 milyarda çatacağı gözlənilir. Bu dinamika daxili tələbat bazarının sürətlə genişlənəcəyini göstərir.

Çin həm də texnologiya və innovasiya sahəsindəki nailiyyətləri ilə diqqət çəkir. Son 20 ildə ölkə iqtisadi inkişafını daha çox sənaye istehsalı və texnologiya ixracı üzərində quraraq “qlobal istehsal mərkəzi” rolunu gücləndirib. Hazırda AR-GE xərclərinin ÜDM-də payı 2,7 faiz, qiymətləndirmələrə görə yüksək texnologiyalı malların ixracında payı isə 30 faizi ötür. Çin günəş panelləri, külək turbinləri və elektrik avtomobillərinin ən böyük istehsalçısına çevrilmiş, qlobal elektrikli avtomobil satışlarının 60-66 faizi məhz Çində reallaşmışdır. Elmi-tədqiqat və inkişaf (R&D) xərclərinə görə Çin ABŞ-dan sonra ikinci yerdədir və süni intellekt, biotexnologiya, kvant texnologiyaları kimi sahələrdə sürətli tərəqqi nümayiş etdirir.

Bununla yanaşı, Çin dünya ticarətinin aparıcı mərkəzlərindəndir. 2024-cü ildə onun ixracı təxminən 3,58 trilyon dollar, idxalı isə 2,59 trilyon dollar olub. Beləliklə, Çin həm ən böyük malların ixracatçısı, həm də dünya üzrə ikinci ən böyük idxalçı statusunu qoruyub. Ölkə RCEP (Regional Hərtərəfli İqtisadi Tərəfdaşlıq) və “Bir Kəmər, Bir Yol” təşəbbüsləri vasitəsilə Asiya, Afrika və Avropada geniş iqtisadi əlaqələr qurmuş, bu isə yuanı altıncı ən çox istifadə olunan valyuta etmişdir.

İnfrastruktur və sosial inkişaf göstəriciləri də diqqətəlayiqdir. Ölkə əhalisinin 67 faizi şəhərlərdə yaşayır, bu isə daxili xidmətlər sektorunun genişlənməsinə şərait yaradır. Nəqliyyat sahəsində Çin 48 min kilometrdən çox uzunluğa malik sürətli dəmiryolu şəbəkəsi ilə dünya lideridir. Rəqəmsal iqtisadiyyatın inkişaf tempi də sürətlidir və növbəti illərdə onun cəmi iqtisadiyyatda payının davamlı artacağı gözlənilir.

Bütün bu göstəricilər təsdiq edir ki, Çin qlobal iqtisadiyyatın sadəcə “istehsal bazası” olmaqdan çıxaraq innovasiya, texnologiya və yaşıl inkişaf mərkəzinə çevrilməkdədir. Daxili bazarın genişlənməsi, beynəlxalq iqtisadi təşəbbüslərdə fəal iştirakı və texnoloji nailiyyətləri onun qlobal iqtisadi artımda aparıcı mövqeyini daha da gücləndirir.

## Azərbaycan–Çin iqtisadi körpüsü

Azərbaycan və Çin arasında iqtisadi əlaqələr son illərdə sabit inkişaf və strateji dərinləşmə fonunda yüksələn xətlə inkişaf edir. 2024-cü ilin yekunlarına görə, ticarət dövriyyəsi təxminən 3,74 milyard ABŞ dolları təşkil etmiş və Çin Azərbaycanın xarici ticarət tərəfdaşları arasında dördüncü yerdə qərarlaşmışdır. Bu dinamika klassik “müqayisəli üstünlüklər nəzəriyyəsi” ilə izah oluna bilər: Azərbaycan təbii resurslarda, Çin isə istehsal gücü və texnologiyada nisbi üstünlüyə malikdir.

Azərbaycanın Çinə ixracı əsasən enerji və kimya məhsullarından ibarət olsa da, idxal maşın-mexanika, elektronika və nəqliyyat vasitələri ilə xarakterizə edilir. Bu qarşılıqlı asılılıq “həcm və struktur ticarət nəzəriyyəsi” baxımından tərəflərin fərqli ixtisaslaşmasını və bir-birini tamamlayan iqtisadi əlaqəsini təsdiqləyir. Ticarət balansının mənfi olması qısamüddətli disbalans kimi görünsə də Çinin Azərbaycana yatırdığı sərmayələr bu boşluğu kompensasiya edir. Belə ki, 1995–ci ildən bəri Çindən Azərbaycana yönələn sərmayələrin həcmi təxminən 931 milyon ABŞ dolları olmuşdur. Bu investisiyalar əsasən neft-kimya və bərpaolunan enerji sahələrinə yönəlmişdir. Xarici birbaşa investisiya formatında reallaşan bu kapital axınları yalnız istehsal potensialını artırmır, həm də tədiyə balansında cari hesab kəsirini qismən tarazlaşdırmaq imkanına malikdir.

Əlaqələrin digər strateji istiqaməti nəqliyyat və logistika sahəsidir. Çindən Azərbaycana daşınan yüklərin həcmi son ildə 86 faiz artaraq 378 min tona çatmışdır. Bu artım Azərbaycanın tranzit potensialının və beynəlxalq ticarətdə əlaqələndirici rolunun möhkəmləndiyini göstərir. Burada Qlobal Dəyər Zənciri Nəzəriyyəsi əsas analitik çərçivə kimi çıxış edir: Azərbaycan beynəlxalq ticarətin mühüm halqası olaraq Şərq – Qərb istiqamətində malların hərəkətində kritik körpü rolunu oynayır.

İnfrastruktur sahəsində əməkdaşlıq isə yalnız tranzit imkanlarının artması ilə məhdudlaşmır. Bu əməkdaşlıq həm də “yaşıl enerji”, innovasiya və texnologiya transferi üçün institusional bünövrə yaradır ki, bu da “dayanıqlı inkişaf modeli”nin regional kontekstdə tətbiqi kimi qiymətləndirilə bilər. Azərbaycanın bərpaolunan enerji potensialı ilə Çinin texnologiya və maliyyə imkanlarının sintezi gələcəkdə yeni enerji marşrutlarının və “yaşıl körpü”lərin formalaşmasına zəmin yaradır.

Nəticə etibarilə Azərbaycan–Çin əməkdaşlığı ticarət artımı, sərmayələr və infrastruktur inkişafı ilə bir-birini tamamlayaraq uzunmüddətli strateji sinerji yaradır. Bu əlaqələr “iqtisadi şaxələnmə” və “strateji tərəfdaşlıq nəzəriyyələri” fonunda təhlil edildikdə aydın olur ki, Azərbaycanın resurs potensialı, Çinin texnoloji üstünlükləri və regional infrastruktur imkanlarının birləşməsi ölkənin iqtisadi mövqeyini həm regional, həm də qlobal müstəvidə gücləndirir.

## Çinlə əməkdaşlığın perspektivləri

Çin son illərdə qlobal texnoloji liderliyini möhkəmləndirərək süni intellekt, elektrikli nəqliyyat, kvant hesablama, dron texnologiyaları və batareya istehsalı kimi sahələrdə üstün mövqeyə yüksəlmişdir. Avstraliyanın Strateji Siyasət İnstitutunun “Critical Technology Tracker” hesabatına görə, Çin 44 strateji texnologiyadan 37-də lider mövqedədir. Dünya Əqli Mülkiyyət Təşkilatının 2024-cü il hesabatında isə Çin dünya üzrə ən çox elmi-texnoloji klasterə sahib ölkə kimi təqdim olunur. Şençjen – Honkong – Qvanjou, Pekin və Şanxa – Suçjou bölgələri bu baxımdan xüsusi önəm daşıyır. Bundan əlavə, Çin dünya üzrə ən çox patent müraciəti edən ölkədir ki, bu da “Huawei” və digər texnologiya nəhənglərinin qlobal rəqabət gücünü nümayiş etdirir.

Azərbaycan öz növbəsində rəqəmsal iqtisadiyyatı milli inkişaf strategiyasının prioriteti kimi müəyyən etmişdir. Startap ekosistemlərinin dəstəklənməsi, innovasiya mərkəzlərinin qurulması və texnologiya transferi vasitəsilə iqtisadiyyatın şaxələndirilməsi, dayanıqlılığın artırılması və qlobal rəqabət gücünün möhkəmləndirilməsi istiqamətində siyasət yürüdülür. Çinlə əməkdaşlıq bu prosesin əsas hərəkətverici qüvvələrindən biridir: Azərbaycan üçün rəqəmsal suverenliyin möhkəmlənməsi və şaxələndirmə siyasətinin gücləndirilməsi, Çin üçün isə Avrasiya bazarında yeni texnologiyaların tətbiqi və məhsul-modellərin uyğunlaşdırılması imkanı yaranır.

Eyni zamanda Azərbaycan və Çin arasında möhkəmlənən iqtisadi əməkdaşlıq Prezident İlham Əliyevin strateji baxışının tərkib hissəsi kimi qlobal iqtisadi idarəetmədə yeni modelin formalaşmasına xidmət edir. Çin kapitalı, texnologiyası və bazar şəbəkələrinin Azərbaycanın iqtisadi sisteminə inteqrasiyası ölkənin uzunmüddətli inkişaf trayektoriyasını dəyişdirərək onu regionda və qlobal miqyasda daha təsirli oyunçuya çevirir.

Prezident İlham Əliyevin strateji yanaşması əməkdaşlığın bir neçə istiqamətdə prioritetləşdirilməsini şərtləndirir. İlk olaraq, kapital axınlarının şaxələnməsi kənd təsərrüfatı, logistika, turizm və yüksək texnologiyalar üçün yeni maliyyə resurslarının yaranmasına imkan verir. Bu, iqtisadiyyatın elmi-texniki bazasının möhkəmlənməsinə və maliyyə dayanıqlığının artmasına xidmət edir. İkinci istiqamət rəqabətli dəyər zəncirinə qoşulmadır. Azərbaycanın tranzit potensialı yalnız daşınma ilə məhdudlaşmamalı, istehsal və emal mərkəzinə çevrilməklə yeni şəbəkə sisteminin formalaşmasına imkan yaratmalıdır. Çin şirkətlərinin regionda tətbiq etdiyi istehsal modelləri Azərbaycanda məşğulluğun, ixrac gəlirlərinin və texnoloji bilik transferinin artmasına şərait yaradır.

Üçüncü istiqamət maliyyə inteqrasiyasıdır. Çinlə əməkdaşlıq Asiya İnfrastruktur İnvestisiya Bankı və İpək Yolu Fondu kimi qurumlarla tərəfdaşlığı gücləndirərək iri infrastruktur layihələrinin maliyyələşməsini asanlaşdırır. Bununla yanaşı, Çin yuanının beynəlxalq ticarətdə artan rolu gələcəkdə Azərbaycanın valyuta səbətinin şaxələndirilməsinə və maliyyə risklərinin daha effektiv idarə olunmasına şərait yaradır.

Dördüncü istiqamət texnoloji tərəqqi və innovasiyadır. Çin süni intellekt, 5G və “yaşıl enerji” texnologiyalarında lider mövqeyə sahib olaraq Azərbaycanın innovasiya yönümlü iqtisadi modelə keçidini sürətləndirir. Bu əməkdaşlıq ölkəni yalnız tranzit qovşağı deyil, həm də regionda “texnoloji meydan”a çevirə bilər.

Nəhayət, rəqabət üstünlüyünün gücləndirilməsi xüsusi əhəmiyyət daşıyır. Gürcüstan və Qazaxıstan daha çox tranzit funksiyasına fokuslandığı halda, Azərbaycan enerji, logistika və istehsal sintezini təqdim etməklə özünəməxsus mövqeyini möhkəmləndirir. Beynəlxalq proqnozlara görə, 2030-cu ilə qədər Çinin qlobal iqtisadi artıma töhfəsi əhəmiyyətli dərəcədə artacaq və qlobal dinamikanın formalaşmasında həlledici rol oynayacaq. Azərbaycanın bu böyümə dalğasına vaxtında qoşulması ölkəyə yeni bazarlara çıxış imkanı yaradacaq, milli iqtisadi model isə çevik, innovativ və rəqabətədavamlı əsasda inkişaf edəcək.

Nəticə etibarilə Çinlə strateji əməkdaşlıq Azərbaycan iqtisadiyyatının modernləşməsinin əsas lokomotivlərindən biri olmaqla yanaşı, ölkənin yeni qlobal iqtisadi reallıqlara adaptasiyasını da sürətləndirir. Geoiqtisadi rəqabətin, texnoloji transformasiyanın və “yaşıl keçid”in müəyyənedici rol oynadığı hazırkı şəraitdə bu əməkdaşlıq Azərbaycanı yalnız regional tranzit mərkəzi deyil, həm də qlobal iqtisadi sistemdə innovasiya yönümlü, rəqabətədavamlı dayanıqlı ölkə kimi mövqeləndirir.

*__Şaiq ADIGÖZƏLOV,__*
*__iqtisad üzrə fəlsəfə doktoru__*

# Qırmızı imperiya 105 il əvvəl Azərbaycanı necə işğal edib?

## *Bolşevizm azadlıq və qardaşlıq adı altında 71 il xalqımızı əsarətdə saxlayıb*



**(əvvəli qəzetimizin ötən sayında)**

Aprelin 28-də Çərxi–Xaçmaz, 29-da Qızıl Burun, 30-da Giləzi, mayın 1-də Pirdəhnə–Sumqayıt bolşevik diviziyası tərəfindən nəzarət altına alınmalı idi. 28-ci nişançı diviziya Bakını tutduqdan sonra 20-ci diviziyanın hissələri Kürdəxanı–Saray–Xırdalan xətti üzrə mövqe tutaraq ordunun ehtiyatını təşkil etməli idi.

Diviziyanın süvari briqadası Abşeron yarımadasında mövcud ola biləcək silahlı dəstələrin zərərsizləşdirilməsi ilə məşğul olmalı idi. Yalama stansiyasından Bakıya qədər su və dəmir yolu xətlərinin mühafizəsi də müvafiq olaraq 20-ci diviziyaya tapşırılmışdı.

Zirehli qatarlar qrupunun komandiri Yefremov əmrə əsasən aprelin 27-də qətiyyətli şəkildə hücuma keçərək ən qısa zamanda Bakı rayonuna soxulmalı, Azərbaycan hökumətinin hər hansı bir müqavimət göstərmək cəhdinin qarşısını almaqla neft mədənlərinin mühafizəsini təmin etməli idi. Şəhər tutulduqdan sonra zirehli qatarlar sahilə yön almalı və Cümhuriyyət ordusunun hərbi gəmilərinə qarşı mövqe tutmalı idi.

Əmrin sonuncu bəndlərindən biri hücumun məqsədinin və əhəmiyyətinin ordunun şəxsi heyəti arasında izah edilməsi ilə bağlı idi.

Lakin Qırmızı ordu komandanlığı qarşıya qoyulan tapşırığa nail olmaq üçün qəti əminliyə malik deyildi və ona görə də şəxsi heyəti bu hücuma bütünlüklə səfərbər etməyə çalışırdı. Hücum ərəfəsində belə təbliğat aparılırdı ki, guya Azərbaycan Xalq Cümhuriyyəti hökuməti Bakı ətrafındakı neft mədənlərini yandırıb məhv etməyə çalışır. Rusiya üçün son dərəcə lazımlı olan Bakı neftini isə yalnız qırmızı ordunun sürətli hücumu ilə xilas etmək lazımdır.

Əldə edilmiş məlumatlara görə, Qırmızı ordunun döyüşçüləri heç də hamılıqla və böyük inqilabi ruhla Azərbaycan üzərinə hücumda iştirak etmək istəmirdilər. Bu müdaxilənin iştirakçılarından bəzilərinin şəhadətinə görə, onlar hücumdan hələ 4 ay əvvəl orduya cəlb edilib əsgəri təlimlərə qatılmış və sonra da ayrı-ayrı hissələrə bölüşdürülmüşdülər. XI ordunun tərkibində olan yaşlı əsgərlər 3 dəfə silahlarını ataraq hücumda iştirak etməkdən imtina etmişdilər. Ona görə də bolşevik emissarları XI ordunun şəxsi heyəti arasında izahat və təbliğat işlərini artırmaqla belə halların qarşısını almağa çalışırdılar.

Hücum əmrinin imzalanmasından yürüş başlanana qədər cəmi 2 gün keçmişdi. Bu müddətdə hissə və birləşmələr son hazırlıq işləri aparmalı və ehtiyatlarını təkmilləşdirməli idilər. Bakıdan XI ordunun qərargahına gəlmiş kommunistlər də bu hazırlıq işlərinə qatılmışdılar. Onlar hücuma keçəcək hissə və birləşmələrə təhkim edilmişdilər. Azərbaycanın sərhəddini ilk keçməli olan zirehli qatarlarda müdaxilənin ilhamçılarından olan A.Mikoyan, habelə Q.Musabəyov və H.Cəbiyev hərəkət etməli idilər.

Aprel ayının 26-da XI ordunun yenidən qruplaşdırılması tamamilə başa çatdı. Elə həmin gün də hücum əmri bütün şəxsi heyətə elan edildi. Hücumda 4 zirehli qatar iştirak etməli idi – "III Иnternasional", "Qırmızı Dağıstan", "Timofey Ulyansev", "Qırmızı Həştərxan". Azərbaycanın dövlət sərhədini ilkin olaraq bu qatarlar keçməli idi.

Hücum əmrinə əsasən bu zirehli qrupa 28-ci atıcı diviziyanın iki bölüyü də verilmişdi. Bu isə zirehli qatarlar qrupunun döyüş imkanını nəzərə çarpacaq dərəcədə artırmışdı. Verilmiş piyada qüvvələri lazım gəldikdə zirehli qatarların hücum və ya müdafiə sahəsini artıra bilərdi.

Bakının və bütünlükdə şimal bölgələrinin yaxşı müdafiə olunmadığı XI ordu komandanlığına da, A.Mikoyan və onun məsləkdaşlarına da yaxşı məlum idi. Qəfil və sürətli zərbə ilə Bakının tutulması əməliyyatı ilə təşəbbüsün ələ alınması isə AXD-nin bütün orqanlarının iflic vəziyyətə düşməsi demək idi. Bundan əlavə, Bakı–Yalama dəmir yolu boyunca hərəkət edən Cümhuriyyət ordusu zirehli qatarının zərərsizləşdirilməsi üçün qırmızı ordunun komandirləri ehtiyat tədbirləri görmüşdülər.

A.Mikoyan Bakıya qalib kimi daxil olmaq üçün sərhədi keçəcək ilk zirehli qatarda hərəkət etməli idi. Başlanacaq hücumda özünün fəal iştirakını qabartmaq üçün bu hiyləgər erməni də aprelin 26-da zirehli qatarlar qrupunun rəhbəri Yefremovla birlikdə Samur körpüsünün və orada dayanan Cümhuriyyət qüvvələrinin kəşfiyyatına yollandı. Bir neçə saat ərzində onlar Samur çayı üzərindəki körpünün ətrafını gəzib, Azərbaycan tərəfinə keçib, bazarlıq edib, keşikdə dayanan əsgərlərlə söhbət edib müşahidələr apardılar. Yefremov və ətrafındakılar apardıqları müşahidələrlə onlara lazım olan məlumatları toplaya bildilər.

Həmin gün axşama yaxın Bakı–Yalama dəmir yolu xətti boyunca hərəkət edən Cümhuriyyət ordusu zirehli qatarı da Samur körpüsünə yaxınlaşdı. Yefremov, Mikoyan və onların ətrafındakılar zirehli qatara yaxınlaşıb onun komandiri Cümhuriyyət ordusunun zabiti knyaz Lordkipanidze ilə söhbət etməyə cəhd göstərdilər.

Yefremov öz xatirələrində bu hadisəni belə xatırlayırdı: "Söhbətə bizim keşikçilərin və qoşunların davranışı barədə suallarla başlayıb, danışığı jandarm-knyaza bizə xidmətə keçmək təklifi ilə bitirdik. Təsvir etmək mümkün deyil ki, Kipanidze hansı təkəbbür və qəzəblə Mikoyana cavab verdi. Kipanidze və onun ətrafındakı zabitlər qırmızı ordu və sovet hakimiyyəti ünvanına ağlasığmaz söyüşlər yağdırdılar".

Bu görüşdə iştirak edən H.Cəbiyev isə həmin hadisəni belə xatırlayırdı: "Bu alçaq təslim olmaq haqda bizim təklifimizə istehza ilə cavab verdi: "Narahat olmayın, mən tezliklə körpünün o tayına keçəcəyəm ki, sovet torpağı adlanan yerdə müvəffəqiyyətlə addımlayım və sizin qırmızı ordunun qalıqlarının axırına çıxım" .

Aprelin 26-da axşam saat 7-də artıq sərhədi ilk keçəcək III İnternasional zirehli qatarı Azərbaycan torpaqlarına qarşı təcavüzə başlamağa hazır idi. Digər zirehli qatarlar da tam hücum hazırlığı vəziyyətinə gətirilərək hərəkət işarəsi gözləyirdilər. Əməliyyatın gecə ikən başlanması nəzərdə tutulmuşdu. Ümid edilirdi ki, bununla Cümhuriyyət qüvvələri çaş-baş salınar və hökumətin fəaliyyət nizamlılığı itər. Ona görə də zirehli qatarlar qrupunun komandiri Yefremovun "irəli" komandisi veriləndə, gecə yarısından 3 dəqiqə keçmişdi. Həmin vaxt Azərbaycan Xalq Cümhuriyyətinə qarşı planlaşdırılan təcavüzün başlanma vaxtı idi.

III İnternasionalın gecə yarısı qəflətən Samur körpüsünü keçməsi, doğrudan da Cümhuriyyətin buradakı az saylı gözətçi qüvvələri üçün gözlənilməz oldu. Onlar




müqavimət göstərməyə başlasalar da güman edirdilər ki, rusların zirehli qatarındakılar sərxoşdurlar və onlar nə etdiklərinin fərqinə varmadan sərhəd zolağını keçiblər. Bununla belə keşikçi dəstələri mümkün olan müqaviməti göstərməyə çalışdılar. Vəziyyət o yerə çatdı ki, hətta Rusiya zirehli qatarlarına verilmiş piyada bölmələri dəmir yolu ətrafında mövqe tutaraq keşikçilərin müqavimətini neytrallaşdırmağa çalışdılar.

Bu vaxt Yefremov Cümhuriyyət mühafizə dəstəsinin zabitlərini səsləyib onları atəşi dayandırmağa çağırdı və bildirdi ki, guya sərhədi keçməkdə məqsəd birgə oturub yeyib-içmək və əylənməkdir. Yefremov bununla vaxtı uzatmağa çalışdı və digər zirehli qatarlar yetişəndən sonra o, yenidən irəli hərəkət etmək əmri verdi. Elə burada da qırmızı əsgərlər ilk ciddi çətinliklə üzləşdilər.

Yefremovun yazdığına görə, sərhəd keşikçiləri onların məqsədini anlayanda yenidən müqavimət göstərməyə başladılar. Yaxın məsafədən aparılan atışmanı süngü davası və əlbəyaxa döyüşlər əvəz etdi. Ancaq sözsüz ki, qüvvələr nisbəti bərabər deyildi və zirehli qatarların arxasınca daha böyük sovet qüvvələri hərəkət edirdilər.

Tarixi məlumatlardan ayıdn olur ki, sərhəd xəttində yerləşdirilmiş azsaylı Cümhuriyyət bölmələri qırmızı ordu qüvvələrinə, əsasən aprelin 27-nə keçən gecə müqavimət göstərə bildilər. Dəmir yolu stansiyalarında yerləşdirilmiş müdafiə qüvvələri sürətlə hücum edən XI ordunun qarşısını kəsməyə çalışsalar da əslində onların ciddi müqavimət imkanı yox idi.

Zirehli qatarların ardınca sərhədi keçən 7-ci süvari diviziyasının qüvvələri elə bir müqavimətə rast gəlmədən Qusar və Qubanı tezliklə ələ keçirdilər. Sonra isə bu diviziyanın dəstələri Şamaxı və Kürdəmirə doğru istiqamət götürdülər. Zirehli qatarlar isə dəmir yolu xətti ilə irəlilədikcə onun yanlardan mühafizəsi üçün təyin edilmiş süvari və piyada bölmələri də yaxınlıqdakı təpəliklər və yamaclarla hərəkət edirdilər.

Aprel ayının 27-də XI ordunun Azərbaycan sərhədini keçməsi xəbəri Bakıya da çatdı. Belə bir vaxtda burada yaradılmış Azərbaycan İnqilab Komitəsi hakimiyyətin ələ keçirilməsinə qanuni don geyindirilməsi üçün gündüz saat 11-də AXC parlamentinə ultimatum təqdim etdi. XI ordunun Azərbaycan sərhədlərini keçməsindən 12 saat sonra təqdim olunmuş bu ultimatumda hakimiyyətin Azərbaycan İnqilab Komitəsinə verilməsi tələb olundu.

XI ordunun qüvvələri isə sürətlə Bakıya doğru irəliləməkdə idi. Axşam zirehli qatarlar Xırdalan yaxınlığına yetişdilər. Aprelin 27-də axşam zirehli qatarlar artıq Biləcərini və Azərbaycanın dəmir yolunun əsas qovşağını nəzarət altına almışdılar. Zirehli qatarlar Biləcəridə iki qrupa bölündülər. Onlardan ikisi Bakının mərkəzinə doğru, ikisi isə şəhərin qərbinə, Puta tərəfə irəliləyib Gəncədən gələ biləcək Cümhuriyyət ordusu zirehli qatarlarının qarşısını kəsməli idi.

Aprel ayının 28-nə keçən gecə saat 4-də III İnternasional zirehli qatarı Bakıya daxil oldu. Bu xəbər Leninin sonsuz sevincinə səbəb oldu. Aprel ayının 29-da fəhlələr qarşısında etdiyi çıxışında o bildirirdi ki,



Rusiyanın vəziyyəti artıq yaxşılaşmağa başlamışdır. Onun dediklərinə görə, çıxılmaz vəziyyətdə qalmış Rusiya sənayesi bundan sonra Bakı nefti ala biləcək.

"Timofey Ulyantsev" zirehli qatarı isə aprelin 28-də Yevlaxa qədər irəliləyə bildi. Zirehli qatarlar və 28-ci atıcı diviziyadan onlara verilmiş desant dəstələri mayın 1-də Gəncəyə çatdı. Mayın 5-də isə "Timofey Ulyantsev" zirehli qatarı Gürcüstan sərhəddindəki Poylu körpüsünə yetişdi.

Aprel ayının 28-də XI ordu komandanı növbəti 53 nömrəli əmrini imzaladı. Bu əmrlə əvvəlki 52 nömrəli əmrdə verilmiş döyüş tapşırıqları daha da dəqiqləşdirildi və nəzərdə tutulan məntəqələrin ələ keçirilməsi üçün yeni müddətlər təyin edildi. Əmrə əsasən 32-ci diviziyanın komandirindən tələb olunurdu ki, qatarlar vasitəsilə piyada bölmələri və hissələri təcili şəkildə Bakıya çatdırılsın. Onlar 28-ci diviziyanın qüvvələri gəlib çatana qədər Bibi-Heybəti, Ağ şəhəri və Suraxanını tutsunlar.

32-ci diviziyanın yükləri və topları isə quru yolla göndərilməli idi. 28-ci diviziya gəlib çıxandan sonra isə bu diviziya öz qüvvələrini Bibi-Heybətdə cəmləşdirməli idi. 28-ci diviziya hücumunu davam etdirərək aprelin 28-də Xaçmaz stansiyasını, 29-da Padarı, mayın 1-də Xıdırzindəni, mayın 2-də Yaşmanı, mayın 3-də Sumqayıtı, 4-də Bakını tutub Ağ şəhər və Suraxanıda 32-ci diviziya hissələrini əvəz etməli idi.

20-ci diviziya 52 nömrəli əmri icra etməklə aprelin 28-də Xudatda, 29-da Xaçmazda, 30-da Padarda, mayın 1-də Takayda, 2-də Xıdırzindədə, 3-də Yaşmada, 4-də Novxanı–Saray–Biləcəridə olmalı idi. Süvari korpusu isə aprelin 28-də Dəvəçini, mayın 1-də Astraxankanı, 2-də Şamaxı və Ağsunu nəzarətə götürməli idi. Korpusun Bakıya gəlməsi nəzərdə tutulan dəstəsi artıq mayın 1-də şəhərdə olmalı idi.

Aprel ayının 28-də 28-ci atıcı diviziyanın 244-cü alayı piyada qüvvəsi kimi ilkin olaraq Bakıya daxil oldu. Sonrakı 2 gün ərzində isə 2-ci süvari korpusunun, 28-ci və 32-ci atıcı diviziyasının qüvvələri Bakıya soxularaq neft mədənlərini nəzarət altına aldılar. Aprel ayının 30-da XI qırmızı ordunun qərargahı da Bakıya köçdü. Qərargahla bərabər G.Orconikidze, S.Kirov, M.Levandovski və başqaları da Bakıya gəldilər.

7-ci süvari diviziyasının qüvvələri aprelin 29-da Astraxankanı ələ keçirdilər. Aprelin 30-da bu diviziyanın hissələri Şamaxı–Ağsu və Kürdəmirə istiqamət götürdülər. Bu məntəqələrdə güclü bir müqavimətə rast gəlməyən süvarilər Bakıdan Gəncə və Tiflisə gedən şosse yolunu da nəzarət altına ala bildilər. Sonra diviziyanın dəstələri Yevlaxa qədər irəlilədi. Diviziyanın qarşısına qoyulan tapşırığa əsasən süvari dəstələri Zaqatalanı və Alazan çayı boyunca Gürcüstana sərhəd olan mövqeləri ələ keçirdilər. Bu diviziyanın ardınca hərəkət edən 18-ci süvari diviziyası Nuxa rayonunu və Zaqatalanın müəyyən ərazilərini nəzarət altına aldı.

32-ci diviziyanın Yevlaxa göndərilmiş hissə və bölmələri isə Taman süvari briqadası ilə birlikdə Qarabağ istiqamətinə hərəkət etdilər.

May ayının 1-də XI ordunun tabeliyinə verilmiş Volqa–Xəzər donanmasının gəmiləri də Bakıya gəlib çıxdı. Bu gəmilərin bir neçəsi bolşevik inqilabının "qələbə"sinə yardımçı olmaq üçün cənuba doğru göndərildi. May ayının 3-də hərbi gəmilər Lənkərana desant çıxardılar. Mayın 4-də isə İran sərhəddində olan Astara ələ keçirildi.

Beləliklə, qısa müddətdə XI ordunun hissə və birləşmələri Azərbaycanın bütün ərazilərinə yayıldı və köhnə hakimiyyət orqanlarının yenisi ilə əvəzlədi. Azərbaycanda siyasi hakimiyyət, bütünlüklə, bolşeviklərin əlinə keçdi və ölkə əsarətin yeni mərhələsinə qədəm qoydu.

Azərbaycanda bolşevizm ideologiyasına əks ola biləcək hər şey məhv edildi və ilk vaxtlar üçün qanlı hərbi rejim yaradıldı. Bunu elə o zamanlara aid olan rəsmi sənədlərdə də görmək mümkündür.

Respublika arxivlərində sovet Azərbaycanın Hərbi və Dəniz İşləri üzrə Komissarlığının 1920-ci ilə aid olan hesabat sənədində ilk yarımbaşlıq belə adlanırdı: çevriliş və formalaşma. Bu ifadəni 1920-ci ilin aprelində bolşevik hərbi müdaxiləsindən sonra Azərbaycanda baş verənlərin rəsmi təsdiqi kimi də qəbul etmək mümkündür. Bu hesabt sənədinin ilk cüm¬ləsi isə belə idi: "Müsavat hökumətinin (AXC–M.S.) devrilməsindən sonra...".

Yəni sovet orqanları da etiraf edirdilər ki, bolşevik təcavüzünün əsas məqsədi legitim AXC hökumətinin devrilməsi imiş. Həmin sənədin bir başlığı da XI ordu komandanlığı ilə Azərbaycan Sovet Sosialist Respublikası arasındakı münasibətlərə həsr edilmişdi. Bu bölmədə qeyd edilirdi ki, Azərbaycan ərazisində həm XI ordunun İnqilab Şurasının olması, həm də Azərbaycanın Hərbi və Dəniz İşləri üzrə Komissarlığının olması, guya, Rusiya ilə Azərbaycanın maraqlarının toqquşmasına səbəb olur.

Bildirilirdi ki, bu toqquşma adları çəkilən hərbi strukturların əvvəlki kimi fəaliyyət göstərməsini qeyri-mümkün edirdi. Bu da ona gətirib çıxardı ki, Azərbaycanın hərbi strukturları XI ordunun komandanlığına tabe edildi. XI ordunun V. Pankratov tərəfindən rəhbərlik edilən Xüsusi şöbəsi isə bolşevizmə qarşı baş qaldıra biləcək bütün milli qüvvələrin məhv edilməsinin səlahiyyətlərini öz üzərinə götürdü.

Azərbaycan xalqının iradəsi olmadan dövlət sərhəddinə təcavüz etmək, mövcud hakimiyyəti zorla devirmək əslində xalqa dövlət cinayəti idi. XI ordunun Azərbaycan sərhədini keçməsi beynəlxalq normaların, dövlətlərarası münasibətlərin cinayətkarcasına pozulması idi. Lakin XI ordu Azərbaycana qarşı həyata keçirilən hərbi təcavüzün icraçısı kimi təkcə beynəlxalq cinayətin subyekti və kommunizm ideyalarının təntənəsinin dayağı deyildi. Bu ordu işğalçı siyasətin subyekti olmaqla həm də özü cinayətkar bir elementə çevrilmişdi.

Vaxt ötdükcə bu ordunun komandir və əsgərləri proletar beynəlmiləlçiliyinin, dünya inqilabi proseslərinin daşıyıcısından daha çox qanunsuzluğun, cinayətkarlığın, quldurluğun, özbaşınalığın ifadəçisi kimi tanınırdılar. Qırmızı ordu döyüşçülərinin çox böyük hissəsi özlərini Azərbaycan ərazisində qalib kimi aparırdılar, heç nə ilə hesablaşmırdılar, xalqın var-yoxunu talan edirdilər və respublikanın ərazisində xaosa və özbaşınalığa yol açırdılar.

Azərbaycanın xalq kütlələrinin bolşevizmin nə demək olduğu və onun xalqa nə verə biləcəyi barədə kifayət qədər təcrübəsi var idi. 1918-ci ildə bir neçə ay müddətində bolşevik-daşnak cütlüyünün istər Bakıda, istərsə də ətraf rayonlarda törətdiyi dəhşətlər bu qüvvənin Azərbaycan xalqına qarşı bəslədiyi münasibətin ifadəsi idi.

1920-ci ilin aprel çevrilişindən sonra Azərbaycanda hakimiyyətə yiyələnən qüvvələr daha çox ifrat bolşevizmlə-daşnaklığın çarpazlaşmış təzahürü idi. Hakimiyyətin bu və ya digər qollarında təmsil olunmuş azərbaycanlılar da vaxt ötdükcə bu çarpazlaşmanın əsirinə, sonra da qurbanına çevrilirdi.

Qırmızı ordunun hələ Azərbaycana çatmamış, Qafqazdan keçdiyi bütün ərazilər viranəliyə çevrilir, təcavüzə məruz qalırdı. Belə cinayətkarlıqların qurbanına çevrilənlərin çoxu isə çıxış yolunu bolşevizmə qarşı mübarizədə görür və denikinçi qüvvələrə qoşulurdular. Qırmızı ordu Azərbaycana müdaxilə etməzdən əvvəl Könüllü ordu sıralarına qoşulmuş olan müsəlmanlar çağırışla Qafqazda yaşayan bütün müsəlmanlara müraciət etdilər və onları bolşevizmə qarşı mübarizəyə səslədilər.

Həmin çağırışda deyilirdi: "Bizim dindaşlarımız, müsəlmanlar!

Sizlərdən hansınız bolşevik çevrilişindən sonra rusiyalıların məruz qaldığı təhqirlər və iztirablarla üzbəüz gəlməmişsiniz? Sizlərdən hansınız bolşeviklərin təqibinə məruz qalmamışsınız? Bu xuliqanların nümayəndələri tərəfindən kimin əmlakı dağıdılmayıb? Elə bir aul göstərə bilərsinizmi ki, orada heç olmasa bir neçə müsəlman qadını təcavüzə məruz qalmamış, məscid və din təhqir edilməmiş olsun? Bolşevik-kommunistlərin müsəlmanlara belə münasibətini gördükdən sonra hər bir adam başa düşə bilər ki, onlar nəyə çalışırlar. Bunu başa düşəndən sonra silah gəzdirməyi bacaran hər bir adam silahlanmalı və dərhal ordu sıralarına qoşulmalıdır".

Bu mənzərə eyni ilə Azərbaycanda da təkrar olunurdu. Uzun müddət Azərbaycanın müxtəlif bölgələrində üsyanların davam etməsi, xalq kütlələrinin, din xadimlərinin silaha sarılıb hökumətə qarşı cəbhə tutması bolşeviklərin özbaşınalıqlarına və cinayətkar əməllərinə olan etirazın ifadəsi idi. Bolşevik işğalından dərhal sonra Azərbaycanın bütün bölgələrində bu işğala qarşı xalq üsyanları qalxdı. Bu üsyanların daha kütləviləri isə Gəncə, Bərdə–Tərtər, Cəbrayıl–Şuşa, Lənkəran, Şəki–Zaqatala, Göyçay, Qəbələ– Ağdaş bölgələrində baş verdi. Həmin üsyanlar da qırmızı ordu qüvvələri cəlb edilməklə susduruldu və bu zaman çox kütləvi xalq qırğınları törədildi.

Bolşevizmin Azərbaycana gətirilməsində iştirak edən Azərbaycan inqilabçıları isə çox tezliklə xalq qarşısında tarixi səhvə yol verdiklərini başa düşdülər. Bu insanlar etiraz səsini qaldırmaq istəyəndə isə hamılıqla bolşevik terroruna məruz qaldılar. Bolşeviklərin yazdıqları saxta tarixdə göstərildiyi kimi, guya Azərbaycanda "dinc" sosialist inqilabı baş verdi və xalq hakimiyyəti quruculuğu təmin edildi.

***Mehman SÜLEYMANOV,***
***Milli Müdafiə Universiteti***
***Hərbi Elmi Tədqiqat İnstitutunun***
***professoru, tarix elmləri doktoru***

*Demoqrafik durum*

# Qoşa qarıyın, amma ayrılanda...

## *Nikah müqaviləsi nədir və niyə bağlanır?*

**Son zamanlar boşanmaların sayının artması ilə tərəflər arasında mülk, aliment iddiası, uzun sürən məhkəmə çəkişmələri çoxalıb. Azərbaycan Respublikasının Ailə Məcəlləsində nikaha daxil olmaq istəyənlərə nikah müqaviləsinin bağlanılması tövsiyə edilsə də, çoxları bundan xəbərsizdir. Bilənlərin də əksəriyyəti müqavilə imzalamaqdan çəkinir.**

Bu, ailə quran tərəflər arasında əmlak münasibətlərini tənzimləyir, boşanma zamanı narazılıqları minimuma endirir. Statistika göstərir ki, məhkəmələrdə baxılan mülki mübahisələrin böyük qismi ailə münaqişəsi nəticəsində yaranır və əmlak xarakterlidir. Belə olan təqdirdə boşanmadan sonra əmlak bölgüsü və aliment tutulması ilə əlaqədar tərəflər az qala düşmənə çevrilirlər.

Qərb ölkələrində boşanma zamanı belə problemlər baş vermir. Vəkillər Kollegiyasının üzvü, vəkil Şahin Dadaşov XQ-yə açıqlamasında bildirdi ki, buna səbəb həmin ölkələrin təcrübəsində tərəflərin nikahdan öncə nikah müqaviləsi bağlamasıdır:

- Azərbaycanın Ailə Məcəlləsində də nikaha daxil olanlara bu müqavilənin bağlanması tövsiyə edilir. Ancaq təcrübədə bu müqavilənin imzalamasına nadir hallarda rast gəlinir. Səbəb isə mental dəyərlərdir. Belə ki, tərəflərin evlənməzdən öncə müqavilə tələb etməsi xırdaçılıq, bədniyyətlilik və utancverici hal sayılır. Əslində belə müqavilənin, razılaşmanın olmaması tərəflər arasında əmlak



mübahisəsi zamanı ciddi problemlər doğurur.

Əksəriyyət belə düşünür ki, bu müqavilənin imzalanması nikahın daimi olacağına şübhə yaradır. Bu yanlış mövqedən çıxış edənlər nikah müqaviləsinin mahiyyətinə varmır, buna görə də onun üstünlükləri barədə məlumatsız olurlar. Əslində nikah müqaviləsinin daxil olan şəxslər arasında bağlanan, nikah dövründə və ya nikah pozulduqda ər-arvadın əmlak hüquqlarını və vəzifələrini müəyyən edən sazişdir. Müqavilə yazılı formada bağlanır və notarial qaydada təsdiq olunur. Ər-arvad əmlakla bağlı öz aralarında şifahi razılığa gəlsələr belə, nikaha xitam verilən zaman həmin razılaşmaya əsaslanaraq əmlak iddiası irəli sürə bilməz. Nikah müqaviləsində tərəflərin bir-birini qarşılıqlı saxlaması, gəlirlərində və ailə xərclərində iştirak qaydası ilə bağlı öhdəlikləri, ər-arvadın əmlakının hüquqi rejimi müəyyənləşdirilir. Bu müqavilə həm də ər-arvadın mövcud olan və gələcəkdə əldə edəcəkləri əmlaka dair bağlana bilər.

Bununla belə, əgər tərəflər arasında nikah müqaviləsi bağlanıbsa, ər-arvadın nikah dövründə əldə etdikləri mülkiyyət onların birgə mülkiyyətidir və bərabər payda bölünür. Müqavilədə onların nikah müddətində əldə etdikləri mülkiyyətin bölünməsinin fərqli qaydası da müəyyən oluna bilər.

bağlanması tərəfləri belə mübahisələrdən sığortalayır və onların gələcək sosial təminatının qarantı kimi çıxış edir.

Hüquqşünas sonra bildirdi ki, nikah müqaviləsi əmlakın kimin mülkiyyətinə verilməsini, ondan istifadə qaydalarını müəyyənləşdirməyə imkan verir və bu da gələcəkdə yarana biləcək hər hansı mübahisələrin qarşısını ala bilər. Nikah müqaviləsi nikaha

Müsahibimiz söylədi ki, nikah müqaviləsi tərəflərin hüquq və fəaliyyətini, onların məhkəməyə müraciət etmək hüququnu məhdudlaşdırmır. Müqavilə bağlandıqdan sonra heç bir tərəf onun icrasından boyun qaçıra bilməz. Lakin nikah müqaviləsi tərəflərin razılığı ilə istənilən dövrdə dəyişdirilə, yaxud ləğv edilə bilər və bu razılıq yazılı formada olmalıdır. Nikah müqaviləsinə xitam verildiyi halda, ər-arvadın müqavilədə nəzərdə tutulan hüquq və vəzifələrinə də xitam verilir.

Azərbaycanda nikaha girənlər arasında nikah müqaviləsi bağlayan cütlüklərin sayının çox az olduğunu deyən hüquqşünas qeyd etdi ki, rəsmi məlumatlara görə, bu göstərici qeydə alınan nikahların 1 faizini də təşkil



etmir. Lakin əvvəlki dövrə nisbətən nikah müqavilələrinin sayı artıb. Bir qism ekspert nikah müqaviləsinin bağlanmasının məcburiliyi ilə bağlı qanunvericiliyə dəyişiklik olunmasını təklif edir. Müqavilənin məcburiləşdirilməsi isə müqavilə azadlığı prinsipinə ziddir. Müqavilə tərəflərin razılığı ilə məcburiyyət olmadan, tərəflər heç bir təsir altında qalmadan bağlanmalıdır.

Ümumilikdə statistik məlumatlara nəzər salsaq nikah müqavilələrində artım müşahidə olunur. Ancaq vəziyyət o qədər də qənaətbəxş deyil. Dövlət Statistika Komitəsinin hesabatına əsasən 2023-cü ildə 63 min 859 nikah qeydə alınsa da onlardan yalnız 129-da, ötən il bağlanmış 35 min 348 nikahdan, 151-də 2025-ci ilin ilk 3 ayında isə 10 min 334 nikahdan yalnız 28-də nikah müqaviləsi imzalanıb.

Bütün bunlar göstərir ki, cəmiyyətdə nikah müqaviləsinin mahiyyətinin, üstünlüklərinin düzgün başa düşülməsi üçün təbliğat aparılmalı, VVAQ şöbələri nikah üçün müraciət edənlərə bu müqavilənin üstünlüklərini izah etməlidir. Cəmiyyət bu sənədin əsl mahiyyətini dərk etməyincə, müqavilənin bağlanması reallaşmayacaq.

***Elenora HƏSƏNOVA***
***XQ***

# Saxta diplomların üzünə qapılar bağlıdır

## *Seçim düzgün edilməsə, illərin zəhməti hədər gedər*

**Xaricdə təhsil almaq bir çox gənc üçün yeni imkanların açarı, geniş üfüqlərin mayakıdır. Bəzən bu yol arzularına çatmaq, bəzən də sadəcə "diplomlu" görünmək üçün seçilir. Amma hər kəsin gözündən yayınan, çox vaxt da ən acı şəkildə öyrənilən reallıq var: diplomun təsdiqi ən az tədrisin özü qədər önəmlidir.**

İllərini təhsilə sərf edən, böyük vəsait xərcləyən tələbələrin "tanınmır" möhürü ilə rastlaşanda yaşadığı sarsıntını təsəvvür etmək çətin deyil. O an diplom dəyərli sənəd yox, adi kağız parçasına çevrilir, tələbənin illərlə qurduğu xəyallar isə puç olur. Bu səbəbdən xaricdə təhsil seçimi yalnız universitetin adı və ya şəhərin cazibəsi ilə ölçülməməlidir. Əks halda, gözləntilər və reallıq arasındakı uçurum gəncləri məyusluq, peşmanlıq və mənasız fədakarlıqların girdabına sürükləyə bilər.

**Ankaranın OSTİM Texniki Universitetində təhsil alan Kənan İsmayılov deyir ki, diplomum təsdiq olunmayanda elə hiss etmişdim ki, sanki bütün arzularım külə dönüb, havaya sovrulur. Bu hisslərdən doğan emosiyalarla da onu yandırmışdım:**

- 3 il bakalavr təhsili almışam. Özəl universitet idi, turizm menecment bölümündə oxuyurdum. Oxuduğum illərdə dərslərimə ciddi yanaşır, öhdəmə düşənləri məsuliyyətlə yerinə yetirirdim. Heç bir fəndən geridə qalmamış, bütün proqramı normal şə-

müşahidə olunur. Səbəb özəl, lisenziyasız və yalnız kommersiya məqsədli ali məktəblərin fəaliyyətidir.

Tibb, stomatologiya, hüquq və pedaqoji ixtisaslarda diplom tanınması daha çətindir, çünki praktik təcrübə, klinik baza və müəllim heyəti standartlara cavab verməlidir. Distant və onlayn təhsil, eləcə də qeyri-əməli ixtisaslarda diplomlar əksər hallarda tanınmır. Bundan əlavə, beynəlxalq reytinqlərə diqqət yetirmək faydalıdır. "Times higher education" və ya Şanxay reytinqlərində universitetin mövcudluğu onun nüfuzunun göstəricisidir. Doğrudur, bu siyahılarda olmamaq diplomun tanınmaması demək deyil, lakin tanınma ehtimalını azalda bilər. Nəticə etibarilə xaricdə təhsil üçün sistemli araşdırmaya əsaslanan seçimlər ön planda olmalıdır.

**Diplomun tanınmaması həm əmək müqavilələri, həm sosial təminatlar, həm də məsuliyyət baxımından müəyyən məhdudiyyətlər yaradır. Mövzu ilə bağlı daha dolğun və dəqiq məlumat almaq üçün hüquqşünas Amid Əsgərovun da**



kildə tamamlamışdım. Lakin Azərbaycana qayıdanda dedilər ki, bu diplom tanınmayacaq, çünki təhsil aldığım universitet özəl statusludur. O an içimdə böyük məyusluq yaşadım. Üç il boyunca verdiyim zəhmət, çəkdiyim maddi və mənəvi əziyyət dəyərdən düşdü. İllərim hədər oldu. Həmin universiteti və ixtisası seçərkən mənə xaricdə təhsil xidməti göstərən şirkətlərdən biri yardım etmişdi. Amma anladım ki, gələcəyi başqalarının seçiminə həvalə etmək çox ağır nəticələr doğura bilər. Sonralar mən boş dayanmadım. Kurslara qatıldım, sertifikat qazandım və bu gün həmin sertifikatla işləyirəm. Amma içimdə yanmış diplomun ağrısı, həmin illərin boşluğu qalıb. Ən pisi də odur ki, mən dərslərimdə zəif olmamışdım, heç bir problemim yox idi. Sadəcə seçdiyim yol səhv idi.

Universitetə müraciət edəndə mənə dedilər ki, Azərbaycanda bu diplom tanınmasa da istənilən Avropa ölkəsində təsdiqlənəcək. Amma nəticə dəyişmir. Bu hadisə mənim üçün dərs oldu ki, xaricdə təhsil seçimi zamanı emosiyalara, şirin vədlərə aldanmaq olmaz, eynən mənim kimi...

**Kənanın başına gələnlər xaricdə təhsil alıb diplomu tanınmayan tələbələrin üzləşdikləri ümumi problemləri ortaya qoyur. Bu problemi anlamaq və həll yollarını araşdırmaq üçün mövzu ilə bağlı ekspertə müraciət etdik. Təhsil eksperti Rizvan Fikrətoğlu məsələnin strateji tərəflərini şərh edərək diplomların tanınması risklərini minimuma endirməyin yollarından danışdı:**

- Xaricdə təhsil alan tələbələrin əsas problemlərindən biri diplomların Azərbaycanda tanınmamasıdır. Ratifikasiya prosesi olmadan diplomlar hüquqi qüvvəyə malik deyil və tanınma həm ölkədən, həm də universitetin və ixtisasın statusundan asılıdır. Bu proses Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyindəki Təhsildə Keyfiyyət Təminatı Agentliyi (TKTA) tərəfindən həyata keçirilir. Tanınma problemləri əsasən Rusiya, Ukrayna, Gürcüstan, Qazaxıstan, bəzi Mərkəzi Asiya ölkələri, bəzi Şərqi Avropa və Asiya universitetlərində

**fikirlərini öyrəndik:**

- Proses Azərbaycan Respublikasının Konstitusiyası, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr, "Təhsil haqqında" Qanun, xüsusilə "Xarici dövlətlərin ali təhsilə aid kvalifikasiyalarının tanınması Qaydaları", "Bakalavriat (əsas (baza ali) tibb təhsili) təhsilinin məzmunu və təşkili Qaydaları", Prezidentin fərman və sərəncamları, Nazirlər Kabinetinin qərarları və digər normativ-hüquqi aktların tələbləri nəzərə alınmaqla həyata keçirilir.

Şikayətçinin xarici ali təhsilə dair kvalifikasiyasının tanınmasından imtina edilməsi haqqında qərardan 30 (otuz) gün müddətində inzibati və ya məhkəmə qaydasında şikayət verilə bilər. Sənədlərin lazımi qayda da təsdiq olunmaması, müvafiq arayışın, tanınmaya görə xidmət haqqının ödənilməsini təsdiqləyən sənədin əlavə edilməməsi və s. hallarda həmin səbəb aradan qaldırılmaqla məsələ həllini tapa bilər. Lakin digər hallarda məsələnin alternativ həll yolu nəzərdə tutulmamışdır. İlk növbədə tanınmadan imtina qərarına diqqət yetirmək lazımdır.

Təhsil müəssisəsi xarici ölkədə fəaliyyət göstərdiyi üçün fəaliyyəti həmin ölkənin qanunvericiliyi ilə tənzimlənir. Əgər təhsil müəssisəsi təhsil alana yanlış məlumat verər və ya hər hansı formada saxtakarlıq edərsə və bunun nəticəsində təhsil alana ziyan dəyərsə o zaman təhsil alan şəxs məhkəməyə müraciət edə bilər.

Təhsildə Keyfiyyət Təminatı Agentliyinin məlumatına görə, bu ilin iyul ayı üzrə 694 müraciətçinin 587-si barədə müsbət qərar verilərək onlara müvafiq şəhadətnamələr təqdim edilib, 107 nəfərin müraciəti isə mənfi qərarla yekunlaşıb.

Xaricdə təhsil almağın əziyyəti də, üstünlüyü də böyükdür: fərqli mədəniyyətlər, yeni insanlar, yüksəkkeyfiyyətli təhsil… Amma hər uğurlu təhsilin əsası yalnız hüquqi və inzibati aspektlərin düzgün olmasındadır. Bilik insana qanad verir, lakin düzgün seçim etmədikdə arzular puç olur.

***Fidan ƏLİYEVA***
***XQ***

# Dərsə gedən bir uşaq...

## *Məktəbəqədər təhsil bilik marafonunun ilk addımıdır*

**Təhsilə yol bağçadan başlayır və məktəbəqədər təhsil pilləsi ilə davam edir. Məhz bu dövrdə gələcək inkişafın, şəxsiyyət kimi formalaşmanın təməli qoyulur.**

Məktəbəqədər təhsil isə inkişafın müxtəlif sahələrinə təsir göstərir: məntiq, hafizə və diqqət güclənir, idman, hərəkətli oyunlar və rəsm vasitəsilə uşağın estetik zövqü formalaşır. Çətinliklərə uyğunlaşma, emosiyaların idarəsi bacarığı inkişaf edir, sadə tapşırıqları yerinə yetirməklə müstəqillik qazanılır. Məktəbəqədər hazırlıq prosesinin sonunda yeni mərhələ başlayır: məktəbli olmaq. 1-ci sinfə başlamaq fərqli sosial həyata qədəm qoymaq deməkdir. Buna görə də uşaqları məktəbə hazırlamaq üçün bir sıra proseslər həyata keçirilməlidir. Qeyd etmək lazımdır ki, 2025-2026-cı tədris ili üzrə uşaqların 1-ci sinfə qəbul prosesinə mayın 6-da start verilib. İndiyədək 125 min uşağın birinci sinfə qəbulu yekunlaşıb.

**Bu barədə Uşaq Psixo Nevroloji Mərkəzin psixoloqu Zərifə Babayeva** bildirdi ki, uşaqların məktəbə uyğunlaşması zamanı fərdi yanaşma vacibdir. Bu yanaşma uşağın temperamentinə, emosional vəziyyətinə görə dəyişir və oyun, söhbət, yaradıcı fəaliyyətlər vasitəsilə həyata keçirilə bilər. Uzunmüddətli adaptasiya çətinlikləri uşağın motivasiyasını zəiflədə, sosial münasibətlərdə çəkingənliyə və özünüifadə problemlərinə səbəb ola bilər. Bu baxımdan valideyn və müəllimlərin diqqəti, qayğısı mühüm rol oynayır. Uşağın kiçik uğurlarının qeyd olunması onun özünəinamını artırır və uyğunlaşma prosesini asanlaşdırır. Rol oyunları, yaradıcı məşğələlər və komanda fəaliyyətləri uşağın adaptasiyasını sürətləndirən ən təsirli üsullardandır. Bu fəaliyyətlər həm emosional sabitliyin möhkəmlənməsinə, həm də sosial bacarıqların inkişafına kömək edir.



**Uşaq psixoloqu Gülşən Cəfərova** əlavə etdi ki, bu dövrdə şagirdlər müxtəlif psixoloji dəyişikliklər yaşayır və adaptasiya prosesi bir qədər çətin olur. 6–7 yaşlı uşaqların qorxuları, davranışları və sosial münasibətləri nəzərə alınmadan uğurlu uyğunlaşma mümkün deyil.

Bu yaşda normal sayılan qorxular əsasən sosial xarakter daşıyır. Onlar dərsə gecikməkdən, səhv cavab verməkdən, fasilədən sonra sinfi tapa bilməməkdən narahat olurlar. Dostsuz qalmaq qorxusu da müşahidə olunur. Bəzi hallarda isə "bağça dövrünə" aid qorxular qalır: anadan ayrılmaqda çətinlik çəkmək, yeni situasiyalar qarşısında güclü narahatlıq keçirmək davam edir. Bu qorxular vaxtında müşahidə olunmalı, valideyn və müəllim tərəfindən düzgün idarə edilməlidir. Uşaqlar məktəb binası və müəllimlə öncədən tanış edilməlidir. Bu, onlarda məktəb mühitinə dair ilkin təsəvvür yaradır və həyəcanı azaldır. Eyni zamanda nağıl terapiyası metodundan istifadə etmək də faydalıdır – məktəbli özünü nağıl qəhrəmanı ilə eyniləşdirərək yeni situasiyalara daha asan uyğunlaşır.

Mütəxəssislərin fikrincə, birinci sinif adaptasiya ili hesab olunmalıdır. Bu dövrdə uşaq dərsə hazırlaşmağı, çantasını yığmağı, dostluq etməyi, axşamdan geyimlərini və dəftər-qələmini qaydaya salmağı öyrənir. Eləcə də cədvəllə işləmə bacarığı qazanır. Ən önəmli məqam isə valideynlərin yanaşmasıdır. Balacalar məktəbə sevərək getməlidirlər. Bu mərhələdə diqqət qiymətlərə deyil, uşağın məktəb mühitinə uyğunlaşmasına yönəlməlidir. Əgər ilk gündən qiymət təzyiqi artırılarsa, məktəb uşağın gözündə maraqlı deyil, stresli bir məkana çevrilə bilər.

Psixoloqlar azyaşlıların maraq və həvəsini artırmaq üçün müxtəlif metodikaların tətbiqini məsləhət görürlər. Onlardan biri də "yaşıl qələm" metodikasıdır. Bu metodda uşaqların düzgün cavabları yaşıl qələmlə işarələnir və diqqət səhvlərə deyil, doğru cavablara yönəldilir. Beləliklə, o, daha çox düzgün cavab yazmağa fokuslanır və özünə inamı artır. Əksinə, qırmızı qələmin istifadəsi uşağın psixoloji durumuna mənfi təsir edə, motivasiyanı azalda bilər.

Valideynlər övladlarının məktəbdən kənar dostluqlarını dəstəkləməlidirlər. Bunun üçün sadə yollar mövcuddur: uşaqları parkda görüşdürmək, evə dəvət etmək və ya birgə oyun saatları təşkil etmək. Beləliklə, uşaqların məktəbdən kənarda da münasibətləri möhkəmlənir və bu, onların məktəb daxilində ünsiyyətinə də müsbət təsir edir.

Məktəb azyaşlılar üçün yeni bir dünya deməkdir. Bu dünyaya rahat qədəm qoymaq üçün valideyn, müəllim və psixoloqların dəstəyi vacibdir. Uşaqların qorxularını, emosional vəziyyətini nəzərə almaq, düzgün motivasiya üsullarından istifadə etmək birinci sinfin həqiqətən də adaptasiya ili olmasına, uşaqların isə məktəb həyatına sevə-sevə uyğunlaşmasına imkan yaradır.

***Ləman TƏHMƏZ***
***XQ***

# Türkiyənin Muğla vilayətində Yörük-Türkmən festivalı

**Azərbaycan və Türkiyə arasında mədəni əlaqələrin daha da möhkəmləndirilməsi istiqamətində növbəti əhəmiyyətli addım atılıb. Türkiyənin Muğla vilayətində keçirilən 16-cı Yörük-Türkmən Festivalında Azərbaycan yüksək səviyyədə təmsil olunub. Festival Muğla Böyükşəhər Bələdiyyəsi, Valilik və yerli Yörük-Türkmən Dərnəyinin birgə təşkilatçılığı ilə Menteşe Düzeyn Yaylasında baş tutub.**

Festival çərçivəsində müxtəlif ölkələrlə yanaşı, Azərbaycanı təmsil edən ziyarətçilərə xüsusi stend təqdim olunub. Ölkəmizin Türkiyədəki səfirliyinin nəzdində fəaliyyət göstərən Azərbaycan Mədəniyyət Mərkəzinin direktoru Samir Abbasov stendlə tanış olub, festivalın açılış mərasimində iştirak edib.

Tədbirin əsas proqramı Yörük xalqının köklü mədəniyyətini əks etdirən bir sıra elementləri özündə cəmləşdirib. Bura əl işləri sərgiləri, ənənəvi mətbəx nümunələri, unudulmaz musiqi və rəqs nömrələri daxildir. Festivalda, eyni zamanda, Yörük xalqının adət-ənənələrini və həyat tərzini nümayiş etdirən məlumatlar da təqdim olunub.

Açılış mərasimində çıxış edənlər Yörük mədəniyyətinin türk millətinin köklü kimliyinin ayrılmaz bir hissəsi olduğunu xüsusi vurğulayıblar. Bu mədəniyyət türk dünyasının ortaq dəyəri kimi qəbul edilir və bu cür tədbirlər qədim türk mədəniyyətinin yaşadılması, gələcək nəsillərə ötürülməsi və türk xalqlarının həmrəyliyinin gücləndirilməsi baxımından böyük əhəmiyyət kəsb edir.

Bədii hissə ilə davam edən festivalda Türkiyənin müxtəlif bölgələrindən gələn folklor kollektivlərinin rəngarəng çıxışları iştirakçılar tərəfindən böyük maraqla izlənilib. Bu festival bir daha göstərdi ki, Azərbaycan və Türkiyə təkcə siyasi müttəfiq deyil, həm də ortaq mədəniyyətə və dəyərlərə sahib olan iki qardaş ölkədir.



***Arzu ƏLİYEVA***
***XQ***

# İctimai şura cəmiyyətin fəallığına töhfələr verir



**Məlum olduğu kimi, ölkəmizdə dövlət və cəmiyyət həyatının müxtəlif sahələrində dövlət siyasətinin hazırlanmasında və həyata keçirilməsində, ümumdövlət və yerli səviyyədə qərarların qəbulunda, yerli icra hakimiyyəti və özünüidarə orqanlarının fəaliyyətinə ictimai nəzarətin təşkilində vətəndaşlar və vətəndaş cəmiyyəti institutları da fəal iştirak edirlər. Bu baxımdan, "İctimai iştirakçılıq haqqında" Azərbaycan Respublikası Qanunu əsasında yaradılmış İctimai Şuralar (İŞ) mühüm rol oynayır.**

İdarəetmə orqanları ilə vətəndaş cəmiyyəti arasında körpü səciyyəsi daşıyan, əsasən məşvərətçi və əlaqələndirici qurum kimi çalışan İctimai şuralardan biri də Sumqayıt Şəhər İcra Hakimiyyətinin yanında yaradılıb. Şuranın sədri şəhərin ictimai-siyasi və mədəni həyatında daim fəal iştirakı ilə seçilən həkim, yazıçı-publisist Hümbət Quliyevdir. Onunla söhbətimiz İctimai şuraların mahiyyəti və rəhbərlik etdiyi qurumun gördüyü işlər barədədir.

**– Hümbət müəllim, əvvəlcə bu ictimai fəallıq hərəkatının cəmiyyətin həyatındakı rolundan danışardınız...**

– İctimai şuraların yaradılmasından əsas məqsəd vətəndaşların dövlətin idarəedilməsinə geniş cəlbi və icra orqanlarının fəaliyyətinin səmərəliliyinin daha da artırılmasına töhfələr verməkdir. Çalışmaları qanunla tənzimlənən bu şuraların mexanizmləri monitorinqlər, müşahidələr və vətəndaş müraciətlərinin araşdırılıb həlli üçün vasitəçilik edilməsidir. Şuralarda vətəndaş cəmiyyəti institutları, QHT-lər, bələdiyyələr, həmkarlar ittifaqları, kütləvi informasiya vasitələri təmsil olunur. Yəni hədəf kimi vətəndaş potensialının sağlam cəmiyyət üçün səfərbər edilməsi götürülür. Sizin də qeyd etdiyiniz kimi, biz vətəndaş institutları ilə icra orqanları arasında körpü olaraq, bir növ ünsiyyət vasitəçiliyi edir, problemlərin üzə çıxarılıb həll olunmasına çalışır.

**– Sizin rəhbərlik etdiyiniz İctimai Şura kimlərdən ibarətdir?**

– Gizli səsvermə yolu ilə seçilmiş 15 nəfər üzvümüz var. Hamısı nüfuzlu şəxslərdir. Sədr müavini Məhəmməd Vəliyev, Qafqaz Müsəlmanları İdarəsinin bölgə qazısı Hacı Rauf Sərdarov, AYB Sumqayıt bölməsinin sadri Gülnarə Cəmaləddin, "Qızıl Aypara"nın regionalal koordinatoru Mətanət Məhərrəmova, şair-publisist Rafiq Oday, Qarabağ Müharibəsi veteranı Çingiz Məmmədov, Mədəniyyət İşçiləri Həmkarlar İttifaqının yerli komitə sədri Şahin Şəfiyev, şairə Xatirə Fərəcli və digərləri tanınmış ziyalılar, həmçinin ictimai fəal gənclərdir. Birgə səylərlə qarşıda duran vəzifələri gerçəkləşdiririk.

**– Hər bir vətəndaş öz müşkülü ilə bağlı sizə müraciət edə bilirmi?**

– Yox. Məsələ burasındadır ki, İctimai şuralar sırf şəxsi problemlərlə deyil, adından da göründüyü kimi, məhz ictimai mahiyyət daşıyan məsələlərlə məşğul olur (Şəhid ailələrinin, qazilərin müraciətləri istisna olmaqla). Biz əsasən cəmiyyətin idarəetməyə dəstəyini formalaşdırırıq, toplumun sosial qayğılarına kömək edirik. Buraya hamının istifadə etdiyi ictimai nəqliyyat, su, işıq, qaz təchizatının, yol infrastrukturunun yaxşılaşdırılması və sair daxildir. Maarifləndirmə işimizin məğzi budur ki, hansısa məmurun nöqsanı, yarıtmaz işi nahaqdan dövlət strukturunun ayağına yazılmasın. İnsanlara səhiyyənin, təhsilin və digər sahələrin mövcud olan və potensial imkanlarını çatdırırıq. Məramımız Sumqayıtın həm işləmək, həm də yaşamaq üçün rahat şəhər olmasıdır. Belə olduqda, şəhərimizin xarici investorlar üçün də cəlbediciliyi artır və son nəticədə yeni iş yerləri yaradılmaqla məşğulluq imkanları da genişlənir.

**– Şuranız, son vaxtlarda, konkret olaraq, hansı sahələrə diqqət yetirib?**

– Bir araşdırmamız nəqliyyatın vəziyyətinə aid olub. Könüllülərin də iştirakı ilə şəhərimizdə ictimai nəqliyyat xidmətinin vəziyyəti, avtobusların rahat yollarda hərəkəti imkanları, yay mövsümündə kondisionerlərin işləyib-işləməməsi, kart sisteminin tətbiqi və digər bu kimi amillərə diqqət yetirmiş, əlaqədar qurumlara tövsiyələr vermişik. Nəticə də müsbət olub: indi Sumqayıtda yüzlərlə yeni avtobus alınaraq xəttə buraxılıb, ən ucqar küçələrə belə ictimai nəqliyyat vasitələri rahat gedib çıxır, hərəkət cədvəlinə ciddi riayət olunur və sair.

Səhiyyə sistemi üzrə şəkərli diabet xəstələrinin kütləvi olaraq qlükometrlərlə təminatına nail olmuşuq. Daha bir aktual məsələ – ətraf mühitin təmizliyi üçün atılan addımlardır. Zavodların tullantı sularının bir yerə yığılıb təmizlənməsi, dənizə çirkli su axınının qarşısının alınması bu sıradandır. Artıq bu problemin bir qismi həll edilib. Məsələn, Acıdərə kanalına borular qoyulub, bir sıra yerdə təmizləyici qurğular tikilib və məsələ tezliklə tam həllini tapacaq.

Ekoloqlarla birlikdə kustar sexlərin havanı çirkləndirməsinin, şadlıq saraylarından səs-küyün həddindən artıq ətrafa yayılmasının qarşısının alınması, mağazalarda qida təhlükəsizliyinə nail olunması (vaxtı keçmiş məhsulların istehsal tarixinin saxtalaşdırılmasının qarşısının alınması), mənəvi dəyərlərin təbliği, narkomaniyaya qarşı ictimai mübarizə də uğurlu işlərimiz sırasındadır. Prioritet istiqamətlər bunlardır.

**– Şuranın bürokratik struktur olma ehtimalı necədir?**

– Buna qətiyyən yol vermək olmaz. Biz yoxlamalar keçirmirik, monitorinqlər, ictimai müşahidələr aparırıq. Bir də ki, ayrı-ayrı sahələr üzrə ixtisaslaşmış QHT-lərin araşdırma nəticələrinin icra strukturlarına çatdırılmasına dəstək oluruq. Prinsiplərimiz qanunçuluq, qərəzsizlik, könüllülük, şəffaflıq, plüralizm, bərabərlik və ayrı-seçkiliyə rəvac verilməməsidir. Onu da deyim ki, başda Zakir Fərəcov olmaqla, Sumqayıt şəhər rəhbərliyi müraciətlərimizə çox həssas yanaşır, qaldırdığımız məsələlərə maksimum diqqət yetirir, bizi zəruri olan məlumatlarla təmin edir və təşəbbüslərimizi daim dəstəkləyir. Elə müəyyən müsbət nəticələrə nail olmağımızın bir səbəbi də budur.

**– Adını layiqincə doğruldan İctimai Şuranıza davamlı uğurlar arzu edirik!**

***Əli NƏCƏFXANLI***
***XQ***

**"Akkord Sənaye Tikinti İnvestisiya Korporasiyası" ASC-nin 2024-cü il dekabrın 31-nə (konsolidə) icmal olunmuş maliyyə vəziyyəti haqqında hesabatı**

manatla

| AKTİVLƏR | 31 dekabr 2024-cü il | 31 dekabr 2023-cü il |
|---|---|---|
| Torpaq, əmlak və avadanlıqlar (əsas vəsaitlər) | 14,222,192.78 | 14,391,841.28 |
| Qeyri-maddi aktivlər | 340,101.96 | 340,101.96 |
| Sair uzunmüddətli maliyyə aktivləri | 118,229,393.92 | 118,229,393.92 |
| **Cəmi uzunmüddətli aktivlər** | **132,791,688.66** | **132,961,337.16** |
| Ehtiyatlar | 40,351,412.62 | 40,467,501.37 |
| Qısamüddətli debitor borcları | 110,990,529.60 | 111,056,065.10 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 21,032.51 | 1,859.12 |
| Sair qısamüddətli aktivlər | 203,288,253.28 | 203,693,732.43 |
| **Cəmi qısamüddətli aktivlər** | **354,651,228.01** | **355,219,158.02** |
| **CƏMİ AKTİVLƏR** | **487,442,916.67** | **488,180,495.18** |
| Ödənilmiş nominal (nizamnamə) kapitalı | 90,331,084.47 | 90,331,084.47 |
| Bölüşdürülməmiş mənfəət | 87,845,043.93 | 88,586,849.15 |
| **CƏMİ KAPİTAL** | **178,176,128.40** | **178,917,933.62** |
| Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər | 7,499,466.95 | 7,499,466.95 |
| **Cəmi uzunmüddətli öhdəliklər** | **7,499,466.95** | **7,499,466.95** |
| Qısamüddətli kreditor borcları | 69,955,767.52 | 70,038,982.16 |
| Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | 836,230.21 | 918,940.47 |
| Sair qısamüddətli öhdəliklər | 230,975,323.59 | 230,805,171.98 |
| **Cəmi qısamüddətli öhdəliklər** | **301,767,321.32** | **301,763,094.61** |
| **CƏMİ ÖHDƏLİKLƏR** | **301,767,321.32** | **301,763,094.61** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | **487,442,916.67** | **488,180,495.18** |

**MƏNFƏƏT VƏ ZƏRƏRLƏR HAQQINDA HESABAT**

| | |
|---|---|
| Əsas əməliyyat gəliri | 1,710,499.62 |
| Satışın maya dəyəri | -116,088.75 |
| **Ümumi mənfəət (zərər)** | **1,594,410.87** |
| Kommersiya xərcləri | -2,369,022.16 |
| İnzibati xərclər | -98,193.80 |
| **Əməliyyat mənfəəti (zərəri)** | -872,805.09 |
| **Vergitutmadan əvvəl mənfəət (zərər)** | -872,805.99 |
| Mənfəət vergisi | -1,081.01 |
| **Hesabat dövründə xalis mənfəət (zərər)** | -873,887.00 |

| **Pul vəsaitlərinin hərəkəti haqqında hesabat** | **31 dekabr 2024-cü il** |
|---|---|
| Hesabat dövründə xalis mənfəət /zərər | -872,805.17 |
| Mənfəət vergisi üzrə xərclər | -1,081.01 |
| Əsas vəsaitlərin amortizasiyası | 505,547.82 |
| Əsas vəsaitlərin satışından və xaric olmasından gəlirlər/zərərlər | 174,066.79 |
| Ehtiyatlar üzrə artma/azalma | 116,088.75 |
| Debitor borcları üzrə artma/azalma | 65,535.50 |
| Sair aktivlər üzrə artma/azalma | 407,320.88 |
| Cari vergi öhdəlikləri üzrə artma/azalma | -82,710.26 |
| Əməliyyat kreditor borcları və hesablaşmalar | -83,214.64 |
| Sair qısamüddətli öhdəliklər | -42,848.39 |
| Alınmış avanslar üzrə artma/azalma | -213,000.00 |
| Sair | 130,238.63 |
| ***Əməliyyat fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti*** | 529,138.90 |
| Əsas vəsaitlərin alınması | -509,965.51 |
| **İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | **-509,965.51** |
| ***Pul vəsaitləri və onların ekvivalentlərinin xalis artması (azalması)*** | 19,173.39 |
| ***İlin əvvəlinə pul vəsaitləri və bank overdraftları*** | **1,859.12** |
| ***İlin sonuna pul vəsaitləri və bank overdraftları*** | **21,032.51** |
| ***İl ərzində artım/azalma*** | **19,173.39** |

**KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT**

| | Nizamnamə Kapitalı | Bölüşdürülməmiş mənfəət | Cəmi kapital |
|---|---|---|---|
| **2023-cü il dekabrın 31-nə qalıq** | **90,331,084.47** | **88,586,849.15** | **178,917,933.62** |
| Hesabat dövründə xalis mənfəət (zərər) 2024-cü il dekabrın 31-nə qalıq | | -873,886.10 | **-873,886.10** |
| Mülkiyyətçilər arasında kapitalın bölüşdürülməsi (dividend) | | | **0.00** |
| Sair | | 132,080.88 | **132,080.88** |
| **2024-cü il dekabrın 31-nə qalıq** | **90,331,084.47** | **87,845,043.93** | **178,176,128.40** |

**2025-ci il iyunun 23-də "KH.J.A Audit-Consultinq Xidməti" MMC-nin direktor-auditoru X.C.Əliyev tərəfindən "Akkord Sənaye Tikinti İnvestisiya Korporasiyası" ASC-nin maliyyə vəziyyəti haqqında hesabatına müsbət rəy verilmişdir.**

**Xuntaçıların məhkəməsi**

# Erməni hərbçilərinin qanlı əməlləri sübuta yetirilir





**Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin sülh və insanlıq əleyhinə, müharibə və digər ağır cinayətlərdə təqsirləndirilən Ermənistan vətəndaşı Ruben Vardanyanın barəsində cinayət işi üzrə məhkəmə prosesi sentyabrın 9-da davam etdirilib.**

Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Anar Rzayevdən və Camal Ramazanovdan ibarət tərkibdə keçirilən açıq məhkəmə iclasında zərərçəkmişlərin hüquqi varislərinin və zərərçəkmiş şəxslərin ifadələri dinlənilib.

Qorxmaz İsgəndərovun atası İsgəndər İsgəndərov oğlunun düşmən Kəlbəcərdə, Amid Qədirovun anası Zülfirə Qədirova övladının Ağdərədə, Ağami Əlişanovun anası Dilbər Əhmədova oğlunun Ağdərədə, Osman Ağaxanovun atası Qədim Ağaxanov övladının Xocavənddə, Elnur Rüstəmovun atası Faid Rüstəmov oğlunun Kəlbəcərdə, Ceyhun Şıxəliyevin atası Oktay Şıxəliyev övladının Ağdərədə həlak olduqlarını bildiriblər.

Zərərçəkmiş Şöhrət Cəfərov Kəlbəcərin Susuzluq kəndində mina partlayışı zamanı 3 nəfərin - Məhərrəm İbrahimovun (AZƏRTAC-ın müxbiri – red.), Sirac Abışovun (AzTV-nin operatoru – red.) və Arif Əliyevin (Susuzluq kənd inzibati ərazi dairəsi üzrə nümayəndəsinin müavini – red.) həlak olduğunu, özü də daxil olmaqla digər şəxslərin xəsarətlər aldığını bildirib.

Zərərçəkmiş şəxs Anar Qlinçev Xankəndi istiqamətində qəlpə yarası aldığını bildirib. Şəmsi Kazımlı iki dəfə - Hadrutda və Laçında yaralandığını deyib. Azad Axundov Xocavənddə, Yusif Kərimov Xocavənddə, Yusif Ömərov Ağdamda yaralandıqlarını söyləyiblər. Nemәti Qasemi Ağdamda, Mirqabil Mirzəyev və Aqil Rəhimov Xocavənddə, Həmid Ağazadə Xankəndidə xəsarət aldıqlarını bildiriblər.

Rəhim Nəsirov Xankəndidə yaralandığını, hadisə zamanı 5 nəfərin də yaralanıb, 1 nəfərin isə həlak olduğunu deyib. Fərman Həsənov Ağdərədə, Nazir Nurəliyev Şuşa-Xankəndidə, Rəşad Aslanov Ağdamda, Ariz Əliyev Xocavənddə yaralandıqlarını bildiriblər. Turan Məhərrəmovun atası Tərlan Məhərrəmov oğlunun Kəlbəcərdə həlak olduğunu deyib.

İntiqam Cumayev Ağdamda yaralandığını bildirib. O deyib ki, təxliyə etməyə çalışdığı yaralanmış şəxslər həmin vaxt həlak olublar. Dair Cumartov, Elman Bayramov, Samir Yaralıyev, Ömər Əhmədov, Alim Xanəliyev, Bəxtiyar Verdiyev Ağdamda, Taleh Hacıyev Xocavənddə, Rəşad Aslanov Şuşada xəsarət aldıqlarını bildiriblər.

Digər zərərçəkmiş şəxslər - Hidayət Cahangirov, Ümüd Həsənli, Kənan Məmmədov, Ayaz Rzayev, İlkin Həsənov, Qurban Hüseynov, Hüseyn Hüseynov, Cavid Qarayev, Taleh Sadıqov, Rəvan Manafov, Cəsarət Sarıyev müxtəlif ərazilərdə yaralandıqlarını bildiriblər.

Sonra məhkəmə iclasında zərərçəkmiş şəxslər barəsində olan məhkəmə-tibbi ekspertizasının rəyləri elan edilib.

Məhkəmənin növbəti iclası sentyabrın 16-na təyin olunub.

***XQ***


# "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyəti

*Şəbəkə avadanlıqlarının, ip telefoniyanın və şəbəkəyə qoşulma, idarəetmə vasitələrinin satınalınması üçün*

## AÇIQ TENDER ELAN EDİR

"Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin Şəbəkə avadanlıqlarının, ip telefoniyanın və şəbəkəyə qoşulma, idarəetmə vasitələrinin satınalınması üçün açıq tenderində iştirakçılar arzu.qasimli@azal.az elektron poçt ünvanına yazılı müraciət etməklə prosedurun şərtlər toplusunu əldə edə bilərlər.

Təkliflərin təqdim olunması üçün son tarix 24 sentyabr 2025-ci il saat 16:00-dır.

Prosedur üzrə əlaqələndirici şəxs – Arzu Qasımlı, mütəxəssis, arzu.qasimli@azal.az, iş – (+99412) 4972600 daxili 6989.


# Ölkəmizdə istilik sektoru karbondan imtina edir

**Asiya İnkişaf Bankının (AİB) maliyyə dəstəyi ilə Azərbaycanda "İstilik təchizatı sektorunun dekarbonizasiyası və bərpaolunan mənbələrdən istilik enerjisinin inteqrasiyasının təşviqi" texniki yardım layihəsinin icrasına başlanılıb. AİB-nin Təmiz Enerji Fondu və Texniki Yardım Xüsusi Fondu tərəfindən maliyyələşdirilən layihənin dəyəri 1,1 milyon ABŞ dolları təşkil edir. Bu barədə XQ-yə Energetika Nazirliyindən məlumat verilib.**




Bildirilib ki, layihənin əsas məqsədi istilik təchizatı sahəsində Milli Strategiyanın və "İstilik təchizatı haqqında" qanunun icrasından irəli gələn normativ-hüquqi sənədlərin layihələrinin hazırlanması, istilik sektorunun dekarbonizasiyası, mövcud isitmə sistemlərinin enerji səmərəliliyinin artırılması, tarif siyasətinin optimallaşdırılması, pilot layihə vasitəsilə bərpaolunan mənbələrdən istilik enerjisinin inteqrasiyasının təşviqi, "Azəristiliktəchizat" ASC-nin inkişaf strategiyasının hazırlanmasını əhatə edir.

Texniki yardım layihəsinin icrası məqsədilə məsləhətçinin cəlb edilməsi üçün AİB tərəfindən aparılmış seçim prosesi avqust ayında yekunlaşıb və "NİRAS" (Danimarka), "Integration Environment & Energy GMBH" (Almaniya) və "ENERGAZER" MMC (Azərbaycan) şirkətlərindən ibarət birgə müəssisə məsləhətçi kimi seçilib. Layihə çərçivəsində nəzərdə tutulan xidmətlərin 2027-ci ilin mart ayınadək tamamlanacağı planlaşdırılır.

Qeyd edək ki, layihənin icrası müddətində müvafiq texniki və təşkilati dəstəyin göstərilməsi Energetika Nazirliyi və "Azəristiliktəchizat" ASC tərəfindən həyata keçiriləcək.

***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 192 (30886) 10 sentyabr 2025-ci il, çərşənbə

# “Bir ovuc xoşbəxtlik yetər!”

## *Finlər bu düşüncə ilə özlərini dünya bəxtəvəri sayırlar*

**Xoşbəxtlik nədir? Ona necə çatmaq olar? Elliklə xoşbəxtlik olurmu? Bəşər övladı tarix boyu bu və buna bənzər suallara cavab tapmağa çalışıb.**

BMT bu mövzuda növbəti sorğu keçirib. Nəticələr “Dünyanın ən xoşbəxt ölkələri” adlı hesabatda açıqlanıb. Finlandiya ardıcıl olaraq 8-ci dəfə birinci yerdə qərarlaşıb. Amma finlərin özləri bu xəbəri adi bir hal kimi, hətta laqeyd qarşılayıblar. Səbəb nədir?

BBC müxbiri yazır ki, “Helsinki” hava limanına çatanda, yaxud Baltik dənizi kruizindən Finlandiya limanlarından birinə enəndə sizi heç də “Dünyanın ən xoşbəxt ölkəsində” gülüş və şən zarafatlarla qarşılamayacaqlar. Həqiqət budur ki, finlər zahiri təmtərağı, hay-küyü sevmirlər. Onlar sadə həyat tərzini qəbul etmiş insanlardır.

Xoşbəxtlik anlayışı finlərin düşüncəsində “məmnunluq”, “dinclik”, “həyatdan razılıq” məzmunu kəsb edir. Təbii ki, bu fani dünyanın heç bir yerində ideal şərait və əbədi səadət olmur. Əlbəttə, hər şey nisbidir. Eləcə də insanın özünü səadətin hansı qatında hiss edib-etməməsi də...

Təsadüfi deyil ki, Finlandiya Prezidenti Aleksandr Stabb sözügedən sorğu ilə bağlı özünün “Facebook” səhifəsində yazıb ki, “heç kim daim xoşbəxt ola bilməz. Bəzən şərait xoşbəxt olmağı çətinləşdirir. Xoşbəxtlik hər bir toplumun təhlükəsizlik, azadlıq və bərabərlik kimi əsas hüquqlara sahib olmasından başlanır”..

Sosioloqlar qeyd edirlər ki, Finlandiyada xoşbəxtlik anlayışı insanların gündəlik həyatı ilə sıx bağlıdır. Belə ki, finlər daim həzz dalınca qaçmaq əvəzinə, insanlarla ünsiyyətdə hörmət və məmnuniyyətə üstünlük verirlər. Bu düşüncə onların qəlbləri və davranışlarına hakim kəsilib.

Turistlər finlərin həyat tərzini müşahidə etdikcə bundan heyrətlənərək təsirlənirlər. Ölkənin ən böyük turizm kampaniyalarından biri olan “Visit Finland”ın beynəlxalq əməliyyatlar üzrə direktoru Teemu Aloha bu barədə belə deyib:

–Düşünürəm ki, finlərin xoşbəxtliyinin əsas ünsürü təbiətlə təmas qurmaqdır. Helsinkidə velosiped icarəyə götürmək və sahilboyu yollarla sürmək, yaxud şəhər mərkəzindən şimaldakı meşə zolağına doğru getmək asan olduğu qədər zövqlü bir duyğudur.





Həkimlər isə bu qənaətdədirlər ki, təbiətdə belə sərbəst ruhlu bir macəra xoşbəxtlik hormonu endorfinin artmasına səbəb olur. Bu amil BMT-nin uzunömürlülük, azadlıq və xoşbəxtlik meyarları ilə birbaşa əlaqəlidir.

Fin dilində “xoşbəxtlik” sözü birbaşa tərcüməsi çətin olan, amma dözümlülük, tolerantlıq, cəsarət və iradənin birləşməsindən ibarət məna daşıyan “sisu” anlayışını özündə ehtiva edir.

Bu barədə fin mənşəli kanadalı yazıçı Katya Pantzar çox yazıb. Onun qənaəti budur ki, finlər üçün xoşbəxtlik insanların və cəmiyyətlərin çətinliklər və sıxıntılar qarşısında təslim olmaq, bir-birini günahlandırmaq əvəzinə birlikdə qalmalarını təmin edən bir düşüncə tərzidir.

K.Pantzar belə bir məqama da diqqət çəkir ki, dünyanın ən xoşbəxt ölkələri sıralamasında ilk dördlükdə Skandinaviya ölkələri yer alıb. O ölkələr ki, sosial rifahı dəstəkləmək üçün güclü sosial təminat sistemləri qurublar.

Finlandiyada insanlar ən yaxın meşədən, parkdan, sahildən və ya göldən orta hesabla 200 metr uzaqlıqda yaşayırlar. Burada istər təbiət, istərsə də çox sayda saunalar, ictimai kitabxanalar, səmərəli və təhlükəsiz ictimai nəqliyyat, təmiz içməli su, təhsil və səhiyyə xidmətləri hamı üçün əlçatandır. Hər kəs üçün gündəlik xoşbəxtliyin çoxsaylı nümunələri mövcuddur.

BBC-nin şərhində həmçinin qeyd olunur ki, bəzi finlər “Dünyanın ən xoşbəxt ölkəsi” tituluna şübhə ilə yanaşırlar. Məsələn, təqaüdçü Juha Roha deyib ki, Finlandiyanın dünyanın ən xoşbəxt ölkəsi olduğunu düşünmək və bunu mütləq həqiqət kimi qəbul etmək onun üçün heç də asan deyil. Tailand və Nepal kimi kasıb ölkələrdə də bütün çətinliklərə baxmayaraq, insanlar sakit və rahat görünürlər.

Dünyanın hər yerində xoşbəxt olmağa hər bir fərdin haqqı var. Şair-dramaturq Vaqif Səmədoğlunun “Bəxt üzüyü” komediyasının qəhrəmanı şair Moşu Göyəzənli də əsər boyu xoşbəxtlik sözünə qafiyə axtarır və tapa bilmir. Xoşbəxtlik bəlkə də axtarış prosesinin özüdür. İnsan bir şeyi axtarırsa, deməli, onun tapmaq, arzusuna çatmaq şansı da var!

Bəlkə də xoşbəxt olmaq üçün sadəcə böyük iddialara düşmək lazım deyil. Tanınmış müğənni, Xalq artisti Mübariz Tağıyev mahnılarının birində oxuduğu kimi, bunun üçün “əl içi boyda xoşbəxtlik yetər!”.

**Hörmətli oxucular, hər birinizə xoşbəxt olmaq diləyi ilə bu qeydləri qələmə aldı:**

***M.HACIXANLI***
***XQ***

## İDMAN

### Azərbaycan–Ukrayna-1:1




**Dünən DÇ-2026-nın seçmə mərhələsinin D qrupunun oyunları keçirilib. Azərbaycan millisi Bakıda Tofiq Bəhramov adına Respublika stadionuda Ukrayna komandasını qəbul edib. Oyunun birinci hissəsində hesab açılmayıb. 51-ci dəqiqədə Georgiy Sudakov ukraynalıları önə çıxarıb–1:0.**

72-ci dəqiqədə millimizin kapitanı Emin Mahmudov penaltidən hesabı bərabərləşdirib – 1:1. Bununla da Emin millinin heyətində qollarının sayını 15-ə çatdırmaqla ən məhsuldar futbolçu kimi tarixi rekorda imza atıb.

Ayxan Abbasovun baş məqçiliyi ilə millimiz ilk görüşü heç-heçə başa çatdırıb.

### Badmintonçularımız Dünya çempionatına vəsiqə qazanıblar




**Azərbaycan Badminton Federasiyasının mətbuat xidmətindən verilən məlumata görə, ölkəmizin airbadminton millisi Dünya çempionatına vəsiqə qazanıb.**

Bakıda keçirilən airbadminton üzrə Avropa çempionatında komanda yarışında qitənin ən güclü 2-ci komandası ünvanını qazanan milli bu il dekabrın 11-dən 14-nə qədər Birləşmiş Ərəb Əmirliklərinin Şarja şəhərində keçiriləcək dünya çempionatında iştirak hüququ əldə edib.

Qeyd edək ki, mundialda Avropanı Azərbaycanla yanaşı, son çempion Almaniya və Bakıda keçirilən qitə çempionatında üçüncü olan Bolqarıstan təmsil edəcək.

### Cüdoçularımız Braziliyada təlim-məşq keçirlər




**Azərbaycan Cüdo Federasiyasından verilən məlumata görə, ölkəmizin kişilərdən ibarət cüdo yığması Braziliyanın San-Paulu şəhərində keçirilən beynəlxalq təlim-məşq düşərgəsinə qatılıb.**

Toplanışa Azərbaycan Cüdo Federasiyasının vitse-prezidenti Elnur Məmmədli, performans direktoru və yığmanın baş məşqçisi Riçard Trautman, böyük məşqçilər Elxan Məmmədovla Robert Kravçik rəhbərlik edirlər.

İki həftə davam edəcək toplanış milli komandamızın V İslam Həmrəyliyi Oyunlarına hazırlığının vacib mərhələsidir.

***Q.ƏLİYEV***
***XQ***

# Süni intellekt ixtisasa çevrilir



**Sentyabrın 8-də Bakıda Süni İntellekt Akademiyasının açılış mərasimi keçirilib. Tədbirdə elm və təhsil naziri Emin Əmrullayev, rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev iştirak ediblər.**

Elm və Təhsil Nazirliyindən bildirilib ki, açılış mərasimində akademiyanın fəaliyyət planı, təhsil proqramları və ölkədə süni intellekt ekosisteminin inkişafına dair qarşıya qoyulan hədəflərlə bağlı məlumat verilib. İştirakçılar tədris mühiti və yaradılmış şəraitlə tanış olub, tələbələrlə təhsil prosesinə hazırlıq, onların gözləntiləri və gələcək planları barədə fikir mübadiləsi aparıblar.

Yeni təhsil ocağı “AZCON Holding”in dəstəyi ilə fəaliyyət göstərəcək tədris mərkəzidir. Akademiya “Azərbaycan Respublikasının 2025–2028-ci illər üçün süni intellekt Strategiyası”na əsasən yaradılıb.

Süni İntellekt Akademiyasının əsas məqsədi süni intellekt sahəsində mütəxəssislər hazırlamaq və ölkədə rəqəmsal transformasiyanı sürətləndirməkdir. Akademiya gələcəkdə Azərbaycanı regionda süni intellekt təhsili və innovativ layihələrin tətbiqi üzrə aparıcı mərkəzə çevirməyi hədəfləyir.



Akademiyanın fəaliyyətində qlobal elmi mühitə inteqrasiyanı təmin etmək məqsədilə süni intellekt sahəsində dünyanın aparıcı ali təhsil müəssisələri olan Massaçusets Texnologiya İnstitutu (MIT), Kaliforniya Universiteti, Karnegi Mellon Universiteti, Harvard Universiteti və Stanford Universiteti ilə əməkdaşlıqlar qurulub. Bu nüfuzlu universitetlərin professor və alimləri akademiyaya qonaq mühazirəçi kimi dəvət olunacaqlar.

Mərasimdə süni intellekt geniş dil modeli prototipi də təqdim olunub. Bu prototip, ümumilikdə, 10 milyard token və 1,2 milyon sintetik məlumat üzərində istiqamətli öyrənmə və tənzimləmələr aparılmaqla ərsəyə gətirilib. Layihə Azərbaycanın suveren süni intellekt potensialının mümkünlüyünü nümayiş etdirməklə yanaşı, milli innovasiya ekosisteminin inkişafında mühüm mərhələ kimi dəyərləndirilir.

***Q.YUSİFOĞLU***
***XQ***

## Hava

### Bakıda yağmursuz, bəzi rayonlarda qısa yağış və dolu

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, gündüz havanın arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Mülayim şimal-qərb küləyi əsəcək.**

Havanın temperaturu gecə 20-24, gündüz 27-30 dərəcə isti olacaq. Atmosfer təzyiqi 758 millimetr civə sütunu, nisbi rütubət gecə 70-80, gündüz 50-55 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında hava şəraiti əsasən yağmursuz keçəcək. Lakin gündüzdən bəzi dağlıq və dağətəyi rayonlarda arabir yağış yağacağı, şimşək çaxacağı proqnozlaşdırılır. Ayrı-ayrı yerlərdə qısamüddətli leysan xarakterli olacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi yerlərdə duman müşahidə ediləcək. Mülayim qərb küləyi bəzi yerlərdə arabir güclənəcək.

Havanın temperaturu gecə 18-23, gündüz 30-34, dağlarda gecə 12-17, gündüz 21-26 dərəcə isti olacaq.

***Q.ƏLİYEV***
***XQ***

*✓ 2017-ci il sentyabrın 12-də Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən fiziki şəxs Hüseynov Xanlar Yunus oğlunun adına verilmiş tikintisinə icazə tələb olunan və barəsində məlumatlandırma icraatı tətbiq olunan bina və qurğuların layihələndirilməsini həyata keçirməyə icazə verən İN/L-814/2017 nömrəli lisenziyanın əlavəsi itdiyi üçün etibarsız sayılır.*

*✓ Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti tərəfindən İsmayılova Nuran Cavid qızının adına verilmiş 057182 nömrəli xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.*

**ALLAH RƏHMƏT ELƏSİN**

Ağcabədi Rayon İcra Hakimiyyətinin başçısı Rafil Hüseynov Azərbaycan Respublikası Nazirlər Kabinetinin İşlər İdarəsinin müdiri Hikmət Xəlilova bacısı

**SƏADƏT XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 Email: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq” qəzeti redaksiyası” MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3458
SİFARİŞ 1740
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Tahir AYDINOĞLU
Çapa imzalanmışdır 00:00